# Darvinizmlə elmi mübarizə aparmağın əhəmiyyəti

**Harun Yəhya**

# İçindəkilər


## Giriş

**Darvinizmi müsəlmanlaşdırma səyləri: Passiv, aciz, təslimçi mübarizənin bir növü**

Darvinizm necə bir təhlükədir?

**Darvinizmlə necə mübarizə aparılar?**

**Nəticə**

**Darvinizm yanılması**

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən

insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# Giriş

Darvinizm, Allahın varlığını və vahidliyini, insanların Rəbbimizə qarşı məsul olduqlarını inkar edər. Materializmin və din əxlaqına uyğun olmayan cərəyanların dayaq nöqtəsidir. Bundan ötrü də, elmi baxımdan çürüdülmüş olmasına baxmayaraq, ideoloji qayğılarla ayaqda saxlanılmağa çalışılır.

Kainatın və insanın, kortəbii təsadüflərin əsəri olduğu yalanını müdafiə edən darvinist-materialist cərəyanlar, guya bir növ heyvan olan insanlar arasındakı əlaqələrin də heyvani xarakterli olmalı olduğunu iddia edərlər. Bu azğın dünyagörüşü, eqoizmi, mərhəmətsizliyi, müharibəni, qarşıdurmanı, insan öldürməyi normal hesab edər. Mərhəmət, sevgi, şəfqət, hörmət kimi duyğuları isə, guya təkamül prosesini zəiflədən bir maneə hesab edərlər. Darvinist təlqinlərlə insanları sevməyən, zalım, təcavüzkar, mənfəətçi insanlar yetişər.

Darvinizm, 150 ildən artıqdır ki, dinsizliyi, əxlaqsızlığı, anarxiyanı, müharibə və qarşıdurmanı cəmiyyətlərə təlqin edir və onun bu təlqinləri böyük ictimai fəlakətlərə səbəb olur. Müharibələr, qırğınlar, anarxiya və terror hadisələriylə keçən 20-ci əsr, bu vəziyyətin sübutdur. Digər millətləri təkamül prosesini tamamlamamış bir heyvan növü hesab edən, inkişafın ancaq mübarizə aprmaqla mümkün olduğunu güman edən, insanlar arasında da vəhşi təbiət qanunlarının qüvvədə olduğuna inananlar dünyanı qan gölünə çeviriblər.

Hal-hazırda da darvinist təbliğat güclü şəkildə davam edir. Gənclərə, məsuliyyətsiz olduqları təlqini verilərək əxlaqsızlığa, digər insanların dəyərsiz olduğu deyilərək qəddarcasına onları tapdalamağa, qarşıdurmanın məqbul olduğunu iddia edərək müharibəyə, anarxiyaya və terrora sürükləyirlər. Bir çox ölkə, darvinizm nəticəsində yaranan ictimai problemlərlə mübarizə aparır.

Bu vəziyyət qarşısında, insanların, darvinizmin yaratdığı təhlükələr və yalanları barədə xəbərdar edilməsi və belə təhlükəli zehniyyətin fikri mübarizə ilə təsirsiz hala gətirilməsi həyati əhəmiyyətə malikdir. Darvinizm və səbəb olduğu təhlükələri qavraya bilməyən insanlar, darvinizmə qarşı aparılan elmi mübarizənin əhəmiyyətini də anlaya bilmirlər.

Bu insanlar darvinizmlə elmi mübarizə aparmaq əvəzinə, bu mübarizəni görməzlikdən gəlmək və bundan qaça bilmək üçün, müxtəlif üsullara əl atırlar. Bəziləri; *"darvinizm əslində bu qədər əhəmiyyətli mövzu deyildir"* deyərək öz ağıllarınca bu fikri mübarizəni əhəmiyyətsiz görməyə və göstərməyə çalışır, bəziləri isə, İslamla təkamül nəzəriyyəsi arasında "orta bir yol" meydana gətirməyi hədəfləyir. Bunun üçün də, öz ağıllarınca darvinizmi İslama uyğunlaşdırmağa çalışırlar. *"Darvinizmi müsəlmanlaşdırma səyi"* olaraq adlandıra biləcəyimiz bu hərəkət, çox ciddi xətalar və yanılmalar ehtiva edir. Müsəlman əsla öz ağlınca darvinizmlə İslamiyyət arasında fikri "uzlaşma" axtarmamalıdır. Ortaya atılma

səbəbi, Allahı və yaradılışı inkar etmək olan bir nəzəriyyə ilə "uzlaşmaq" səmimi iman gətirənlər üçün qeyri-mümkündür. Üstəlik, Quran ayələrində və Peyğəmbərimiz (s.ə.v)-in hədislərində təkamülə işarə edən tək bir açıqlama belə yoxdur.

Bu kitabda, həm darvinizmlə elmi mübarizə aparmağın əhəmiyyəti üzərində dayanılacaq, həm də bu böyük fikri mübarizədən qaçanların gətirdikləri bəhanələr cavablandırılacaq. Məlumat çatışmazlığı və ya mövzu barədə kifayət qədər düşünməməkdən qaynaqlanan bu bəhanələrin ortadan qaldırılması, Allahın icazəsiylə, dinsizliyə qarşı verilən fikri mübarizənin gücünü və təsirini artıracaq.

Bu əhəmiyyətli həqiqəti yenidən xatırlatmaq lazımdır ki, inanclı insanların, yaradılış həqiqətinə tamamilə qarşı çıxan bir nəzəriyyəni təhlükəsiz və zərərsiz görmələri, onun inkişafına tamaşa etmələri, darvinizmin cəmiyyətdə getdikcə yayılmasına və istər-istəməz ateizmi gücləndirməsinə bilvasitə dəstək olacaq. Bundan ötrü də, dindarlar, təkamül nəzəriyyəsinin altında yatan fəlsəfəni yaxşı anlamalıdırlar: Təkamül nəzəriyyəsi, materialist fəlsəfənin "elmi" görünən üslubla ifadə edilməsindən ibarətdir. Materialist fəlsəfə isə "dinsizliyin dini"dir.

Quranda: **"...Yer üzündə fitnə-fəsad törətməyi qadağan edən ağıl və hikmət sahibləri olaydı..." (Hud surəsi, 116)** ayəsiylə yer üzündə dincliyin və əmin-amanlığın pozulmasına səbəb olan ünsürlərə qarşı fikri mübarizə aparmağın əhəmiyyətinə işarə edilib. Hazırkı dövrdə insanların dincliyini pozan, təhlükəsizlik və sülh mühitinin yaşanmasına mane olan cərəyanların təməlində darvinizm var. Səmimi müsəlmanlarsa, bu həqiqəti dərk etməli, bu təhlükəni görməzlikdən gəlməməli, əksinə bütün imkanlarını səfərbər edərək bu təhlükəni fikri mübarizəylə yox etmək üçün, səy göstərməlidirlər.

## Darvinizmi müsəlmanlaşdırma səyləri: Passiv, aciz, təslimçi mübarizənin bir növü

Darvinizmlə elmi mübarizə aparmaqdan qaçanlardakı ortaq psixologiya, darvinizmə qarşı hiss edilən bir cür acizlik duyğusudur. Təkamül nəzəriyyəsinin elmi tapıntılara əsaslandığını güman edənlər, elm qarşısında çarəsiz olduqlarını düşünürlər. Təkamülçülərin irəli sürdükləri iddiaların, doğruluğu sübut edilmiş məlumatlarla dəstəklənildiyini, dolayısilə bunlara cavab vermələrinin demək olar ki, qeyri-mümkün olduğunu zənn edərlər. Belə olduqda isə, hələ ən başdan "təslim olmağı" qəbul edərlər.

Halbuki təkamül nəzəriyyəsinin elmi nəzəriyyə olduğu yanılması, bu mövzuda aparılan güclü təbliğatın məhsuludur. Televiziya xəbərlərində, qəzet və jurnal yazılarında həmişə, təkamülün sübut edilmiş, təkzibolunmaz bir nəzəriyyə olduğu imici verilər. Təkamül nəzəriyyəsini müdafiə etməyin elmi müdafiə etmək olduğu, təkamülü rədd etməyinsə elmə qarşı çıxmaq olduğu təəssüratı yaradılar. Lakin elmi tapıntılar bu təbliğatın tam əksini göstərir. Elm, təkamülü dəstəkləmir, tam əksinə onu çürüdür. Bitərəf şəkildə elmi müdafiə edən bir insanın təkamülü müdafiə etməsi də, əslində qeyri-mümkündür. Təkamül nəzəriyyəsinin bu qədər gündəmdə tutulması, onun elmi nəzəriyyə olmasından ötrü deyil, materializmin və dinsizliyin dayaq nöqtəsi olmasından ötrüdür. Digər bir sözlə, təkamül təbliğatı elmi səbəblərdən ötrü deyil, ideoloji narahatlıqlardan ötrü aparılır.

Bəzi müsəlmanların şüur altında *"darvinizmlə mübarizə aparmağın qeyri-mümkün olduğunu"* düşünmələrinin təməlində də, bu güclü təbliğatın təsiri var. Bu təbliğatlar nəticəsində, heç bir düzgünlük payı olmadığı halda, təkamülə qarşı çıxmaq elmə qarşı çıxmaq kimi qəbul edilər. Elmə qarşı çıxmamaq üçün də, elmi olduğu güman edilən təkamül nəzəriyyəsiylə İslamiyyət arasında "orta bir yol" yaradılmağa çalışılar. Lakin əslində bu, darvinizmlə fikri mübarizə aparmaqdan qaçmaq üçün bir yol yaratmaqdır.

Çünki səmimi şəkildə düşünən və vicdanıyla hərəkət edən bir insan, təkamül nəzəriyyəsinin doğru olmasının qeyri-mümkün olduğunu asanlıqla anlaya bilər. Olduqca həssas nizama və mükəmməl mexanizmə malik olan həyatın, təsadüflərin əsəri olması qeyri-mümkündür. Darvinistlər, bir ovuc şüursuz atomun bir yerə toplanaraq, yağışların, küləklərin, şimşəklərin, ildırımların təsiriylə, düşünə bilən, hiss edə bilən, söhbət edə bilən, gözəl bir mənzərə gördükdə zövq ala bilən, bir pişik balasına şəfqət duya bilən, yoxsullara mərhəmət edə bilən, yeni ixtiralar edə bilən, simfoniyalar bəstələyə bilən, arxitektur əsərlər meydana gətirə bilən insanı yaratdığını iddia edərlər. Şüursuz atomların, rəngarəng çiçəkləri, bir-birindən ləzzətli növbənöv meyvələri, hər biri digərindən fərqli mükəmməl sistemlərə sahib heyvanları meydana gətirdiyini söyləyərlər. Halbuki canlıların strukturları, ardıcıl təsadüflərlə meydana gələ bilməyəcək qədər kompleks və mükəmməldir. Meydana

gəlmələri, üstün ağıl tələb edir. Əldə edilən hər yeni məlumat, canlıların üstün ağıl və güc sahibi bir Yaradıcı, yəni Rəbbimiz olan Allahın əsəri olduğunu bir daha göstərir.

Həmçinin elmi nəşrləri təqib edən bir insan da, təkamül nəzəriyyəsinin böyük çıxılmaz vəziyyətdə olduğunu açıqca görə bilər. Elmi nəşrlər, təkamülçü elm adamlarının etirafları və fikir ayrılıqlarıyla doludur. Bir çox təkamülçü, darvinizmin, həyatın necə meydana gəldiyini izah etməsinin qeyri-mümkün olduğunu açıqca etiraf edir. Üstəlik, sayları gün keçdikcə artan bir çox elm adamı da, darvinizmin düşdüyü vəziyyəti görərək, yaradılış həqiqətini müdafiə edir.

Dolayısilə, darvinizmlə fikirlə, açıq və qəti şəkildə mübarizə aparmaqdan çəkinməli heç nə yoxdur. Elmin təkamülü sübut etdiyini güman etdikləri üçün, bu mövzuyla yaxından maraqlandıqları vaxt, özlərinin də bu təlqinlərin təsiri altında qalıb inanclarının sarsılacağından, fikirlərinin dəyişəcəyindən qorxanların narahatlıqları yersizdir. Elm darvinizmi deyil, yaradılışı göstərir. Darvinizmin ortaya atdığı iddiaların hər biri, yüzlərlə elmi dəlil vasitəsilə çürüdülmüşdür. Müsəlmanların etməli olduqları, bu dəlillərdən də istifadə edərək, darvinizmi fikri mübarizəylə təsirsiz hala gətirməkdir.

## Darvinizm, passiv və təslimçi anlayışla zərərsiz hala gətirilə bilməz

Bəzi müsəlmanlar, tamamilə spekulyativ üsullarla və ideoloji səbəblərlə aparılan təkamül təbliğatlarını gözlərində böyüdüb, bunun öhdəsindən gələ bilməyəcəklərini zənn edərək, şövqlə və həyəcanla darvinizmlə elmi mübarizə aparmaq əvəzinə, passiv və təslimçi olurlar.

Bu passivlik və təslimçiliyin ən çirkin nümunələrindən biri, daha əvvəl də ifadə etdiyimiz kimi, darvinizmi müsəlmanlaşdırmağa çalışmaqdır. Bu hərəkətlərinə haqq qazandırmaq üçün də, Şumerlərin dövründəki cəmiyyətlərdən qalan bütpərəst inanclardan istifadə edərək, alim hesab etdikləri insanların sözlərini gətirər və *"din bunu deyir"* mesajı verməyə çalışarlar. Halbuki bu açıq şəkildə darvinizmlə fikri mübarizə aparmamaq üçün, işlədilən bəhanə üsuludur. Passiv və təslimçi mübarizənin çox çirkin tərəfidir.

Bu insanlar, qorxub fikri mübarizəylə məğlub edə bilməyəcəklərini düşündükləri darvinizmə qarşı, bu üsuldan istifadə edərək, gizli məğlub olmuş halda mübarizə aparırlar. Halbuki Allaha qəlbən inanan, Onun üstün gücünü qiymətləndirə bilən bir müsəlman üçün bu mübarizə forması olduqca alçaldıcıdır. Saleh bir müsəlmanın passiv və məğlubyana mübarizə aparması qeyri-mümkündür. *"Biz də eyni şeyi müdafiə edirik"* məntiqiylə darvinizmə etiraz etməkdən söz gedə bilməz. Müsəlmanın iman etdiyi həqiqət, hər şeyi Allahın yaratdığı həqiqətidir. Dolayısilə bir müsəlmanın darvinistlərlə eyni şeyi müdafiə etməsi qeyri-mümkündür. Müsəlman, darvinizmə qarşı açıq və qalibanə şəkildə fikri mübarizə aparmalıdır. Allahdan lazım olduğu kimi qorxan bir müsəlmanın, darvinizmlə eyni

fikri və ideologiyanı müdafiə etməsi qeyri-mümkündür.

Darvinizm təhlükəsini görə bilməmiş, onun Allah inancına qarşı apardığı mübarizəni dərk edə bilməmiş bu insanların, yanlış üsullardan istifadə etmək əvəzinə, bu mövzuda heç nə söyləməmələri olduqca yaxşı olar. Fikri mübarizə aparmaqdan qorxub, güclərinin yetmədiyi mövzularda yanlış və ağılsız üsullara əl atmaları yanlış hərəkətdir. Darvinizm, ciddi şəkildə mübarizə aparılmalı və tamamilə yox edilməli olan böyük təhlükədir. Bu böyük təhlükəni görməyərək darvinizmə qarşı aparılan fikri mübarizəyə əngəl törətmək, böyük səhvlik və Allaha qarşısında daşınılacaq böyük məsuliyyətdir.

## Darvinizmi İslama uyğunlaşdırmağa çalışanların səyləri əbəsdir

Allah Quranda, canlıların və kainatın yaradılışı haqqında bir çox ayə bildirmişdir. Lakin bu ayələrdə, canlıların bir-birlərindən törədiklərinə, aralarında təkamüli bağ olduğuna dair heç bir məlumat və ya işarə yoxdur. Əlbəttə ki, Allah istəsəydi canlıları təkamüllə də yarada bilərdi. Lakin Quranda buna dair bir işarəyə rast gəlinmir və Quranda növlərin, təkamülçülərin iddia etdiyi kimi mərhələli şəkildə meydana gəlməsini dəstəkləyəcək heç bir ayə yoxdur. Əgər belə bir yaradılış olsaydı, bunu, Quran ayələrində açıqlamalarıyla birlikdə görərdik. Lakin tam əksinə Quranda canlıların və kainatın Allahın "ol" əmriylə möcüzəvi şəkildə yaradıldığı bildirilir:

**Göyləri və yeri (nümunəsiz olaraq) yaradan Odur. O, bir işi yaratmaq istədikdə ona ancaq: “ol!” deyər, o da dərhal olar. (Bəqərə surəsi, 117)**

Əgər iddia edildiyi kimi, həqiqətən də hz. Adəmdən əvvəl yarı meymun-yarı insan canlılar yaşamış olsaydı, canlıların yaranmasında mutasiyaların, təbii seleksiyaların təsiri olsaydı, Allah bunu bizə Qurani-Kərimdə açıq və konkret şəkildə xəbər verərdi. Lakin Quranın heç bir ayəsində belə bir məlumat yoxdur. Tam əksinə bir çox ayədə, insanın yoxdan, ən gözəl şəkildə yaradıldığı bildirilir:

**Biz insanı ən gözəl surətdə yaratdıq! (Tin surəsi, 4)**

**O, göyləri və yeri haqq olaraq yaratdı, sizə surət verib onları gözəl şəklə saldı. Dönüş də Onadır. (Təğabun surəsi, 3)**

Qurana bütövlükdə baxıldıqda, təkamüllü yaradılış iddiasını müdafiə edənlərin

verdikləri açıqlamaların heç bir əsasının olmadığı açıq şəkildə görülür. Necə ki, daha əvvəl *"Quran darvinizmi yalanlayır"* adlı kitabımızda, təkamüllü yaradılışı müdafiə edən müsəlmanların iddiaları tək-tək cavablandırılmış və təkamüllü yaradılış iddiasının dəlilsiz olduğu göstərilmişdir (mövzuyla əlaqədar daha ətraflı məlumat almaq üçün baxın: Harun Yəhya, *"Quran darvinizmi yalanlayır"*, araştırma nəşriyyatı, 2005)

Bəzi müsəlmanlar məlumat çatışmazlığından ötrü, təkamüli yaradılış ola biləcəyinə aldana bilərlər. Lakin getdiyi yolun səhv və ya yanlış olduğunu gördüyü vaxt, səmimi bir müsəlmanın edəcəyi şey, səhvindən imtina etməsi və doğrunu qəbul etməsidir. Allah, Quranda iman edənlərin etdikləri səhvlərdə israr etməməli olduqlarını xəbər vermişdir:

**...Bir də onlar gördükləri (pis işlərdə) israr etməzlər. (Ali İmran surəsi, 135)**

Ayədə bildirilən gözəl əxlaqla yaşayanlar, darvinizmi müsəlmanlaşdırmağa çalışmağın nə qədər yanlış hərəkət olduğunu görməli və bunu görən kimi bu hərəkətlərindən imtina etməlidirlər. Bunu etmələrinin ən gözəl əlaməti isə, darvinizmi bilvasitə dəstəkləyən mövqedə olmaqdan çəkinmək, aydın və açıq rəftarla darvinizmə qarşı çıxmaq və darvinizmə qarşı aparılan fikri mübarizəyə dəstək vermək olacaq.

## Darvinizmi müsəlmanlaşdırmağa çalışanlar, mələklərin və cinlərin yaradılışına izah gətirə bilməzlər

Üstün güc sahibi olan Rəbbimiz, istədiyini istədiyi şəkildə və vaxtda, nümunəsiz olaraq yoxdan yaradandır. Allah bir şeyin olmasını istədikdə, təkcə ona "olmasını" əmr edər:

**Biz bir şeyin olmasını istədikdə, ona ancaq: "ol!" deyirik, o da dərhal olur. (Nəhl surəsi, 40)**

Allah hər cür çatışmazlıq və nöqsandan uzaq olan, heç nəyə ehtiyacı olmayandır. Dolayısilə Allahın yaratması üçün də heç bir səbəbə, vasitəyə, mərhələyə ehtiyac yoxdur. Dünyada hər şeyin müəyyən səbəblərə, təbiət qanunlarına bağlı olması heç kimi yanıltmamalıdır. Allah, bütün bu səbəblərin Yaradıcısı olaraq bunlardan tamamilə uzaqdır.

Lakin bu həqiqətləri lazımınca düşünməyənlər, müxtəlif yanlış fikirlərə qapıla bilərlər. Öz ağıllarınca darvinizmlə İslam arasında uzlaşma yaratmağa çalışanlar da, bu düşünməməzlikdən ötrü yanılırlar. Allahın üstün yaratma gücünü, yaratma sənətindəki mükəmməliyi qiymətləndirə bilmədikləri üçün "İslami təkamül" kimi gözlənilməz sözlər

söyləyirlər. İnsanın təkamül nəticəsində yarandığını iddia edən bu insanlara, mələklərin və cinlərin necə yaradıldığı sualı verildikdə cavabları; "Allah yoxdan yaratdı" olacaq. Cinləri və mələkləri Allahın yaratdığını bilib qəbul edən bu insanların, Allahın, insanı da eyni şəkildə yaratmış olduğunu düşünə bilməmələri, bunu ağıllarına gətirə bilməmələri olduqca dəhşətamizdir. Mələkləri "ol" əmriylə bir dəfədə yaradan uca Rəbbimizin, insanı da eyni şəkildə yaratmış olduğunu görə bilməmələri çox təəccüblü haldır.

Allah Quranda cinlərin, insanlardan fərqli olaraq, oddan yaradıldıqlarını bildirmişdir:

**O, insanı saxsı kimi quru gildən, cinləri isə, yalın-dumansız oddan yaratdı. (Rəhman surəsi, 14- 15)**

Quranda bildirildiyi kimi, mələklərin yaradılışı da insanın yaradılışından çox fərqlidir. Ayədə mələklərin yaradılışı belə bildirilir:

**Həmd göyləri və yeri Yaradan, mələkləri iki, üç və dörd qanadlı elçilər edən Allaha məxsusdur! O, xəlq etdiklərindən istədiyini artırır. Həqiqətən, Allah hər şeyə qadirdir. (Fatir surəsi, 1)**

Ayədə işlədilən ifadədən açıqca aydın olduğu kimi, mələklər görünüş etibarilə də insanlardan çox fərqlidirlər. Həmçinin Quranda həm mələklərin, həm də cinlərin insanlardan əvvəl yaradıldığı bildirilir. Allah ilk insan olan hz. Adəmi yaradacağı vaxt, əvvəlcədən yaratmış olduğu mələklərə və cinlərdən olan İblisə hz. Adəmə səcdə etmələrini əmr etmişdir. Ayədə belə bildirilir:

**Bir zaman Biz mələklərə: “Adəmə səcdə edin!” demişdik. İblisdən başqa hamısı səcdə etdi. İblis cinlərdən idi. O, Rəbbinin əmrinə boyun əymədi. Onlar sizin düşməniniz olduğu halda, siz Məni qoyub onu və onun nəslini özünüzə dostmu tutursunuz? Zalımlar üçün bu necə də yarıtmaz mübadilədir! (Kəhf surəsi, 50)**

Allah üçün yaratmaq çox asandır. Rəbbimiz heç bir səbəb olmadan yoxdan yaradandır. Cinləri və mələkləri necə müxtəlif şəkillərdə və yoxdan yaradıbsa, insanı da təkamülə ehtiyac duymadan, ayrı varlıq kimi yoxdan yaratmışdır. Eyni vəziyyət heyvanlar və bitkilər kimi, digər canlılar üçün məqbuldur. Quranda bildirilən açıq həqiqət budur: Allah bu canlıların heç birini təkamül prosesindən keçirtmədən, yəni növləri başqa növlərə

çevirmədən bir anda yoxdan yaratmışdır.

## Quranda bildirilən Allahın səbəbsiz yaratmasına dair nümunələr

Darvinizmlə İslam arasında "orta bir yol" yaratmaq səhvliyinə düşənlərin yanlış məntiqləriylə izah gətirmələrinin qeyri-mümkün olduğu mövzulardan biri də Quranda bildirilən, Rəbbimizin möcüzəvi yaradış nümunələridir. Bu nümunələrdə Allahın heç bir səbəb olmadan, möcüzəvi şəkildə yaratdığı canlılar bildirilir. Şumer əfsanələrinin bütpərəst hekayələrini elm zənn edənlər, bu nümunələr qarşısında çarəsizdirlər.

## Hz. İsanın palçıqdan düzəltdiyi quşun canlanması

Quranda hz. İsanın palçıqdan quş formasında bir şey düzəltdiyi, sonra buna üfürdüyü vaxt, onun Allahın diləməsiylə canlandığı bildirilmişdir:

**Allah deyəcəkdir: "Ey Məryəm oğlu İsa! Sənə və anana olan nemətimi xatırla! O zaman səni müqəddəs ruhla qüvvətləndirmişdim. Sən həm beşikdə ikən, həm də yetkin çağında insanlarla danışırdın. Sənə yazmağı, hikməti, Tövratı və İncili öyrətmişdim. Sən Mənim iznimlə palçıqdan quşa bənzər bir şey düzəldib ona üfürürdün, o da Mənim iznimlə quş olurdu... (Maidə surəsi, 110)**

Bu quş, heç bir səbəbdən asılı olmadan, Allahın diləməsi və möcüzəsiylə, canlanmışdır. Cansız maddədən canlı bir quşun yaranması, uca Allahın nümunəsiz, səbəbsiz, üstün yaratmasının nümunələrindən biridir və bu vəziyyətə, darvinizmi müsəlmanlaşdırmağa çalışanların zehniyyətiylə izah gətirilməsi qeyri-mümkündür.

## Ölən quşların hz. İbrahimə geri qayıtmaları

Allahın cansız varlıqlara möcüzəvi şəkildə can verdiyini göstərən nümunələrdən biri də hz. İbrahim hekayəsində göstərilir:

**Bir zaman İbrahim: "Ey Rəbbim, ölüləri necə diriltdiyini mənə göstər!" dedi. Rəbbi ona: "Məgər sən inanmırsan?" dedi. İbrahim dedi: "Əlbəttə inanıram! Amma istəyirəm ki, qəlbim rahat olsun". Allah buyurdu: "Quşlardan dördünü tut, onları özünə alışdırdıqdan sonra onları tikə-tikə et. Sonra hər dağın başına onlardan bir parça qoy, sonra da onları çağır, tez sənin**

**yanına gələcəklər. Bil ki, Allah Qüdrətlidir, Müdrikdir!" (Bəqərə surəsi, 260)**

Ayədə bildirildiyi kimi, hz. İbrahim dörd quşun hər bir parçasını bir dağın üzərinə qoymuş, lakin bu quşlar daha sonra möcüzəvi şəkildə yenidən canlanaraq hz. İbrahimə qayıdıblar. Bu, Rəbbimizin bütün səbəblərdən uzaq olduğunu, heç bir səbəb olmadan canlıları yoxdan yaratdığını göstərən bir nümunədir.

## Hz. Zəkəriyyanın sonsuz həyat yoldaşından uşağının olması

Quranda nümunə verilən möcüzəvi yaradılış formalarından biri də, hz. Zəkəriyyanın yoldaşı sonsuz olduğu halda, bir uşaqla müjdələnməsidir. Ayələrdə belə buyurulur:

**Ona belə vəhy olundu: "Ey Zəkəriyya! Səni Yəhya adlı bir oğulla müjdələyirik. Biz bu adı ondan öncə kimsəyə qoymamışıq!" O dedi: "Ey Rəbbim! Zövcəm sonsuz bir qadın ikən, özüm də qocalığın son həddində olduğum halda necə mənim övladım ola bilər?" Mələk dedi: "Bu, belədir... (Məryəm surəsi, 7- 9)**

Ayələrdə bildirildiyi kimi, Allah üçün yaratmaq çox asandır; Allahın heç bir səbəbə ehtiyacı yoxdur. Rəbbimiz hər cür çatışmazlıqdan və nöqsandan uzaqdır.

Həmçinin Quranda bildirilən bəzi diriliş nümunələri də, Allahın istədiyini, istədiyi vaxtda, istədiyi şəkildə yoxdan yaratdığı kimi, heç bir səbəbə ehtiyac duymadan diriltdiyini də göstərir.

Hər insan ölüb torpağa qarışdıqdan sonra axirət günündə yeni yaradılışla dirildiləcək. İnsanın bu dirilişi ilk yaradılışına bənzər şəkildə olacaq. Bu həqiqət ayədə belə bildirilir:

**Hüzurumuza ilk dəfə sizi xəlq etdiyimiz kimi tək-tənha, həm də sizə verdiyimiz nemətləri arxanızda qoyub gəldiniz... (Ənam surəsi, 94)**

Ayədə insanların axirətdəki yenidən yaradılışlarının ilk yaradılışları kimi olacağına diqqət çəkilmişdir. Ölüb toz-torpaq halına gələn insan, Rəbbimizin diriltməsiylə yenidən canlanacaq, cansız maddə olduğu halda insan halına gələcəkdir. Qiyamət günündə insanların bədənlərini yoxdan yaradacaq olan Allah, ilk insan olan hz. Adəmi də cansız maddə olan palçıqdan yaratmışdır:

**Bir zaman sənin Rəbbin mələklərə belə demişdi: “Mən palçıqdan bir insan yaradacağam. Mən ona surət verib Öz ruhumdan üfürdüyüm zaman ona səcdə edin!” (Sad surəsi, 71- 72)**

Dolayısilə insanın ilk yaradılışıyla axirətdə yenidən yaradılması bir-birinə bənzəyir və bu mərhələli şəkildə deyil, bir anda, möcüzəvi şəkildə baş vermişdir.

Həmçinin Allah, dünyada da bəzi qullarına möcüzəvi diriltməsinin nümunələrini göstərmişdir. Məsələn, Rəbbimiz, hz. Musanın qövmünə, ölüləri necə diriltdiyini göstərmək üçün, bir cəsədə daha əvvəl kəsdikləri bir inəyin parçasıyla vurmalarını əmr etmişdir və bu qövm, Allahın möcüzəsi sayəsində cəsədin dirilməsinə şahid olmuşdur. Bu hekayə ayələrdə belə bildirilir:

**O zaman siz bir nəfəri öldürmüşdünüz və onun qatili barəsində mübahisə edirdiniz. Allah isə sizin gizlətdiklərinizi aşkara çıxarar. Biz dedik: “İnəyin bir parçasını ona (ölüyə) vurun!” Allah ölüləri bu cür dirildir və Öz ayələrini sizə göstərir ki, bəlkə anlayasınız. Sonra bunun ardınca sizin qəlbləriniz sərtləşib daş kimi, hətta ondan da sərt oldu. Həqiqətən, daşlardan eləsi var ki, içərisindən çaylar qaynayıb çıxar. Onlardan eləsi də var ki, yarılar, içərisindən su çıxar. Eləsi də var ki, Allahın qorxusundan yuvarlanıb yerə düşər. Allah sizin nə etdiklərinizdən xəbərsiz deyildir. (Bəqərə surəsi, 72- 74)**

Bu mövzuda Quranda verilən digər bir nümunə isə, öldükdən sonra dirilməyə inanmayan bir insanın vəziyyətidir. Ayələrdə bildirildiyi kimi, Allah bu insanı yüz il ölü vəziyyətdə saxlamış və sonra da diriltmişdir. Quranda bu hadisə belə bildirilir:

**Və ya damları uçulub xarabalığa çevrilmiş bir kəndin yanından keçən kimsənin hekayətini bilmirsənmi? O demişdi: “Allah bu kəndi ölümündən sonra necə dirildəcək?” Allah onu öldürüb yüz il saxladı, sonra da dirildib dedi: “Nə qədər qaldın?” O dedi: “Bir gün yaxud bir gündən də az qaldım!” Allah dedi: “Əksinə, sən yüz il qaldın. Öz yeməyinə və içdiyin suya bax, hələ də xarab olmayıb. Uzunqulağına da bax! Biz səni insanlar üçün bir dəlil etdik. Sümüklərə bax, gör Biz onları necə bir-birinə birləşdirir, sonra da onların üstünü ətlə örtürük”. Ona həqiqət bəlli olduqda: “Mən artıq bilirəm ki, Allah hər şeyə qadirdir!” dedi. (Bəqərə surəsi, 259)**

Bu mövzuda Quranda verilən nümunələrdən biri də, kəhf əhlidir. İnanclı gənclərdən ibarət olan Kəhf əhli (mağara sahibləri), yaşadıqları qövmü, Allaha şirk qoşduqları və Ondan

başqa ilahlar qəbul etdikləri üçün tərk edərək mağaraya sığınmışdırlar. Lakin Allah kəhf əhlini üç yüz ildən artıq davam edən yuxuya vermiş və beləliklə də, onları möcüzəvi şəkildə mağarada yatırtmışdır. Daha sonra da onları bu yuxularından oyandırmışdır. Bu hadisə Quranda belə bildirilir:

**Biz mağarada onların qulaqlarını illərlə qapalı saxladıq (onları yuxuya verdik). (Kəhf surəsi, 11)**

**Onlar mağarada üç yüz il, üstəlik doqquz il də qaldılar. De: "Onların nə qədər qaldıqlarını Allah daha yaxşı bilir. Göylərin və yerin qeybi ancaq Ona məxsusdur. O, necə gözəl görür, necə də yaxşı eşidir! Onların Ondan başqa heç bir himayədarı yoxdur. O, Öz mülkünə heç kəsi şərik etməz!" (Kəhf surəsi, 25- 26)**

**Sonra iki dəstədən hansının onların mağarada qaldıqları müddəti daha düzgün hesabladıqlarını bilmək üçün onları oyatdıq. Biz onların əhvalatını sənə olmuş bir həqiqət kimi söyləyirik. Onlar Rəbbinə iman gətirmiş gənclər idi. Biz də onların hidayətini artırdıq. (Kəhf surəsi, 12-13)**

Bu nümunələr, İslamla darvinizm arasında orta bir yol axtaranların yanıldıqlarını yenidən göstərir. Çünki bu insanların məntiqləriylə, Quranda bildirilən bu nümunələrin heç birinə izah gətirmək olmaz. Bu insanlar darvinistlərin fikri təməlini meydana gətirən naturalist əhkamdan təsirləndikləri üçün, canlıların və insanın mənşəyinə də təbiət qanunları əsasında izah gətirməyə çalışırlar. Böyük səhvlik edərək, Allahın bu təbiət qanunlarıyla məhdudlaşdırılmış yaradılışla canlıları yaratdığını (Allahı tənzih edirik) düşünürlər. Dolayısilə yaradılışın, mutasiya, təbii seleksiya, növləşmə kimi xəyali mexanizmlər vasitəsilə, bir növün digərinə çevrilməsiylə baş vermiş olduğunu zənn edirlər. Bir müsəlmanın belə azğın məntiqə sahib olması böyük səhvlik olar. Üstün güc sahibi olan Rəbbimiz, istədiyini istədiyi şəkildə yaratmağa qadirdir. Səmimi bir müsəlman, bütün nöqsanlardan uzaq olan Uca Allahı lazımınca qiymətləndirə bilməli və əsla təkamülçü ehkamların, təlqinlərin, aldatmaların təsiri altında qalmamalıdır.

## Darvinizmi "əhəmiyyətsiz" hesab etmək ciddi yanılmadır

Darvinizmlə aparılmalı olan fikri mübarizənin əhəmiyyəti açıqca ortada olmasına baxmayaraq, bəzi insanlar hələ də; *"niyə darvinizm mövzusu bu qədər əhəmiyyətlidir?"* deyərək bu elmi mübarizəni əhəmiyyətsiz hesab edir və ya *"onsuz da artıq Darvinə*

*inanmırlar, dolayısilə bu mövzuda çalışmağa ehtiyac yoxdur"* kimi həqiqətlə ziddiyyət təşkil edən məntiqlər gətirərək müsəlmanların darvinizmlə mübarizə aparmalarına əngəl törətməyə çalışırlar. Bu və buna bənzər iddialar, əslində darvinizmlə fikri mübarizə aparmaqdan qaçmaq üçün gətirilən bəhanələrdir.

Halbuki darvinizm, hər hansı elmi tezis deyil, insanlara Allahı inkar etdirmək üçün hazırlanan və müdafiə olunan düşüncə sistemidir. Təkamül nəzəriyyəsiylə materialist fəlsəfə, bir-birini tamamlayan iki düşüncə sistemidir. Qədim Yunanistanda yaranan bu birlik, 19-cu əsrin primitiv elm anlayışı çərçivəsində yenidən gündəmə gətirilmiş və təkamül nəzəriyyəsi materializmə dəstək meydana gətirdiyi üçün (elmi olub olmadığına baxılmadan) materialistlər tərəfindən dərhal qəbul edilmişdir.

Bu açıq bir həqiqətdir ki, darvinizmin və ondan dayaq alan materialist fəlsəfənin yayılmasıyla birlikdə, *"insan nədir?"* sualına azğın cavablar verilməyə başlanılmışdır. Əvvəllər bu suala; *"insan, Allahın yaratdığı və Onun öyrətdiyi gözəl əxlaqa uyğun yaşamalı olan bir varlıqdır"* cavabını verən insanların bir hissəsi, bir çox aldadıcı təlqin nəticəsində, *"insan təsadüflərlə yaranmış, həyat mübarizəsiylə inkişaf etmiş bir heyvandır"* yanılmasına qapılmağa başlamışdır.

Təkamül nəzəriyyəsi, təsadüfləri, zamanı və cansız maddələri ilah qəbul edib, bu gücsüz, şüursuz varlıq və anlayışlara öz ağıllarınca yaradıcı sifətini verir. Bir müsəlman bu cür bütpərəst təməllərə əsaslanan nəzəriyyəyə əsla sahib çıxmaz. İnanclı bir insan, Yaradıcımız olan Allahın hər şeyi yoxdan yaratdığına iman edər və bu inanca qarşı çıxan hər cür ideologiya və inancla elmi yolla mübarizə aparar.

Tərəfdarlarının təbliğatına aldanaraq darvinizmin gətirdiyi təhlükələri görməzlikdən gəlmək ciddi səhvlik olar. Darvinizmin nə qədər təhlükə olduğunu qavraya bilməyən bir insan, bir müddət sonra bu azğın ideologiyanı normal hesab etməyə başlayar. Darvinizmi normal hesab etməksə, ateizmi, dinsizliyi, materializmi normal hesab etmək deməkdir. Darvinizmlə elmi mübarizədən qaçmaq da, ateizmlə, dinsizliklə mübarizə aparmaqdan qaçmaq deməkdir. Əlbəttə ki, bu, inanclı bir insan üçün qəbuledilməz haldır.

Bu unudulmamalıdır ki, dünyanın müxtəlif yerlərində minlərlə müsəlmanın, zavallı qadınların, uşaqların, yaşlıların gördükləri zülmün, yaşadıqları əzab və çətinliklərin təməlində darvinizm dayanır. Yüzlərlə günahsız insanın qanının tökülməsinə, insanların nigarançılıq, narahatlıq və qorxu içində yaşamalarına səbəb olan terror, darvinizmin təlqinləriylə bəslənir. Faşizm və kommunizm kimi ötən əsrə damğasını vuran qanlı ideologiyalar darvinizmdən güc alır. Bir çox cəmiyyətin yaşadığı əxlaqi pozğunluq, darvinist təbliğatın nəticəsidir (sonrakı hissələrdə bu mövzular ətraflı şəkildə ələ alınacaq).

Müsəlmanların məsuliyyəti; **"yer üzündə fitnə yox olanadək"** elmi mübarizə aparmağa davam etməkdir. Dövrümüzün ən təhlükəli və ciddi fitnəsi isə, darvinizmdir. Müsəlmanların; *"darvinizm, elm adamlarının məsələsidir, bizi maraqlandırmaz"* kimi yanlış fikirlərə qapılmaq

əvəzinə, etməli olduqları şey, yer üzündə böyük zülmə səbəb olan bu ideologiyanı fikri mübarizə aparmaqla təsirsiz hala gətirməkdir. Bunu əksini etmək, zülmə razı olmaq deməkdir. Səmimi şəkildə iman edən heç kəs belə bir məsuliyyəti boynuna götürmək istəməz.

## Bu böyük fikri mübarizədən qaçmağın gətirdiyi məsuliyyət

Saleh möminlər, təbliğ məsuliyyətlərini böyük şövqlə yerinə yetirər və din əxlaqının yayılması üçün səy göstərərlər. Bu əsnada, din əxlaqının yayılmasına və yaşanmasına mane olan ünsürləri də tam şəkildə müəyyənləşdirib, bunlara qarşı efffektiv fikri mübarizə aparırlar. Materializm və ateizmin dırnaqarası elmi dayağı olan darvinizm, hazırkı dövrdə insanları din əxlaqından uzaqlaşdıran ən əhəmiyyətli cərəyandır. Bundan ötrü də, möminlərin darvinist təbliğat qarşısında səssiz qalmaları olduqca yanlış olar.

Həm darvinizmlə fikirlə mübarizə aparmayıb, həm də dünyada yaşanan çətinliklərdən, müsəlman xalqların çəkdiyi əziyyətlərdən və ictimai pozulmadan narahat olduğunu söyləmək mənasızdır. Çünki səmimi şəkildə, sıxıntı və çətinlik içində yaşayan müsəlmanlara yardım əli uzatmaq istəyənlər, aclığa, yoxluğa, ədalətsizliyə daimi çıxış yolunun meydana gəlməsini, qarşıdurmaların sona çatmasını, sülhün hakim olmasını, müsəlmanların dünyanın hər yerində sevgi və hörmət görməsini, müqəddəs dəyərlərimizin lazımınca qorunmasını tələb edənlər, darvinizmlə elmi mübarizə aparmaq məcburiyyətindədirlər. Çünki darvinizm yox olmadan, bu istəklərinin gerçəkləşməsi qeyri-mümkündür. Darvinizm mövcud olduğu müddətcə, materializm və ateizm fəaliyyətini davam etdirəcək, insanlar da din əxlaqından uzaqlaşacaqlar. Din əxlaqından uzaqlaşan mühitlərdə isə, yuxarıda sayılan problemlərin yaşanmaması imkansız olacaq.

Necə ki, ağcaqanadlarla mübarizədə görülən əsas iş, ağcaqanadların gəlmə mənbəyi olan bataqlığın qurudulmasıdırsa, ictimai problemlərin həlli də darvinizmin fikri mübarizəylə ortadan qaldırılmasıdır. İstəyən tək-tək ağcaqanadları öldürməyə çalışa bilər, lakin bataqlıq qurudulmadığı müddətcə bir insan bütün gününü ağcaqanadları qıraraq keçirsə də, ertəsi gün yeni ağcaqanadlarla mübarizə aparmalı olacaq.

Ədalətsizliklərin, kasıblığın, sosial natarazlığın aradan qaldırılması, qarşıdurmaların sona çatması kimi, mövzularda ayrı-ayrılıqda səy göstərmək, əlbəttə ki, zəruri və əhəmiyyətlidir. Lakin köklü çıxış yolunun və istənilən nəticənin əldə olunması üçün, darvinizmin tamamilə təsirsiz hala gətirilməsi şərtdir. Darvinizmin fikri mübarizəylə yox edilməsi sayəsində, bu problemlər də normal olaraq ortadan qalxacaq. Çünki bu problemləri meydana gətirən fikri təməl yox olacaq.

Bütün müsəlmanlar bu şüurla, darvinizmə qarşı elmi mübarizə aparmalarının nə qədər

böyük məsuliyyət olduğunu yenidən düşünməlidirlər. Allah Quranda, üzrsüz səbəbdən ötrü oturanlarla, bütün imkanlarını səfərbər edərək səy göstərənlərin Allah qatında eyni qarşılığın almayacaqlarını bildirmişdir:

**Möminlərdən (üzürlülər istisna olmaqla) evdə oturanlarla Allah yolunda öz malları və canları ilə cihad edənlər eyni olmazlar. Allah öz malları və canları ilə cihad edənləri evdə oturanlardan dərəcə etibarilə üstün etdi... (Nisa surəsi, 95)**

Əlbəttə ki, saleh möminlər, Allah rizasının ən çoxunu qazanmaq istəyərlər. Bundan ötrü də, bütün imkanlarından istifadə edərək dinsizliyə və dinsizliyin dayaq nöqtəsi olan darvinizmə qarşı fikri mübarizə aparmaqla məsuldurlar.

Quranda: **"Şübhəsiz ki, inkarçılar insanları Allah yolundan sapdırmaq üçün öz mallarını sərf edirlər və bundan sonra da sərf edəcəklər...** (Ənfal surəsi, 36) ayəsiylə, inkarçıların həmişə dinsizliyi yaymaq üçün, səy göstərəcəklərinə işarə edilmişdir. İnkarçıların göstərdiyi bu səy qarşısında inanclı insanların reaksiyasız qalmaları, təhlükəni görməzlikdən gəlmələri, passiv olmağı seçmələri, çəkingən davranmaları qəbuledilməzdir. Üzərlərindəki böyük məsuliyyəti görən saleh müsəlmanlar, darvinizm təhlükəsinə qarşı çevik, fəal və cəsur şəkildə fikri mübarizə aparmağa başlayar və müxtəlif bəhanələr gətirərək əsla bu elmi mübarizədən qaçmağa çalışmazlar. Çünki, belə bir mübarizəni görməzlikdən gəlməyin, axirətdə böyük məsuliyyət gətirə biləcəyini dərk edirlər.

## Müsəlmanlar darvinist təlqinlərə aldanmamalıdır

Təkamül nəzəriyyəsi müasir elmi inkişaflar qarşısında bütün dayaqlarını itirmişdir. İstər molekulyar səviyyədə, istərsə də biologiya və ya paleontologiya sahələrində aparılan tədqiqatlar, canlıların təkamül prosesi nəticəsində meydana gəlməsinə dair iddiaları tamamilə etibarsız hala salmışdır. Lakin darvinistlər, etdikləri demaqoqluqlar, gətirdikləri yanlış nümunələr, söz oyunları, istifadə etdikləri yanlış məntiq əlaqələri və hətta bəzən saxtakarlıqlarla da xalqı yanıltmağa çalışarlar.

Darvinist nəşrlər diqqətlə nəzərdən keçirildikdə, təkamülçülərin bu oyunlarını görmək mümkündür. Klassik darvinist taktika və təlqinlərdən bəzilərini belə sadalaya bilərik:

### 1) Təkamülçülər, konkret dəlillər deyil, xəyali hekayələr danışarlar:

Darvinist nəşrlərdə, demək olar ki, heç vaxt konkret elmi dəlillərə əsaslanan izahat olmaz. Bir tərəfdən təkamül nəzəriyyəsinin çıxılmaz vəziyyətləri üzərindən bir neçə cümləylə

keçilər, digər tərəfdənsə, təbiət tarixi mövzusunda bir çox əfsanəvi ssenari yazılar. İlk canlıların cansız maddələrdən necə meydana gəldiyi, fosil qeydlərindəki böyük boşluqlar, canlılardakı mürəkkəb sistemlər kimi, təməl mövzuların üzərində heç dayanılmaz. Çünki açıqlanan hər incəlik təkamülçülərin məqsədlərinə zidd düşəcək və öz nəzəriyyələrinin çürüklüyünü göz qabağına gətirəcək.

Məsələn, darvinistlər, quşların mənşəyini izah edərkən uzun-uzadı şəkildə dinozavrların milçəkləri qovarkən necə qanad meydana gətirdiklərindən danışarlar. Lakin saniyədə təxminən 500 dəfə qanad çırpa bilən milçəyin necə meydana gəldiyini qətiyyən izah edə bilməzlər. Yaxud canlıların ilk yaranma prosesini izah edərkən, uzun-uzadı şəkildə dünyanın o dövrdəki şəraitindən danışar, atmosferin xüsusiyyətlərini sadalayar və isti su kütləsi içində canlıların təməl elementi olan hüceyrənin meydana gəldiyini söyləyib keçərlər. Lakin 21-ci əsrin texnoloji imkanları şəraitində laboratoriyalarda belə yaradıla bilməyən, olduqca kompleks orqanoidlərə sahib hüceyrəni, şüursuz atomların necə olub da meydana gətirdiklərini və bu hüceyrədən minlərlə növ canlının necə meydana gəldiyini izah edə bilməzlər. Arxeoloji qazıntılar vaxtı, əldə edilən tapıntılara, öz ön mühakimələrinə görə izah gətirib xəyali bir bəşəriyyət tarixinin təkamülü sxemini meydana gətirərlər. Tapdıqları bir neçə sümük parçasına, daş əşyaya baxaraq dövrün insanlarının mağaralarda əyinlərində heyvan dəriləriylə necə ibtidai həyat yaşadıqlarından uzun-uzadı danışarlar. Lakin yüz minlərlə il bundan əvvələ aid metal əşya parçalarına, on minlərlə illik mükəmməl estetikaya malik mağara divarlarında cızılmış şəkillərə, guya daş dövrü insanlarının müvəffəqiyyətli beyin əməliyyatları yerinə yetirmələrinə, keçmiş mədəniyyətlərdən dövrümüzə gəlib çatmış əsərlərdəki incəsənət, qabiliyyət və ağıl nümunələrinə izah gətirə bilməzlər. Həmişə bütün canlıların yavaş-yavaş bir-birindən təkamül keçirmək yoluyla meydana gəldiyini iddia edərlər. Bu iddiaya görə, tarix boyu yarı sürünən-yarı quş, yarı onurğalı-yarı onurğasız kimi bir çox “ara keçid forma”sı olmalıdır. Eləcə də, bu varlıqların fosil qeydlərində nümunələri tapılmalıdır. Dənizlər quruduğu üçün quruya çıxmaq məcburiyyətində qalan balıqların necə sürünənlərə çevrildiyini uzun-uzadı izah edən bir təkamülçüdən, bu iddiasını sübut edən bir fosil olub-olmadığını soruşsanız, bu sualınıza heç bir cavab ala bilməzsiniz. Çünki darvinistlər 150 ildən artıq müddətdir ki, ara keçid növlərinə aid fosillər axtarmalarına baxmayaraq, bunlara aid tək bir nümunə belə tapa bilməyiblər. Tapdıqları bütün fosillər, canlıların birdən-birə ortaya çıxdığını, yəni yaradıldığını göstərir. Lakin darvinist nəşrlərdə bu həqiqətdən heç bəhs edilməz, bunun əvəzinə fosil qeydləri mövzusu həmişə ört-basdır edilər.

Darvinistlərin bu üslubu, lazımınca düşünməyən və ya kifayət qədər məlumatı olmayan insanlarda, qəti dəlillərlə sübut edilmiş elmi bir nəzəriyyəylə üz-üzə olduqları düşüncəsini yarada bilər. Lakin bu düşüncə tamamilə yanlışdır. Darvinistlərə veriləcək "niyə?" və "necə?" sualları, onları düşdükləri çıxılmaz vəziyyətlə üzləşdirəcək. Çünki bu suallara verə biləcəkləri məntiqli və elmi cavabları yoxdur. Bir sözlə, təkamül nəzəriyyəsi

fərziyyədən ibarətdir. Bir fərziyyənin elmi sayılması üçün, sınaqdan keçirilə bilməli və ya tapıntılarla təsdiqlənməlidir, lakin təkamülçü hekayələr bunlardan məhrumdur.

### 2) Darvinistlər, təkamül nəzəriyyəsinə inanmağın, elmin tələbi olduğunu iddia edərlər

Ən geniş yayılmış darvinist təbliğatlardan biri də; *"təkamül nəzəriyyəsinə inanmayan doqmatikdir", "təkamül nəzəriyyəsinə inanmayan elmə əsaslanmır"* kimi əsassız şüarlardır. Darvinistlərin bu təlqinləri, bəzi hallarda bir sıra inanclı insanların da yanılmasına səbəb olur.

Halbuki bu, təkamülçülərin "elm" dedikdə nə başa düşdükləriylə əlaqədar ön mühakiməli açıqlamadır. Darvinist zehniyyətin bəhs etdiyi elm, araşdıran və tapıntıları bitərəf şəkildə qiymətləndirib, bu tapıntıların göstərdiyi nəticələri qəbul edən bir elm deyildir. Darvinistlərə görə elm, öz inanclarını və düşüncələrini təsdiqləmək məcburiyyətindədir və ortaya çıxan nəticələr təkamülçülərin ehkamlarına uyğun şəkildə təhrif edilərək şərh olunduğu müddətcə qəbul edilə bilər. Digər bir sözlə, təkamülçülər tapıntıları deyil, ön mühakiməli açıqlamalarını elm kimi irəli sürərlər. Darvinist elm, doğrunu axtarmaq səyi deyil, doğrunu istiqamətləndirmək və təhrif etmək səyidir.

Darvinist elm adamlarının ehkamlarına görə, elm materialist olmaq məcburiyyətindədir. Bu vəziyyət, elmin normalda qəbul etmək məcburiyyətində olmadığı bəzi fəlsəfi qəbulları, elmi tədqiqatın standartları kimi götürməyi nəzərdə tutur. Bu yanlış dünyagörüşünə görə, əldə edilən hər məlumata, materialist dünyagörüşü istiqamətində izah gətirilməlidir. Dolayısilə, bu yanılmaya görə, materialist mahiyyətli olmayan izah elmi də deyildir. Darvinistlərin bu azğın düşüncəsini, Kanzas Dövlət Universitetində həkim olan Skott Tod (Scott Todd), *"Nature"* jurnalında nəşr olunan bir məktubunda; *"bütün məlumatlar bir Yaradıcıya işarə etsə belə, bu elm tərəfindən qəbul edilmir, çünki naturalist deyillər"* sözləriylə ifadə edir.[1]

Necə ki, elmin bütün sahələrində əldə olunan yeni məlumatların hamısı yaradılış həqiqətini göstərməsinə baxmayaraq, bu məlumatların mətbuatda kifayət qədər yer almamasının, akademik ətraflar tərəfindən israrla görməzlikdən gəlinməsinin təməlində də, bəzi ətrafların; *"elm materialist olmaq məcburiyyətindədir"* adlı ehkamı dayanır. Əgər darvinistlər, səmimi şəkildə elmin göstərdiyi həqiqəti qəbul etmək istəyirlərsə, elmin, nəzəriyyələrinin əsassız olduğunu göstərdiyini qəbul etməlidirlər. Elmin göstərdiyi həqiqəti qəbul edə bilməyənlərinsə, elm adından iddialar irəli sürmələri, nəyin elmi olub-olmadığı barəsində açıqlamalar verməkləri mənasızdır.

Dolayısilə müsəlmanların da, darvinistlərin bu təlqinlərindən təsirlənməsi çox yersiz olar. 21-ci əsrdə elmin gəldiyi mövqe, təkamül nəzəriyyəsinə inanmayanın deyil, inananın elmsiz olduğunu sübut etmişdir.

**3) Darvinistlər, təkamül nəzəriyyəsini təkzib edən dəlilləri gizlədər və ya görməzlikdən gələrlər**

Darvinistlərin nəzəriyyələrinə dəstək vermək üçün, işlətdikləri üsullar arasında, "saxta dəlillər meydana gətirmək və həqiqi dəlilləri gizlətmək" mühüm yer tutur. Saxta fosillər meydana gətirmək, təcrübələrdə saxtakarlıqlar etmək, xəyali şəkilləri elmi dəlil kimi təqdim etmək təkamülçülərin tez-tez işlətdikləri taktikalardır. Darvinizmin tarixi bunun nümunələriylə doludur.

Məsələn, 43 il müddətində insanın təkamülünü sübut edən bir dəlil kimi təqdim edilən Piltdaun adamı, insan və oranqutan sümüklərinin birləşdirilməsiylə meydana gətirilmiş saxta fosildi. Lakin illərlə Britaniya muzeyində, təkamülün bir dəlili kimi xalqa göstərildi. 1922-ci ildə tapılan bir azı dişinə əsaslanaraq meydana gətirilən Nebraska Adamı da, təkamülçülərin saxtakarlıqlarının digər bir nümunəsi idi. Təkcə bir dişə əsaslanaraq, yarı meymun-yarı insan olan xəyali bir varlıqdan bəhs edilirdi. Bir müddət sonra dişin bir çöl donuzuna aid olduğu ortaya çıxdı. İllər boyu alman bioloq Ernst Hekkel (Ernst Haeckel) çəkdiyi embrion şəkilləri, təkamül prosesinə dair bir dəlil kimi işlədildi. Halbuki Hekkel bu şəkilləri təhrif etmiş, embrionlara bəzi xəyali orqanlar əlavə etmiş, bəzilərindən isə, orqanlar çıxartmış, böyüklükləri çox fərqli olan embrionları eyni boyda kimi göstərmişdi. Hekkelin şəkillərdə saxtakarlıq etdiyi, 20-ci əsrin əvvəllərində qəti şəkildə ortaya çıxdı. Hətta Hekkelin özü də bunu etiraf etdi. Burada saxtakarlıqların yalnız bir neçə nümunəsini verdik. Darvinist ədəbiyyatda bu saxtakarlıqların olduqca çox nümunələri var. Darvinistlər, xalqın elm sahəsindəki məlumat əskikliyindən yararlanaraq təhrif edilmiş bir çox məlumatı təkamülün dəlili kimi göstərərlər. Eləcə də, təkamül nəzəriyyəsini təkzib edən dəlilləri görməzlikdən gələr və gizlədərlər. Bu dəlillər əsla ictimaiyyətə təqdim olunmaz.

Yaradılış həqiqətini sübut edən yüzlərlə fosil, xalqdan gizlənilən dəlillərdəndir. Bu fosillər, milyonlarla il əvvəl yaşayan canlılarla bugünkü canlılar arasında heç bir fərq olmadığını, canlıların qətiyyən təkamül keçirmədiklərini göstərir. Lakin xalqın böyük hissəsi bu fosillərin varlığından xəbərsizdir. Çünki bu fosillər təkamülçü muzeylərin zirzəmilərində, universitetlərin paleontologiya bölmələrinin anbarlarında saxlanılar. Əsla ortaya çıxarılmaz.

Darvinistlərin həqiqətləri gizlətmək və təhrif etmək üçün, göstərdikləri səy müsəlmanlara təsir etməlidir. *"Elm adamı olduqlarına görə mütləq doğru söyləyirlər"* deyə düşünmək və buna görə də təkamülçülərin söylədikləri hər şeyə inanmaq, şübhəsiz ki, böyük aldanma olar. Çünki təkamülçü elm adamları, ideologiyaları naminə həqiqətləri gizlətməkdən, elmi məlumatları təhrif etməkdən, saxta dəlillər meydana gətirməkdən çəkinmirlər.

Darvinizmin gücünün yox edilməsi üçün, darvinistlərin saxtakarlıqlarının və aldatmacalarının işıq üzünə çıxarılması çox əhəmiyyətlidir. Müsəlmanlar, darvinistlərin

hiylələrini görməli və bu hiylələrin üstünü açaraq xalqın aldadılmasına mane olmalıdırlar. Bu, dinsizliyin səbəb olduğu bəlaların ortadan qaldırılması və yer üzünə gözəl əxlaqın hakim olması üçün çox əhəmiyyətlidir.

## 4) "Əksəriyyətin təkamül nəzəriyyəsinə inanmasının, darvinizmin doğruluğunu göstərdiyi" yalanı

Darvinistlərin təbliğat şüarlarından biri də; *"nəzəriyyə, elm aləmində əksəriyyət tərəfindən qəbul edilir"* yalanıdır. Digər bir sözlə, təkamülçülər ətraflarındakı insanlara, özlərinin həmişə çoxluq təşkil etdiklərini və çoxluğun da həmişə haqlı olduğu istiqamətində təlqin verirlər. *"Bu qədər insan təkamülü müdafiə etdiyinə görə, universitetlərdə təkamülə inananlar çoxluq təşkil etdiyinə görə nəzəriyyə doğrudur"* kimi, həqiqəti əks etdirməyən məntiqlə kütlələr üzərində psixoloji təzyiq yaratmağa çalışarlar. Müsəlmanlar bu təzyiqdən təsirlənməməli və darvinistlərin bu yalanına aldanmamalıdırlar.

Son 20-30 il ərzində, təkamül nəzəriyyəsini rədd edən elm adamlarının sayı sürətlə artır. Bunların əksəriyyəti kainatdakı və canlılardakı mükəmməl yaradılışı görərək, darvinizm ehkamından özlərini qurtarırlar. Bu elm adamlarının, təkamülün əsassızlığını göstərən saysız-hesabsız tədqiqat nəticələri var. Hər biri başda Avropa və ABŞ olmaqla, dünyanın müxtəlif ölkələrindəki qabaqcıl universitetlərin mənsubu olan bu insanlar, biologiya, biokimya, mikrobiologiya, anatomiya, paleontologiya kimi elm sahələrində mütəxəssis olub, karyera sahibi alimlərdir.

Üstəlik, həqiqi mənada təkamülçülər çoxluq təşkil etsələr də, bunun dəyəri olmaz. Çoxluğun sahib olduğu anlayışı *"mütləq həqiqət"* kimi qəbul etmək düzgün deyil. Bu həqiqətin darvinizmlə fikri mübarizə aparmaqdan qaçan müsəlmanlar tərəfindən də bilinməlidir. Quranda bildirildiyi kimi, tarixdə yaşamış bir çox inkarçı qövm Allahı və Onun dinini inkar etmək üçün özlərinin çoxluq təşkil etdiklərini söyləyərək, insanları haqq yoldan döndərməyə çalışıblar. Allah, iman edənlərə bu yanlış məntiq barədə xəbər verir və çoxluğa tabe olmağın insanları böyük aldanışlara sürükləyə biləcəyini belə bildirir:

**Əgər sən yer üzündə olanların əksəriyyətinə itaət etsən, onlar səni Allah yolundan azdırarlar. Onlar ancaq zənnə qapılır və ancaq zənn və təxminlə yalan uydururlar. (Ənam surəsi, 116)**

Oxuduqlarını və ya seyr etdiklərini diqqətlə araşdıran, mövzunu bir qədər də dərin düşünən biri, qarşılaşdığı darvinist təbliğatı dərk edə bilər. Səmimi iman edən

müsəlmanların əhəmiyyətli xüsusiyyətlərindən biri də, fərasət sahibi olmaları, yəni haqqla nahaqqı ayırd etmə bacarığına sahib olmalarıdır. Allah, Özündən qorxub çəkinənlərin bu gözəl xüsusiyyətini Quranda belə bildirmişdir:

**Ey iman gətirənlər! Əgər Allahdan qorxsanız, O sizə haqla nahaqqı ayırd etmə bacarığı verər, günahlarınızdan keçər və sizi bağışlayar. Allah böyük lütf sahibidir. (Ənfal surəsi, 29)**

Allah qorxusuyla hərəkət edən və vicdanlarının səsini dinləyən insanlar, Allahın icazəsiylə, darvinizmin necə bir təhlükə olduğunu, bu təhlükənin necə təsirsiz hala gətirilə biləcəyini asanlıqla görə bilərlər. Məlumatsızlıq, lazımınca düşünməmək, qəflətə qapılmaq kimi səbəblərdən ötrü, mövzunun əhəmiyyətini dərk edə bilməyənlər də, özlərinə çatdırıldığı həqiqəti görüb dərk etməlidirlər. Bunu bir daha xatırlatmaq lazımdır ki, darvinizm inanclı insanların qəbul edə biləcəyi, normal hesab edə biləcəyi bir ideologiya deyildir. Darvinizm, dinsizliyin dinidir. Hər səmimi müsəlman dinsizliyə qarşı elmi mübarizə aparmaq məsuliyyətini daşıyır. Dünya həyatındakı bu böyük məsuliyyəti görməzlikdən gəlmək, axirətdə peşmançılıq çəkməyə səbəb ola bilər. Bundan ötrü də, darvinizm qarşısında çarəsiz, passiv, aciz və təslimçi xarakter göstərməkdən imtina edilməli, bütün imkanlardan istifadə edilməklə darvinizmə qarşı fikri mübarizə aparılmalıdır. İnkarçı bir ideologiya qarşısında acizlik göstərmək müsəlmanlara yaraşmaz.

Unutmamaq lazımdır ki, səmimi iman edənlərin fikri mübarizəsi bəri başdan zəfər qazanılmış bir mübarizədir. Möminlər, darvinizm də daxil olmaqla, bütün inkarçı ideologiyalara qalib gələcəklər. Allah, iman edənləri Quranda belə müjdələmişdir:

**Kim Allahı, Onun Elçisini və iman gətirənləri özünə dost tutarsa, bilsin ki, qələbə çalanlar da məhz Allahın firqəsidir. (Maidə surəsi, 56)**

**...Allah kafirlərə möminləri məğlub etməyə yol verməyəcəkdir. (Nisa surəsi, 141)**

Dolayısilə iman edənlər dinsizliklə apardıqları fikri mübarizədə, üstün olduqlarını bilərək və haqqı müdafiə etmələrinin şərəfiylə hərəkət etməlidirlər. Şübhəsiz ki, Allahın icazəsiylə darvinizm fitnəsi bitəcək, Rəbbimiz "haqqı batilin" üstünə atacaq. İman edənlər bu elmi zəfərin mükafatını almaq üçün səy göstərməlidirlər.

## Darvinizm elmi baxımdan çürüdülmüşdür

Təkamül nəzəriyyəsi, təbiətdəki 1,5 milyona yaxın canlı növünün, şüursuz təbiət hadisələri nəticəsində yarandıqlarını iddia edirlər. Təkamülçülərə görə, əvvəlcə cansız maddənin içində kimyəvi reaksiyalar sayəsində canlı bir hüceyrə meydana gəlmişdir *(belə bir şeyin baş tutmayacağını göstərən bir çox elmi dəlil var. Tədqiqatçılar, ilkin yer atmosferində olduğu müəyyənləşdirilən qazlarla, həmin atmosferdə mövcud olmuş şəraiti birlikdə yaratmaqla apardıqları təcrübələrdə canlıların ən kiçik təməl elementlərini belə əldə edə bilməyiblər).* Müasir texnologiya və elm səviyyəsiylə hər cür şüurlu müdaxilə aparılmasına baxmayaraq, canlı bir orqanizm yaradıla bilmədiyi halda, təsadüflərin bunu bacardığını iddia etməyin, əlbəttə ki, ağıl və məntiqlə uyuşan tərəfi yoxdur. Eləcə də, təkamülçülərin hekayəsinə görə, bu ilk hüceyrəylə başlayan həyat getdikcə daha kompleks hal almış və müxtəlifləşmişdir; bakteriyalarla başlayan xəyali təkamül prosesi, ən sonunda insanı meydana gətirmişdir. Bir sözlə, elmdən kənar bu iddiaya görə, təbiətdəki bəzi şüursuz mexanizmlər həmişə canlıları meydana gətirməlidirlər. Darvinistlərin bu məqamda irəli sürdükləri və təkamülü meydana gətirdiyini iddia etdikləri iki mexanizm var: **Təbii seleksiya və mutasiyalar.** Elmi tapıntılar, hər iki mexanizmin də, təkamülçülərin iddia etdiyi kimi, güc sahibi olmadığını göstərmişdir.

**Təbii seleksiya** – təbii seçmə deməkdir. Buna görə, güclülər və təbii şəraitə uyğunlaşa bilənlər sağ qalar, digərləri isə aradan götürülərək yox olarlar. Məsələn, bir bölgədə hava şəraitinin dəyişərək temperaturun getdikcə aşağı düşməsi, həmin bölgədə yaşayan heyvan populyasiyaları arasında aşağı temperatura dözə bilməyənlərin aradan çıxması mənasını verir. Yalnız soyuğa davamlı fərdlər uzun müddət sağ qalar və populyasiyanın bütün tərkibini bunlar təşkil edər və ya vaşaqların hücum təhlükəsi altında yaşayan dovşanlardan mühitə ən yaxşı uyğunlaşa bilənlər, ən sürətli qaçanlar sağ qalarlar. Lakin diqqət yetirilsə burada yeni bir xüsusiyyət ortaya çıxmır, mövcud heyvanlar fərqli növə çevrilmir, fərqli xüsusiyyət qazanmırlar. Başqa bir nümunə vermək lazımdırsa, bir şirin hücumundan qaçan maral sürüsü içində ən sürətli qaçanlar sağ qalacaq, yavaş qaçanlarsa yox olacaqlar. Lakin sürətli qaçan bu marallar heç vaxt ata və ya başqa bir heyvana çevrilməyəcək, həmişə maral olaraq qalacaqlar. Dolayısilə təbii seleksiya mexanizmi təkamülləşdirici xüsusiyyətə sahib deyil. Belə ki, özü də bir təkamülçü olan İngiltərə Təbiət Tarixi Muzeyinin baş paleontoloqu Kolin Paterson (Colin Patterson), bu həqiqəti belə etiraf edir:

***Heç kim təbii seleksiya mexanizmləriylə yeni bir növ yarada bilməmişdir.*** *Heç kim belə bir şeyin yanına belə yanaşa bilməmişdir. Bu gün neodarvinizmin ən çox mübahisə edilən mövzusu da budur.*(2)

**Mutasiya** isə, canlıların genlərində radiasiya kimi xarici təsirlər və ya DNT-dəki köçürmə xətaları nəticəsində yaranan pozulmalardır. Əlbəttə ki, mutasiyalar dəyişikliyə səbəb ola bilərlər, lakin bu dəyişikliklər heç vaxt müsbət olmaz, həmişə korlayıcı olar. Digər bir sözlə, mutasiyalar canlıları inkişaf etdirə bilməz, əksinə həmişə canlılara zərər verərlər. İndiyədək müşahidə edilmiş bütün mutasiyalar, əksərən zərərli, nadir hallarda da təsirsiz

olmuşdur. İnkişaf edən elm, hazırda milyonlarla zərərli mutasiyanı müəyyənləşdirib bunların səbəb olduqları xəstəlikləri göstərdiyi halda, təkamülçü elm adamlarının genetik məlumata əlavələr edən heç bir mutasiya nümunəsi göstərə bilməmələri, təkamül nəzəriyyəsini çox böyük çıxılmaz vəziyyətə salır. Fransa Elmlər Akademiyasının (academie des sciences) keçmiş rəhbəri olan Pyer Pol Qrassenin (Pierre Paul-Grassé) mutasiyalar barəsində verdiyi açıqlama, bu məsələni çox gözəl izah edir. Qrasse (Grassé), mutasiyaları **"yazılı bir mətnin nüsxəsinin çıxarılması vaxtı, yaranan hərf səhvləri"**nə bənzətmişdir. Eləcə də, hər hərf səhvi kimi mutasiyalar da məlumat meydana gətirməz, əksinə mövcud məlumatı korlayarlar. Qrasse (Grassé) bu həqiqəti belə açıqlamışdır:

*Mutasiyalar, zaman içində olduqca nizamsız şəkildə meydana gələrlər. Bir-birlərini tamamlayıcı xüsusiyyətləri yoxdur və bir-birini təqib edən nəsillər üzərində müəyyən istiqamətə doğru kumulyativ (getdikcə artan) təsirləri olmaz. Onsuz da mövcud strukturu dəyişdirərlər, lakin bunu tamamilə nizamsız şəkildə edərlər... Bir canlı bədənində çox kiçik də olsa, nizamsızlıq yarandıqda isə, bunun nəticəsi ölüm olar. Həyatla anarxiya (nizamsızlıq) arasında heç bir uzlaşma yoxdur.*[3]

Məhz bundan ötrü də, mutasiyalar, yenə Qrassenin (Grassé) ifadəsiylə desək; *"nə qədər çox sayda baş versələr də, hər hansı təkamül prosesi yaratmazlar".* Mutasiyaların bu təsirini zəlzələlərə bənzədə bilərik. Necə ki, bir zəlzələ hər hansı şəhəri inkişaf etdirməz, daha yaxşı hala gətirməz və onu dağıdarsa, mutasiyalar da eynilə həmişə mənfi dəyişikliklərə səbəb olarlar. Bu baxımdan təkamülçülərin mutasiyalara əsaslanan iddiaları da tamamilə əsassızdır.

Darvinizmin bütün canlıların bir-birlərindən törədikləri iddiasını çürüdən dəlillərdən biri də fosillərdir. Nümunə olaraq, təkamülçülərin, balıqların, dəniz ulduzları və ya dəniz qurdları kimi onurğasız dəniz canlılarından təkamül yoluyla yarandığı iddialarını göstərmək olar. O zaman, bu iki müxtəlif canlı qrupu arasında mərhələli təkamül prosesini təmin edəcək çox sayda "ara-keçid forması" yaşamış olmalıdır. Yəni balıq xüsusiyyətləriylə dəniz ulduzları kimi onurğasız canlı xüsusiyyətlərini birlikdə daşıyan çox sayda daşlaşmış fosilə rast gəlməliyik. Hal-hazırda keçmişdə yaşamış balıqların və dəniz ulduzlarının hər birinə aid yüzlərlə fosil tapılmış olmasına baxmayaraq, təkamülçülərin bu iddiasını təsdiqləyən **təkcə bir ədəd belə ara-keçid forması tapılmamışdır**. Ara-keçid formalarının olmaması isə, açıqca **"təkamül heç vaxt baş vermədi"** mənasını verir.

Lund Universitetindən İsveçli təkamülçü botanik prof. N. Heribert Nilson (N. Heribert Nilsson), darvinizmin fosil qeydləri qarşısındakı məğlubiyyətini belə etiraf edir:

***Təkamülü, 40 ildən artıq davam edən səylə sübut etmə təşəbbüslərim sonunda müvəffəqiyyətsizliklə nəticələndi...*** *Hazırda fosil ehtiyyatları o qədər tamdır ki, yeni siniflər meydana gətirmək mümkün olmuşdur və keçid fosillərin tapılmaması, fosil çatışmazlığıyla açıqlana bilməz vəziyyətdədir.* ***(Fosil qeydlərindəki) boşluqlar həqiqəti əks etdirir və onları***

***tamamlamaq əsla mümkün olmayacaq.***[(4)]

Darvinizmə ən səthi şəkildə baxıldıqda belə əsassızlığı, çürük təməllər üzərində qurulduğu dərhal aydın olur. İncəliklərə getdikdə isə, vəziyyət olduqca dəqiqləşir (təkamül nəzəriyyəsinin süqutuyla əlaqədar daha ətraflı məlumat almaq üçün baxın; Harun Yəhya, *"təkamül nəzəriyyəsinin süqutu"*, araştırma nəşriyyatı, oktyabr 2005)

# Təkamül nəzəriyyəsinin düşdüyü çıxılmaz vəziyyəti etiraf edən elm adamları

Təkamül nəzəriyyəsi barədə, nəzəriyyənin banisi olan Çarlz Darvinin belə çox böyük şübhələri vardı. Çarlz Darvin, nəzəriyyəsinin canlıların yaranma prosesinə izah gətirməsinin qeyri-mümkün olduğunu bilirdi. Bunu bəzən əsərlərinin sətir aralarında, bəzən də xüsusi məktublarında etiraf edirdi:

*Oxucu, əsərimin (növlərin mənşəyi) bu hissəsinə çatmadan əvvəl xeyli çətinliklə üzləşmiş olacaq.* ***Bunlardan bəziləri bu günədək üzərlərində müəyyən qədər dayanmadan düşünə bilmədiyim qədər çətindir.***[5]

*Nəzəriyyəyə qarşı haqlı olaraq edilmiş etirazların, eləcə də,* ***nəzəriyyənin üzləşdiyi çətinliklərin ağırlığı altında illərlə və bunların ağırlığından şübhə duymayacaq qədər çox əzildim.***[6]

*Olduqca yaxşı bilirəm ki,* ***fərziyyələrim qanuni elmin sərhədlərindən xeyli kənara çıxmışdır.***[7]

Çarlz Darvindən sonra da, təkamül nəzəriyyəsini dəstəkləyə biləcək tək bir elmi tapıntı belə tapa bilməyən təkamülçülər, düşdükləri çıxılmaz vəziyyəti hərdənbir etiraf etdilər. Lakin əksəriyyətinin bunu etiraf etməsinə baxmayaraq, materializmdən imtina etmək istəmədikləri üçün həqiqəti qəbul edə bilmədilər. Aşağıda darvinizmin canlıların yaranma prosesinə izah gətirə bilməsinin qeyri-mümkün olduğunu etiraf edən elm adamlarından bəzilərinin bir neçə açıqlamasına yer verilmişdir. Daha çox nümunə üçün; *"təkamülçülərin etirafları"* adlı kitabı nəzərdən keçirə bilərsiniz. (Harun Yəhya, *"təkamülçülərin etirafları"*, araştırma nəşriyyatı, oktyabr 2005)

**(Nobel mükafatı almış təkamülçü) dr. Robert Milikan:**

*Bu çox acınacaqlı ki, biz elm adamları indiyədək heç bir elm adamının sübut edə bilmədiyi təkamülü sübut etməyə çalışırıq.*[8]

**(Çikaqo Universiteti təkamül və ekologiya bölməsindən) Ceri Coyne (Jerry Coyne):**

*Neo-darvinist fikir üçün çox az dəlil olduğunu söyləməliyik: Bu fikrin nəzəri təməlləri və təcrübi dəlilləri olduqca zəifdir.*[9]

**(Kembric Universitetindən ingilis riyaziyyatçısı və astronom) prof. Fred Hoyl (Fred Hoyle):**

*Əslində, həyatın ağıl sahibi bir varlıq tərəfindən meydana gətirildiyi o qədər açıqdır ki, insanı, bu açıq həqiqətin niyə geniş şəkildə qəbul edilmədiyi maraqlandırır. Bunun (qəbul edilməməsinin) səbəbi, elmi deyil, psixolojidir.*[10]

**(Harvard Universitetinin Geologiya və Paleoantropologiya professoru və 20-ci əsrin ikinci yarısındakı başlıca təkamül spikerlərindən) Stefen Cey Quld (Stephen Jay Gould):**

*Əgər bir-biriylə eyni dövrdə yaşayan üç fərqli hominid (insanabənzər) varsa, bu zaman bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən gəlmiş ola bilməz. Biri digəriylə müqayisə edildikdə təkamüli inkişaf göstərmirlər.*(11)

**(Təkamülçü zooloq) D. L. Stern:**

*Təkamüli biologiyanın ən qədim problemlərindən tam şəkildə həll edilməmişdir. Hansı mutasiyalar, təkamüli baxımdan faydalı olan fenotip müxtəlifliyini meydana gətirə bilər? Bunlar hansı növ molekulyar dəyişikliklər tələb edir?*(12)

**B. G. Ranganathan:**

*Nə keçmiş fosil qeydlərində təkamülü sübut edəcək ara-keçid formasına daxil orqanları yarımçıq meydana gəlmiş hər hansı heyvana və ya bitkiyə, nə də hal-hazırda təkamülün hələ də davam etdiyini göstərən yarımçıq inkişaf etmiş heyvana və ya bitkiyə rast gəlinməmişdir.*(13)

**(Zooloq) dr. Albert Flexman (Albert Fleischman):**

*Darvinin süqut etmiş nəzəriyyəsi, təbiət aləmində sübut edilməli olan tək həqiqət və elmi tədqiqatların nəticəsi deyildir, lakin mütləq təxəyyül məhsuludur.*(14)

**Norman Maqbet (Norman Macbeth):**

*Təəssüf ki, təkamül sahəsindəki açıqlamaların çoxu pisdir. Doğrusu bunlara açıqlama demək belə çox çətindir. Təklif, prekoqnisiya və boş xəyallardır, bunlara fərziyyə demək belə yanlış olar.*(15)

## Darvinizmə qarşı aparılan fikri mübarizəni görməzlikdən gəlməmək

Darvinizmə qarşı fikri mübarizə parmaqdan yayınanlar, darvinist təhlükəni tam mənasıyla qavraya bilmədikləri kimi, aparılan fikri mübarizəni də görməzlikdən gəlməyə çalışırlar. Halbuki xüsusilə də Türkiyədə son 20 ildir ki, darvinizmə qarşı geniş miqyaslı elmi mübarizə aparılır. Bu elmi mübarizə, dünya səviyyəsində də öz təsirini göstərir. Məsələn, təkamülçü nəşrləriylə tanınan *"National Geographic"* jurnalının ingilis və alman dilində dərc olunan 2004-cü il noyabr tarixli buraxılışının üz qabığında "was Darvin wrong?" (Darvin yanılmışdımı?) başlıqlı xəbər yer almışdır. Bu xəbərdə təkamül nəzəriyyəsinin yanılmalarını göstərən insanlara qruplara diqqət çəkilərkən, Harun Yəhya və fəaliyyətlərindən də bəhs edilmişdir. Harun Yəhyanın fəaliyyətlərinin darvinist mühitdə böyük narahatlıq meydana gətirdiyini açıqca qeyd edən bu xəbərdə, bu ifadələrə yer verilmişdir:

*Quranda bildirildiyi kimi, kainatın altı gündə yaradılmış olduğunun ifadə edildiyi*

*“təkamül nəzəriyyəsinin süqutu” kitabının müəllifi İslami kreatsionist Harun Yəhya, təkamül nəzəriyyəsini belə xarakterizə edir: Bu nəzəriyyə, dünya sistemini istiqamətləndirən güclər tərəfindən bizə təlqin edilməyə çalışılan yalandan başqa bir şey deyil.*

Dünya səviyyəsində tanınmış *“New Scientist”* jurnalı isə, 22 aprel 2000-ci il tarixli xəbərində bu açıqlamanı vermişdir:

*Harun Yəhya* **beynəlxalq qəhrəman** *oldu. Kitabları İslam aləminin hər yerinə paylanılmışdır.*

Digər bir məşhur elm jurnalı olan “Science”ın 18 may 2001-ci il tarixli buraxılışnda dərc olunan Robert Keniq (Robert Koenig) tərəfindən qələmə alınmış və "creationism take root where Europe, Asia meet" (Avropa ilə Asiyanın birləşdiyi yerdə kreasionizm köklənir) başlıqlı yazıda da, Harun Yəhyanın təkamül nəzəriyyəsinin yalanlarına qarşı apardığı elmi mübarizəyə, *“təkamül nəzəriyyəsinin süqutu”* adlı kitabın beynəlxalq uğuruna və Türkiyədəki təkamülçülərin çarəsizliklərinə geniş yer verilmişdir. Yazıda təkamül nəzəriyyəsini elmi cəhətdən çürütməyi hədəfləyən bu geniş miqyaslı akademik hərəkatın **"Şimali Amerikanı çıxmaq şərtiylə, dünyanın ən güclü anti-təkamülçü hərəkatı"** olduğu və **"digər müsəlman ölkələrə də sürətlə yayıldığı"** qeyd edilmişdir.

Yazıda diqqət çəkən digər bir məsələ isə, *“təkamül nəzəriyyəsinin süqutu”* kitabının beynəlxalq uğuru və bəzi təkamülçü türk elm adamlarının **"bu kitabların ölkənin bəzi bölgələrindəki məktəblərdə tədris edilən dərsliklərdən daha təsirli olduğundan şikayətlənmələridir".** Türk təkamülçülərin narahatlıqları məqalədə: **"...Buradakı bir çox (təkamülçü) elm adamı, təkamülçülərin ictimaiyyətdə türk kreatsionistləri qarşısında öz nüfuzlarını itirmələrindən narahat olur"** cümləriylə yer almışdır.

Darvinizmə qarşı aparılan böyük elmi mübarizənin təsirini əks etdirən digər bir nümunə isə, Amerika Milli Elm Təhsili Mərkəzinin (NSCE) buraxdığı jurnalda yer alan xəbərdir. Amerikan Elmlər Akademiyası tərəfindən dəstəklənilən jurnal, təkamül tərəfdarı olmasına baxmayaraq, 1999-cu il noyabr-dekabr tarixli buraxılışını, Harun Yəhyanın təkamül nəzəriyyəsinin süqutu mövzusuna dair əsərlərinə həsr etmişdir. "İslamic scientific creationism en Turkey" (Türkiyədə İslami elmi kreasionizm) başlığıyla verilən xəbərdə, görülən işlər ətraflı şəkildə araşdırılmışdır.

# Darvinizm necə bir təhlükədir?

Bütün kainatın və canlıların kortəbii təsadüflərin əsəri olduğunu iddia edən darvinizm dövrümüzün ən təhlükəli ideologiyasıdır. Materializm, kommunizm və faşizm başda olmaqla, bəşəriyyətə fəlakət gətirən bütün zərərli ideoloji cərəyanların elmi dayağı olan darvinizm təxminən 150 ildir ki, ideoloji qayğılarla ayaqda tutulmağa çalışılır.

Lakin darvinizm barədə kifayət qədər məlumata sahib olmayan və ya bu materialist ideologiya haqqında dərin düşünməmiş insanlar darvinizmin necə bir təhlükə olduğunu görməyə bilərlər. Təkamül nəzəriyyəsinin, ortaya atılmasından indiyədək ictimai və əxlaqi cəhətdən nə qədər böyük fəlakətlər yaratdığını bilmədikləri üçün də, darvinizmlə aparılan fikri mübarizənin nə qədər mühüm olduğunu anlamaya bilərlər. Halbuki Allahın varlığını və vahidliyini, insanların Rəbbimizə qarşı məsul olduğu həqiqətini rədd edən darvinist ideologiya, insanlara kortəbii təsadüflərin əsəri və guya bir növ heyvan olduqları təlqinlərini verərək böyük dağıntılara zəmin hazırlayar. Eləcə də, darvinizm həyatı mübarizə məkanı hesab edərək, zəifləri tapdalanmağa və məğlub olmağa məhkum fərdlər kimi göstərdiyi halda, yalnız güclülərin sağ qalacağını iddia edir. Məhz bundan ötrü də, darvinizmlə elmi mübarizə aparılması çox əhəmiyyətli və çox təcili məsələdir. Bu mübarizəni "lüzumsuz" və ya "əhəmiyyətsiz" göstərməyə çalışmaqsa, çox böyük səhvlər ehtiva edən təşəbbüsdür.

Darvinizmlə aparılan elmi mübarizənin əhəmiyyətini qavramaq istəyən bir insan, bu nəzəriyyənin hansı iddiayla ortaya çıxdığını, köklərini və 150 ildir ki, bəşəriyyət üzərində yaratdığı böyük dağıntını nəzərdən keçirməlidir. Bu isə, həmin insana təkamül nəzəriyyəsinin əsla Allah inancıyla uzlaşdırıla bilməyəcəyini, Allah inancıyla təkamül nəzəriyyəsi arasında orta bir yol tapmağın qətiyyən mümkün olmadığını göstərəcək. Bunun səbəbi darvinizmin materialist və ateist köklü olmasıdır.

Darvinizmin ortaya çıxmasının ictimai həyat üzərindəki mənfi təsirləri diqqətlə araşdırıldıqda darvinizmdən əvvəlki və darvinizmdən sonrakı dövr olmaqla, iki fərqli dövrün varlığı dərhal görülür. Darvinizmdən əvvəlki dövrdə materialist ideologiya zəif olmuş, cəmiyyətin əksəriyyəti tərəfindən qəbul edilməmiş və təsir dairəsi təkcə azlıq təşkil edən kiçik qruplarla məhdudlaşmışdır. İnsanların əksəriyyəti Allah qorxusu və Allah sevgisinə əsaslanan əxlaqi dəyərlərə əhəmiyyət vermişdir. İnsanların əksəriyyəti, insanların və kainatın necə meydana gəldiyi sualını "Allah yaratdı" deyə cavablandırmışdır. Materialist və ateist dünyagörüşləri cəmiyyətin əksəriyyəti tərəfindən əks reaksiya qarşılanmışdır. Çünki bu dairələrin küfrlərini dəstəkləyə biləcəkləri nəzəriyyələri olmamışdır. Lakin təkamül nəzəriyyəsinin ortaya atılmasıyla birlikdə çox şey dəyişmişdir. Təkamül nəzəriyyəsi insanlara materializmin elmi dayağı kimi göstərilmiş, heç bir düzgünlük payı olmamasına baxmayaraq, canlıların yaranam prosesinə izah gətirən nəzəriyyə kimi tanıdılmışdır. Saxta dəlillər, hiylələr, saxtakarlıqlar, təhriflər, yalanlar, göz boyama halları və demaqoqluq kimi

çoxtərəfli təbliğat üsullarıyla insanlara təlqin edilmiş, bunun nəticəsində də geniş kütlələr tərəfindən qəbul edilmişdir.

Darvinizmin əvvəlcə İngiltərədə daha sonra da bütün Avropada və ABŞ-da ateizmə verdiyi dəstək Oksford Universitetindən prof. Alister Makqrat (Alister McGrath) tərəfindən belə ifadə edilir:

*Çarlz Darvinin təkamül nəzəriyyəsinin Viktoriya dövrü İngiltərəsində yavaş-yavaş kəskinləşməyə başlayan inanc böhranını alovlandırdığı mübahisəsiz həqiqətdir.* ***Qərb dünyasını ateizmə sövq etdiyi iddia ediləcək bir nəzəriyyə vardırsa, o da, şübhəsiz ki, Çarlz Darvinin "növlərin mənşəyi" kitabında göstərdiyi nəzəriyyədir...*** [16]

Sonrakı hissələrdə daha ətraflı şəkildə görəcəyimiz kimi, bu gün də Rusiya, Çin və bəzi Avropa ölkələri başda olmaqla, dünyanın böyük hissəsində elmin çürütdüyü təkamül nəzəriyyəsi hələ də fəaliyyətini davam etdirir və insanların din əxlaqından uzaqlaşmasına səbəb olur.

İnsanlar darvinizmin ağla və elmə zidd təlqinləriylə, uşaqlıqdan etibarən əzab və zülmlə nəticələnəcək yola sövq edilirlər. Bütün dünya məktəblərində, yuxarı sinif və universitet illərində, insanın guya inkişaf etmiş bir heyvan cinsi olduğu, cəmiyyətlər arasında meşə qanunlarının qüvvədə olduğu, zəiflərin, haqlı olsalar da həmişə güclülər tərəfindən tapdalanacağı, həyatın sanki "həyat mübarizəsi" olduğu yalanlarıyla aldadılan gənclər, yaşadıqları cəmiyyətdə böyük problemlərin yaranmasına səbəb olurlar. İnsanları sevməyən, zalım, təcavüzkar, eqoist, əxlaqi dəyərlərə əhəmiyyət verməyən nəsillər yetişdirən darvinist sistemin qüvvədə olduğu əksər ölkə, öz vətəndaşlarıyla böyük problemlər yaşayır. Xuliqanlar, neo-nasistlər, faşistlər, kommunistlər, anarxistlər, terrorçular bu ölkələri yaşanmaz hala gətirir, rəhbərlərin də, problemin nədən qaynaqlandığını çox yaxşı bilmələrinə baxmayaraq, bu vəziyyəti düzəltməyə gücləri çatmır.

Halbuki görülməli iş, problemin əsas mənbəyinin yox edilməsi, yəni darvinizmin fikri yolla təsirsiz hala gətirilməsidir. Çünki yaşanan bir çox nümunə məhkəmə və hərbi tədbirlərin təklikdə kifayət etmədiyini göstərmişdir. Unudulmamalıdır ki, gicitkəni biçməklə onun kökü kəsilməz. Biçilən yerlərdən daha güclü və çox şaxəli şəkildə inkişaf edər. Həll, gicitkəni kökündən çıxarıb atmaqdır. Hal-hazırda bir çox cəmiyyətin yaşadığı əxlaqi və ictimai problemlərin təməlində də darvinist təlqinlər dayanır və bu darvinist təlqinlərin yanlışlığı göstərilmədikcə, problemlərə daimi həll gətirilməyəcəkdir.

## Vəhşət ideologiyalarının təməlində darvinizm dayanır

Darvinizmlə İslam dini arasında orta bir yol tapmağa çalışan və öz ağıllarınca bu azğın nəzəriyyəni müsəlmanlaşdıra biləcəklərini güman edənlər, nəzəriyyənin insanlara vurduğu zərərləri görməzlikdən gəlirlər. Faşizm və kommunizm kimi vəhşət ideologiyalarının

darvinizm sayəsində yaşadığını görməzlikdən gəlirlər. Halbuki, 20-ci əsrdə yaşanan müharibələrin, qarşıdurmaların, anarxiya və xaos hadisələrini araşdırdığımız vaxt, qarşımıza həmişə darvinizm çıxar.

Təkamül nəzəriyyəsi ortaya atıldıqdan qısa müddət sonra biologiya və paleontologiya kimi elm sahələrinin hüdudlarından kənara çıxaraq, insan münasibətlərindən tarixin şərh olunmasına, siyasətdən cəmiyyət həyatına qədər bir çox sahədə öz təsirini göstərməyə başlamışdır. Xüsusilə də, darvinizmin "təbiətin mübarizə və qarşıdurma məkanı olduğu" yalanı cəmiyyətlərə təlqin olunduqda, Hitlerin üstün irq yaratmaq təşəbbüsü, Marksın; *"bəşəriyyət tarixi sinfi qarşıdurmaların tarixidir"* yanılması, kapitalizmin; "güclülərin zəifləri əzərək daha da güclənmələri" fikri, üçüncü dünya ölkələrinin imperialist ölkələr tərəfindən istismar edilməsi, vicdana sığmayan rəftarlara məruz qalmaları və nəhayət zəncilərin hələ də irqçi hücumlar və ayrı-seçkiliklə üz-üzə olması, elmi örtük qazanmışdır. İnsanları öz ağıllarınca inkişaf etmiş heyvan hesab edənlər, zəiflərin üstünə basaraq yüksəlməkdən, xəstə və zəifləri müəyyən yolla yox etməkdən, fərqli və inkişafdan geri qalmış hesab etdikləri irqləri yox etmək üçün qətliamlar törətməkdən çəkinməyiblər. Çünki elm maskası taxmış nəzəriyyələri, onlara bunun "təbiətin qanunu" olduğunu söyləyir.

# Faşizmin darvinist əsasları

**Faşizmin təməl dayaq nöqtəsi darvinizmdir. Çünki:**

1) Darvinizm irqçiliyə dırnaqarası qanunilik qazandırmışdır: Avropalı ağ irqin nümayəndələrinin asiyalılar, zəncilər, türklər kimi bəzi irqlərə görə daha üstün olduğu yalanını ortaya atmış, bundan ötrü də, üstün irqin inkişafını tamamlamamış irqə istənilən yolla hakim ola biləcəyini iddia etmişdir.

2) Darvinizm qan tökməyə dırnaqarası qanunilik qazandırmışdır: Təbiətdə ölümünə "həyat mübarizəsi" olduğunu və bu mübarizənin həm irqlər, həm də fərdlər arasında yaşandığını, hər irqin və ya fərdin öz mənfəətləri üçün digərlərini "yox etməsi"nin guya normal olduğunu iddia etmişdir.

Nasizm isə, darvinizmin ən qaranlıq üzlərindən biridir.

Hitler alman millətinin əsl ünsürünü meydana gətirən ari irqinin digər bütün irqlərdən üstün olduğuna və onları idarə etməli olduğuna inanmışdı. Ari irqin yaxında min illik dünya imperatorluğu quracağını xəyal edirdi. Hitlerin bu irqçi nəzəriyyələrinə tapdığı elmi dayaqsa, Darvinin təkamül nəzəriyyəsi idi. Məşhur kitabı *"döyüşüm"*ün adını Darvinin təbiətdə olduğunu iddia etdiyi "həyat mübarizəsi" yalanından ilhamlanaraq müəyyənləşdirmişdi. Hitler də, eynilə Darvin kimi öz ağlınca Avropalı olmayan irqləri meymunlarla eyni mövqeyə qoyur və belə deyirdi: "Şimali Avropa almanlarını bəşəriyyət tarixindən çıxartsanız, geriyə meymun rəqsindən başqa bir şey qalmaz".(17)

Hitler 1933-cü ildə keçirilmiş Nürnberq konfransında; "ali irqin inkişafını tamamlamış irqləri idarə etdiyini, bunun təbiətdə görülən haqq olduğunu və yeganə məntiqli həqiqət olduğunu" irəli sürdü.(18) Öz ağlınca ari irqinin aliliyinə inanan Hitler bu irqin üstünlüyünün təbiət tərəfindən verildiyini iddia edirdi. Nasist hərəkatının son hədəfi də bu idi. Bu hədəfə nail olmaq üçün, ilk addım inkişafını tamamlamamış irqləri üstün irq olduğuna inandıqları ari irqindən ayırmaq, təcrid etməkdi. Məhz nasistlər bu məqamda darvinizmi tətbiq etdilər və darvinizmdən qaynaqlanan "yevgenika nəzəriyyəsi"ni qüvvəyə qoydular.

## Darvinizm yevgenika qırğınını təşviq və təsdiq edir

20-ci əsrin ilk yarısında özünə çox sayda tərəfdar toplayan yevgenika nəzəriyyəsi, şikəst və xəstə insanların yox edilməsi və sağlam fərdlərin çoxaldılması yoluyla bir insan irqinin "islah edilməsi" mənasını verirdi. Yevgenika nəzəriyyəsinin azğın təlimlərinə görə necə sağlam heyvanlar bir-birləriylə cütləşdirilib yaxşı heyvan cinsləri əldə olunursa, bir insan irqi də islah edilə bilərdi. Yevgenika qanununu ortaya atanlar təxmin edilə biləcəyi kimi, darvinistlərdi. İngiltərədəki yevgenika cərəyanına Çarlz Darvinin əmisi oğlu Frensis

Qalton (Francis Galton) və oğlu Leonard Darvin başçılıq edirdi. Yevgenika fikrinin darvinizmin təbii nəticəsi olduğu çox açıq idi. Necə ki, yevgenika anlayışını müdafiə edən nəşrlərdə bu həqiqət xüsusilə vurğulanır, "yevgenika, insanın öz təkamül prosesini özünün istiqamətləndirməsidir" deyilirdi.

Yevgenikanı Almaniyada ilk mənimsəyən və yayan insansa təkamülçü bioloq Ernst Hekkel (Ernst Haeckel) oldu. Hekkel (Haeckel) Darvinin yaxın dostu və dəstəkçisiydi. Yeni doğan şikəst körpələrin vaxt itirlmədən öldürülməsini, beləliklə də, cəmiyyətin təkamül prosesinin sürətləndirilməsini təklif etmişdi. Zalımlıqda daha da irəli getmiş və cüzam, xərçəng və ruhi xəstələrin də öldürülməli olduqlarını, yoxsa bu insanların cəmiyyətə yük olacaqlarını və təkamül prosesini zəiflədəcəklərini müdafiə etmişdi. Hekkel (Haeckel) 1919-cu ildə öldü. Lakin fikirləri nasistlərə miras qaldı. Hitler hakmiyyətə gəldikdən qısa müddət sonra rəsmi yevgenika siyasəti başlatdı. Hitlerin bu yeni siyasətini bu cümlələri təqdim edir:

Dövlət üçün zehin və bədən təhsilinin əhəmiyyətli yeri var, lakin insan seçimi də ən az bunun qədər əhəmiyyətlidir. Dövlətin genetik cəhətdən xəstəməzac və ya açıq-aşkar xəstə olan fərdlərin nəsil vermək üçün uyğun olmadıqlarını elan etmə məsuliyyəti var... Və bu məsuliyyətini **heç bir anlayış göstərmədən və başqalarının da anlamalarını gözləmədən qəddarcasına yerinə yetirməlidir...** 600 illik müddətdə **bədəni şikəst olan və ya fiziki cəhətdən xəstə olanların nəsil verməsini dayandırmaq... insan sağlamlığı məsələsində bugünkü gündə əldə edilə bilməyən inkişaf təmin edəcək.** Əgər irqin ən sağlam üzvləri planlı şəkildə nəsil verərlərsə nəticədə bu gün hələ də daşıdığımız həm ruhi, həm də fiziki cəhətdən xarab toxumların olmadığı... bir irq mövcud yaranacaq.[19]

Hitlerin bu mərhəmətsiz siyasətinin tələbi olaraq, alman cəmiyyətindəki ruhi xəstələr, şikəstlər, anadangəlmə korlar və irsi xəstəliklərə tutulanlar xüsusi "sterilizasiya mərkəzləri"ndə toplandılar. Bu insanlara alman irqinin xalisliyini və təkamül prosesinin inkişafını korlayan parazitlər kimi baxılırdı. Necə ki, bir müddət sonra cəmiyyətdən təcrid edilən bu insanlar **Hitlerdən gələn gizli təlimat əsasında öldürülməyə başlandı.**

Əslində 20-ci əsrə saysız bəla gətirən əsil səbəb Hitler və faşistlər kimi dinsizlərin mərhəmətsiz xarakteriydi. Allahın varlığını inkar edən və insanların təkamül keçirərək inkişaf etmiş heyvanlar olduqları yalanına inanan bu insanlar, özlərini özbaşına buraxılmış və heç kəsə hesab vermək məsuliyyəti olmayan varlıqlar hesab edirdilər. Allahdan və axirətdən qorxmadıqları üçün əxlaqsızlıqda və zalımlıqda sərhəd tanımamış, bundan ötrü də, milyonlarla insanı qətlə yetirmişlər.

## Faşist Mussolinidən darvinist qırğınlar

Təkamül nəzəriyyəsinin faşizmə verdiyi dəstək Almaniya və Hitlerlə məhdudlaşmadı. Necə ki, Hitler darvinizmdən istifadə edərək siyasətini müəyyənləşdirdisə, həmyerlisi və

müttəfiqi olan Benito Mussolini də İtaliyanı imperialist və faşist təməllər üzərinə oturtmaq üçün eyni darvinist anlayışlardan və iddialardan faydalandı. Zorakılığın tarixdə hərəkətverici qüvvə olduğuna və müharibənin inqilab gətirəcəyinə inanan Mussolini tam darvinistdi. İmperiyasının zəifləməsini guya "təkamülün ən əhəmiyyətli hərəkətverici qüvvəsi olan müharibədən qaçmağa çalışmasıyla" əlaqələndirirdi.(20)

Digər darvinist faşistlər kimi Mussolininin də döyüşçü, təcavüzkar, təzyiqçi siyasəti bir çox insanın qətlə yetirilməsinə, evsiz, ailəsiz qalmasına və ölkənin viran olmasına səbəb oldu. "Qara köynəklilər" adlandırdığı hər cür zorakılıq və zorbazorluq hərəkətini həyata keçirən yarı hərbi birliklər yaratdı. Qara köynəklilər vasitəsilə yalnız öz ölkəsinə deyil, digər ölkələrə də zorakılıq və təzyiq tətbiq etdi. 1935-ci ildə Efiopiyanı işğal edərək 1941-ci ilə qədər 15 min insanı öldürtdü. Efiopiya işğalını darvinizmin irqçi fikirləriylə dəstəkləyərək öz ağlınca məqbul göstərməkdən də çəkinmədi. Mussolininin azğın dünyagörüşünə görə efiopiyalılar qara irqin nümayəndələri olduqları üçün inkişaflarını tamamlamamışdılar və İtalyanlar kimi üstün irq tərəfindən idarə olunmaq onlar üçün şərəf olmalıydı. Həmçinin 3 oktyabr 1911-ci ildə İtalyanın Liviyanı işğal etməsiylə başlayan və müsəlmanlara qarşı həyata keçirilən zülmü davam etdirdi, hətta müsəlmanlara istiqamətli hücumları daha da artırdı. İşğal ancaq Mussolininin ölümüylə 10 fevral 1947-ci ildə bağlanılan bir müqavilə nəticəsində sona çatdı. Bu müddət ərzində 1,5 milyon müsəlman qəddarcasına qətlə yetirildi, yüz minlərləsi də yaralandı.

Hitler və Mussolini nümunələrində görüldüyü kimi, güclülərin və zalımların haqlı və üstün olduğu, qol gücünün, zorakılığın, hücumun və müharibənin inkişafın və uğurun yeganə yolu kimi görüldüyü faşizm, Darvinin "güclülər yaşayar, zəiflər ölər, yaşamaq üçün var güclə mübarizə aparılmalıdır" yalanlarının tətbiq olunmasıydı və milyonlarla insana əziyyət verilməsinə səbəb oldu.

## Milyonlarla insanın həyatını itirdiyi II Dünya müharibəsi darvinizmin əsəridir

Faşist ideoloqlar darvinizmdən aldıqları ilhamla müharibəni də öz ağıllarınca zərurət hesab etmiş və bu iddia sayəsində II Dünya müharibəsini başlatmış, istər öz xalqlarına, istərsə də digər dünya xalqlarına çox müxtəlif əzablar yaşadıblar. Bu baxımdan II Dünya müharibəsində yaşanan əzabların başlıca məsulları arasında Çarlz Darvinin də olduğunu söyləmək olduqca doğru təsbit olacaq. Prof. dr. Ceri Berqman (Jerry Bergman), Darvinizmin II dünya müharibəsinin üzərindəki təsiri haqqında belə bir fikir irəli sürür:

*Darvinist fikirlərin alman düşüncə sistemi və tətbiqi üzərində çox böyük təsirə malik olduğuna dair dəlillər çox açıqdır... **Əslində darvinist fikirlərin II Dünya müharibəsinin yaranması, 40 milyon insanın ölümü və təxminən 6 trilyon dolların itirilməsində çox böyük***

***təsiri oldu.*** *Təkamülün həqiqət olduğuna qəti şəkildə inanan Hitler özünü insanların müasir xilaskarı hesab etmişdi... Daha üstün bir irq yaratmaq surətiylə dünya Hitlerə, insanları təkamül prosesinin daha yuxarı səviyyəsinə gətirmiş insan kimi baxacaqdı.*[21]

Əlbəttə ki, Darvin nəzəriyyəsini ortaya atmadan əvvəl də dünyada bir çox müharibə yaşanmışdır. Lakin təkamül nəzəriyyəsinin təsiriylə müharibə ilk dəfə, elm tərəfindən saxta təsdiq almış və dəstəklənmişdi. Maks Norday (Max Nordau), ABŞ-da geniş əks-səda oyandıran "The philosophy and morals of war" (müharibənin fəlsəfəsi və əxlaqı) adlı məqaləsində Darvinin müharibələr mövzusunda oynadığı pis rola belə diqqət çəkirdi:

***Bütün müharibə tərəfdarlarının ən böyük nüfuzlu insanı Darvindir.*** *Təkamül nəzəriyyəsi ortaya atıldıqdan etibarən təbii barbarlıqlarını Darvinin adı ilə ört-basdır edərək, sahib olduqları zalım instinktlərin elmin son sözü olduğunu iddia edirlər.*[22]

Darvinizm, müharibəylə nəticələnəcək hər cür fikri və elmi zəmini hazırlamış, müharibəni insanların ucalmasının əvəzolunmaz şərti hesab edən despotlarsa milyonlarla insanın qətlə yetirilməsinə səbəb olmuşdurlar. Darvinizmin zəmin hazırladığı vəhşiliklər istər tarixçilər, istər sosioloqlar, istərsə də bilavasitə təkamülçülər tərəfindən açıq şəkildə dilə gətirildiyi bir vaxtda, sülh, sevgi və tolerantlıq dini olan islamla darvinizmi uzlaşdırmağa çalışmağın çox böyük yanılma olduğu aydındır. Müsəlmanlar qəti şəkildə belə yanlış fikrə qapılmamalı, günahsız insanların qəddarcasına qətlə yetirilməsini öz aləmində qanuniləşdirən ideologiyaya qarşı, açıq və konkret şəkildə fikri mübarizə aparmaqdan çəkinməməlidirlər.

## Müasir dövrdə darvinizmi tətbiq edənlər: Neo-nasistlər

Hitler və Mussolini kimi faşist liderlər və onlara bağlı olan nasist təşkilatlar (SA, SS, Gestapo və s.) və ya Mussolininin "qara köynəkliləri" bugünkü gündə tarixə qarışmış kimi görünsələr də, onların ideologiyalarını tətbiq edən neo-faşist təşkilatlar hələ də fəaliyyət göstərirlər. Xüsusilə də son illərdə, Avropanın bir çox ölkəsində irqçi və faşist hərəkatlar yeni oyanış içindədirlər. Bu hərəkatların ən başında isə Almaniyadakı neo-nasistlər gəlir. Neo-nasistlər, işsiz-gücsüz küçə avaralarından, narkotik asılılarından və cahil ruhlu insanlardan təşkil olunur və faşist xarakterin bütün xüsusiyyətlərini özlərində əks etdirirlər.

Neo-nasistlər də eynilə Hitler və digər faşistlər kimi darvinist anlayışı mənimsəyiblər. Nasist və irqçilik təbliğatı məqsədiylə yaratdıqları internet səhifələrində Darvinin sözləri və Darvinə yönlətdikləri təriflər yer alır. Səhifələrində Darvinizmin qəbul edilməli bir nəzəriyyə olduğunu irəli sürürlər.

Darvinin və Hitler kimi faşistlərin varisləri olan bu qruplar hücumlarına və qırğınlarına hələ də davam edirlər. Bu qeyri-insani qrupların törətdiyi hərəkətlərin qarşısını almaqda isə,

alınan məhkəmə tədbirləri kifayət etmir. Bu zülmün qarşısını qəti şəkildə almağın yolu məhkəmə tədbirləri almaqla yanaşı ciddi mənada fikri mübarizə aparılmasıdır. Darvinizm elmi cəhətdən çürüdülmədikcə irqçiliyi təbiət qanunu hesab edən bu insanların etdikləri zülmlər də bitməyəcək.

## Kommunist liderlər üçün darvinizm bir dövlət siyasətidir

20-ci əsrdə insanlara ən çox zərər gətirən ideologiya, şübhəsiz ki, kommunizmdi. Karl Marks (Karl Marx) və Fridrix Engels (Friedrich Engels) adlı iki alman filosof tərəfindən 19-cu əsrdə tarixi zirvəsinə çatan kommunizm, bütün dünyada nasistlərin və imperialist dövlətlərin soyqırımlarını belə geridə qoyacaq qədər çox qan axıtdı. Günahsız insanların canına qəsd etdi, insanlar arasında dəhşət, qorxu və ümidsizlik yaydı. Hər nə qədər 1991-ci ildə kommunizmin süqut etdiyi qəbul edilsə də, qoyub getdiyi tələfat hələ də bitmir. Bu gün hələ də, kommunizmin və marksizmin qaranlıq üzü və insanları din əxlaqından uzaqlaşdıran materialist fəlsəfəsi, vaxtilə kommunizmin hakim olduğu cəmiyyətlər üzərindəki təsirini davam etdirir.

20-ci əsrdə dünyanın hər yerində terror törədən bu ideologiya əslində qədim dövrdən etibarən bir ideologiyanı təmsil edirdi. Bu ideologiya materialist, yəni maddəni yeganə dəyərli şey hesab edən fəlsəfə idi. Kommunizm bu fəlsəfə əsasında meydana gətirilərək 19-cu əsrdə dünya gündəminə gətirildi. Kommunizmin baniləri Marks və Engels materialist fəlsəfəni "dialektika" adlandırılan yeni üsulla izah etməyə çalışdılar. Dialektika kainatdakı bütün inkişafın qarşıdurma sayəsində əldə olunması fərziyyəsi idi. Marks və Engels bu fərziyyəyə əsaslanaraq bütün dünya tarixini izah etməyə başladılar. Marks bəşəriyyət tarixinin qarşıdurmadan ibarət olduğunu, mövcud qarşıdurmanın işçilər və kapitalistlər arasında baş verdiyini və yaxın gələcəkdə işçilərin qiyam qaldırıb kommunist inqilab həyata keçirəcəklərini iddia edirdi.

Kommunizmin banilərinin ən nəzərə çarpan xüsusiyyətləri isə, hər materialist kimi Allah inancına böyük düşmənlik bəsləməleriydi. Hər ikisi də qatı ateist olan Marks və Engels dini inancların yox edilməsini kommunizm baxımından zəruri görürdülər. Lakin Marksın və Engelsin mühüm bir problemələri vardı; daha geniş kütləni təsirləri altına ala bilmək üçün, ideologiyalarına elmi görünüş verməliydilər. Məhz 20-ci əsrdə yaşanan əzablara, xaosa, kütləvi qırğınlara, qardaşı qardaşa qırdıran hərəkatlara səbəb olan təhlükəli ittifaq, bu məqamda ortaya çıxdı. Darvinin *"növlərin mənşəyi"* adlı kitabında ortaya atdığı təməl iddialar Marks və Engelsin axtardıqları izahlardı. Darvin canlıların "həyat mübarizəsi" nəticəsində, yəni "dialektik qarşıdurma" sayəsində yarandıqlarını iddia edirdi. Üstəlik yaradılışı inkar edərək dini inancları rədd edirdi. Bu Marks və Engels üçün bir də ələkeçməz fürsətdi.

Darvinizm kommunizm üçün o qədər böyük əhəmiyyət daşıyırdı ki, Engels Darvinin kitabı nəşr olunan kimi Marksa belə yazdı: **"Hal-hazırda kitabını oxumaqda olduğum Darvin tək sözlə möhtəşəmdir".**(23) Marks isə 19 dekabr 1860-cı ildə Engelsə yazdığı cavab məktubunda belə deyirdi: **"Bizim fikirlərimizin təbii tarixi təməlini ehtiva edən kitab məhz budur".**(24) Marks, digər bir sosialist dostu Lasalle'yə 16 yanvar 1861-ci ildə yazdığı məktubda isə; **"Darvinin əsəri böyük əsərdir. Tarixdəki sinfi mübarizənin təbiət elmləri baxımından təməlini təşkil edir"**(25) deyərək, təkamül nəzəriyyəsinin kommunizm üçün əhəmiyyətini bildirirdi.

Marks Darvinə olan simpatiyasını ən mühüm əsəri olan *"Das Kapital"ı* Darvinə həsr edərək göstərmişdi. Kitabın alman dilindəki nəşrinə əl yazısıyla belə yazmışdı: **"Çarlz Darvinə həqiqi pərəstişkarı olan Karl Marksdan".**(26)

Engels də Darvinə olan heyranlığını fərqli bir yerdə belə dilə gətirirdi:

*Təbiət metafizik olaraq deyil, dialektik olaraq işləyir. Bununla əlaqədar olaraq **hamıdan əvvəl Çarlz Darvinin adı çəkilməlidir.**(27)*

Engels öz aləmində Darvini Marksla bərabər tutacaq şəkildə tərifləyir və "Darvin necə üzvi təbiətdəki təkamül qanununu kəşf etdisə, Marks da bəşəriyyət tarixindəki təkamül qanununu kəşf etdi" deyirdi.(28) Marksizm-darvinizm əlaqəsi bu gün hər kəs tərəfindən qəbul edilən çox açıq həqiqətdir. Karl Marksın həyatından bəhs edən kitablarda da, bu əlaqə həmişə bildirilir. Məsələn, Karl Marksın bioqrafiyasında bu əlaqə belə təsvir edilir:

*Darvinizm, marksist fəlsəfəni dəstəkləyən, həqiqiliyini sübut edən və inkişaf etdirən bəzi həqiqətlər göstərdi. Darvinist təkamülçü fikirlərin yayılması, cəmiyyətdə bütöv halda marksist düşüncələrin əməkçi xalq tərəfindən qavranılması üçün əlverişli zəmin yaratdı ... Marks, Engels və Lenin Darvinin ideologiyalarına böyük dəyər verdilər və bunların daşıdığı elmi əhəmiyyətə işarə etdilər, beləliklə də, bu ideologiyaların yayılma prosesini sürətləndirdilər.(29)*

Tarixin ən azğın qatillərindən biri olan Mao da qatı darvinistdi. Maonun əmrləri əsasında bilavasitə 10 milyona yaxın insan öldürüldü, ona itaət etməyən 20 milyona yaxın insansa həbsxanalarda həyatlarını itirdi. Mao yaratdığı bu rejimin fəlsəfi dayağını isə; **"Çin sosializminin təməli Darvinə və təkamül nəzəriyyəsinə əsaslanır"** deyərək açıqca büruzə verdi.(30) Marksist, ateist və təkamülçü olan Mao, "irəliyə doğru böyük sıçrayış" kimi adlandırdığı hərəkatın üzvlərinin oxuyacağı materialların Çarlz Darvinin əsərləri və təkamül nəzəriyyəsini dəstəkləyən digər materiallar olması əmrini verdi.(31) Çin kommunistləri 1950-ci illərdə hakimiyyətə gəldikləri vaxt, təkamül nəzəriyyəsini ideologiyalarının təməli kimi qəbul etdilər. Hətta Çinli ziyalılar təkamül nəzəriyyəsini xeyli əvvəldən qəbul etmişdilər:

*19-cu əsrdə Qərb, Çini, təcrid olunmuş və qədim ənənələri davam etdirən yatan bir dev hesab edirdi. Çox az Avropalı, **Çinli ziyalıların Darvinin təkamül nəzəriyyəsini həvəslə***

*mənimsədiklərini və dəyişmə üçün ümid vəd etdiyini qavradıqlarını anladı. Çinli yazıçı Hu Shih'ə görə 1898-ci ildə Tomas Hakslinin "təkamül və etika" kitabı nəşr olunduqda Çinli ziyalılar tərəfindən tezliklə qəbul edildi. Zəngin insanlar ucuz Çin verilişlərinə sponsorluq etdilər, beləliklə də, kütlələrə geniş şəkildə yayıla bildi.*[32]

Bütün bu məlumatlar, darvinizm qarşısında passiv və aciz yanaşma tərzi nümayiş etdirən, bu azğın nəzəriyyə qarşı aparılan fikri mübarizəni lazımsız hesab edən və ya görməzlikdən gələnlərin xeyli yanıldıqlarını yenidən göstərir. Darvinizmi zərərsiz elmi nəzəriyyə hesab edənlər, kommunist ideologiyanın təməl dayaq nöqtəsi olan, bütün marksist ideoloqların həyatları bahasına dəstəklədikləri bir nəzəriyyə ilə üzbəüz olduqlarını unutmamalıdırlar. Marksist, Leninist və Maoçu nəşrlərin və liderlərin dillərindən düşürmədikləri, həyatın hər sahəsinə tətbiq etməyə çalışdıqları təkamül nəzəriyyəsini İslamla uyğunlaşdırmağa çalışanların xeyli yanıldıqlarını görmələrinin ən asan yolu isə, bu nəzəriyyənin həqiqi üzünü görmələri olacaq.

## Darvinist kommunizmin acı nəticəsi

Darvinist-materialist dünyagörüşünü mənimsəyən terroristlər, primitiv əcdadları olduğunu iddia etdikləri heyvanlar kimi dağlara çıxdılar və mağaralarda çox pis şərtlər altında yaşadılar. Heç düşünmədən insan öldürə bildilər, körpələrin, yaşlıların, günahsızların canlarına qəsd etdilər. Özlərini və digər insanları Allahın yaratdığı, ruha, ağla və vicdana sahib varlıqlar kimi görmədikləri üçün, heyvanın heyvana etdiyini, bir-birlərinə etdilər. Kommunizmin qanlı nəticəsinə, *"kommunizmin qara kitabı"* adlı əsərdə belə yekun vurulur:

Ümumi ölü sayı **100 milyona çatır**".[33]

SSRİ **20 milyon ölü**, Çin **65 milyon ölü**, Vyetnam **1 milyon ölü**, Şimali Koreya **2 milyon ölü**, Kamboca **2 milyon ölü**, Şərqi Avropa **1 milyon ölü**, Latın Amerikası **150 min ölü**, Afrika **1,7 milyon ölü**, Əfqanistan **1,5 milyon ölü**, beynəlxalq kommunist hərəkat və hakimiyyətdə olmayan kommunist partiyalar **10 000-ə yaxın ölü**.

Kommunizm və materializmin din düşmənçiliyi isə, oktyabr inqilabı və ondan sonra kəskin şəkildə özünü göstərdi. Stalinin dağıtdırdğı onlarla kilsə və məscid kommunizmin din düşmənçiliyinin göstəricilərindən yalnız biriydi. Cəmiyyətin böyük hissəsi dindar olmasına baxmayaraq, insanların ibadətlərini yerinə yetirmələrinə maneə törədilirdi. Xristianların kilsəyə getdikləri bazar gününü aradan qaldırmaq üçün ortaq tətil günü anlayışı aradan qaldırıldı. Hər kəs beş gün işləməli və hər hansı gün tətil etməliydi. 1936-cı ilədək məscidlərin 65%-i, kilsələrin 70%-i yandırılmışdı. Albaniyanın kommunist lideri və dinsizliyi ilə tanınan Ənvər Xoca (Enver Hoxha) 1967-ci ildə Albaniyanı dünyanın ilk dinsiz ölkəsi elan etdi. Din xadimləri səbəbsiz yerə nəzarət altına alındılar, bir hissəsi polis tərəfindən nəzarət altında olarkən öldürüldü. 1948-ci ildə iki yepiskop 5000 din xadimiylə birlikdə güllələndi.

Eynilə müsəlmanlar da öldürülürdü. Ölkənin *"Nendori"* qəzeti də, 327-si katolik məbəd olmaqla, ümumilikdə 2 min 169 məscid və kilsənin bağlanıldığını bildirdi.

Bu gün dialektik materializm və kommunizm çökmüş kimi görünür. Lakin bu yalandır. Çünki bu düşüncə sistemi müxtəlif adlar altında dünyanın bir çox ölkəsində gizlicə fəaliyyətlərini davam etdirir, hətta ölkəmizdə separatçı terroru bilavasitə təşkil edir. Dolayısilə, materializmin gizlicə fəaliyyət göstərməsi vicdan və ağıl sahibi insanları acizliyə sövq etməməlidir. Bu təhlükəli ideologiyalarla və bu ideologiyaların dəstəkçisi olan darvinizmlə elmi mübarizə aparılması şərtdir.

## Darvinizm, vəhşəti öz ağlınca qanuni hesab edən fərdlər yetişdirir

Kommunizm və faşizm bəşəriyyətin iki düşmənidir. Bunlar darmadağın etməyi, insanlara qorxu, narahatlıq, əzab, dəhşət yaşatmağı, öz ölkəsinin əsgərinə, polisinə hücum etməyi, günahsızları göz qırpmadan öldürməyi əmr edər. Həm faşist, həm də kommunist rejim və təşkilatlarda ortaq psixologiya hakimdir: Bu sistemdə, insani duyğular, acımaq, insaf etmək, vicdan kimi hisslər tamamilə yox edilir. İnsan cəmiyyətləri, vəhşi heyvanların yaşamaq və qidalanmaq üçün döyüşdükləri meydanalara çevrilir. Necə ki, vəhşi bir heyvan qida və məskunlaşma yeri əldə etmək üçün, öz növüylə var gücüylə mübarizə aparırsa, insanların da eyni şəkildə "heyvanlar" kimi davranmaları uyğun görülür. Çünki Darvinin ehkamı, onlara əslində bir heyvan olduqlarını və heyvanlar necə yaşamaq üçün mübarizə aparırlarsa, özlərinin də elə davranmalı olduğunu öyrədir.

P.J. Darlinqton (P.J. Darlington) bir təkamülçü olaraq, *"evolution for naturalists"* ("naturalistlər üçün təkamül") adlı kitabında vəhşiliyin, təkamül nəzəriyyəsinin normal nəticəsi olduğuna və hətta bunun qanuni görülməsinin lazım olduğuna dair batil inancını belə etiraf edir:

*Eqoistlik və vəhşilik içimizdəki normal bir şeydir, ən uzaq atamızdan bizə miras qalmışdır... O zaman* ***vəhşilik insanlar üçün normaldır və təkamülün məhsuludur.***(34)

Bir təkamülçünün bu etirafından da aydın olduğu kimi, Darvinin təkamül nəzəriyyəsini rəhbər tutan ideologiyaların digər insanları heyvan qəbul etməsi, onlara heyvanlar üçün uyğun görülən münasibəti göstərməsi, onlara zülm etməsi özü üçün olduqca normaldır. Çünki bu insan darvinist ideologiyanı mənimsəyərək bir Yaradıcı olduğunu, özünün yer üzündə mövcudluq məqsədini və axirətdə dünyada etdiklərinə görə Allahın hüzurunda hesab verəcəyini unudur. Bunun nəticəsi olaraq da, bu insan, Allah qorxusu yox olan hər insan kimi, yalnız öz mənfəətlərini düşünən eqoist, mərhəmətsiz, zalım hətta gözü dönmüş bir qatilə çevrilir.

Gənclərini darvinist və materialist ideologiya ilə yetişdirən bəzi Qərb millətləri, 150 ildir ki, "kommunist", "faşist" və ya "neo-nasist" kimi tanınan təcavüzkar və qəddar insanlar

yetişdirirlər. Sonra da meydana gətirdikləri bu cinayətkarların qan axıtmasının, dövlətinə və millətinə düşmən olmasının qarşısını ala bilmirlər. Bu ölkələrin ən böyük səhvi əvvəlcə darvinist təhsillə bu cinayətkarları yetişdirmək, sonra da bunları necə cilovlayacaqlarını düşünərək çarəsizcə yollar axtarmaqdır.

Halbuki edilməli şey çox aydındır: Darvinizm elmi mübarizə aparılmaqla fikirlə yox edilməlidir. Bunun yolu isə darvinist təhsil verməkdən imtina etmək, insanlara məsuliyyətsiz heyvan olmadıqlarını, Allahın yaratdığı ruh sahibləri və axirətdə etdikləri əməllərdən ötrü haqq-hesab verəcək fərdlər olduqlarını başa salmaqdır.

Zərərli ideologiyaların mənşəyi olan darvinizmin fikri yolla çürüdülməsi nəticəsində, ortada yalnız tək bir həqiqət qalacaq. O da, bütün insanları və kainatı Allahın yaratdığı həqiqəti olacaq. Bunu anlayan insanlar səmimi şəkildə din əxlaqına üz tutacaqlar. İnsanların din əxlaqına üz tutmaları nəticəsində yer üzündəki əzablar, çətinliklər, qırğınlar, bəlalar, ədalətsizliklər, yoxsulluqlar aradan qalxacaq, aydınlıq, rahatlıq, zənginlik, bolluq, sağlamlıq və bərəkət gələcək. Bunun üçünsə batil olan və insanlara zərər verən hər ideologiya, haqq olan, insanlara gözəllik bəxş edəcək ideologiyalar vasitəsilə məğlub edilməlidir. Daşa qarşılıq daş atmaq, yumruğa qarşı yumruqla cavab vermək, təcavüzkara qarşı təcavüzkar olmaq çıxış yolu deyil. Çıxış yolu bunları edənlərin ideologiyalarını çürütmək və zəruri olan tək doğrunu səbirlə və gözəl şəkildə onlara izah etməkdir.

Qarşıdurmaların, anarxiyanın, terrorun, qiyamların, zülmün, vəhşiliyin, mərhəmətsizliyin, məzlumları tapdalamağın həyatın labüd həqiqətləri olduğunu düşünənlər yanılırlar. İnsanlar arasında normal olan sülhün, əmin-amanlığın, təhlükəsizliyin, qardaşlığın, dostluğun, səmimiyyətin, insanpərvərliyin, mehribanlığın, şəfqətin, anlayışın, hörmətin hakim olduğu mühitlərin olmasıdır. Bu da ancaq darvinizmin fikri yolla yox edilməsi və din əxlaqının hakim olmasıyla təmin edilə bilər.

## Əxlaqi pozulma darvinist dünyabaxışının bir nəticəsidir

Darvinizmin dünya üzərindəki təsirini qiymətləndirməyən və ya görməzlikdən gələnlər, insanların din əxlaqından uzaqlaşıb, dinsizliyə yönəlmələrinin həqiqi səbəblərinin də xəbərsizdirlər. Halbuki darvinizmin bəşəriyyətə gətirdiyi ən böyük bəla, şübhəsiz ki, insanları dinsizliyə sürükləməsidir. Çünki din əxlaqından uzaqlaşmış cəmiyyətlərdə, qısa müddətdə kəskin əxlaqi və mənəvi pozulma meydana çıxar. Müasir cəmiyyətlərdə də, bu vəziyyətin nümunələri görülür.

Hal-hazırda darvinizmi şüurlu şəkildə müdafiə edən insanların sayı azdır. Lakin azlıq təşkil edən bu kütlələr, ictimai həyata demək olar ki, hər sahədə yön verənlərdir və öz dünyabaxışlarını böyük kütləyə təlqin etmə imkanları vardır. Məsələn, universitetlərin təhsil işçilərinin əksəriyyəti, kino rejissorlarının böyük hissəsi, dünya səviyyəsində tanınan

nəşriyyat orqanlarının, qəzet və jurnalların redaktorları və müəllifləri əsasən materialist və darvinistdirlər. Dolayısilə bu seqmentin xitab etdiyi kütlələr də, onların təlqinlərini alır və onların təkamülçü və din əxlaqına uyğun olmayan düşüncələrini mənimsəməyirlər. Nəticə etibarilə də, ortaya bu batil fikirlərin geniş şəkildə qəbul olunduğu cəmiyyətlər çıxır.

Darvinistlərin ictimai həyatdakı bu geniş miqyaslı hakimiyyəti, insanlar üzərində sanki çox güclü "hipnoz" təsiri meydana gətirir. Xüsusilə də gənclər, darvinist və materialist təlqinlərə asanlıqla qapıla bilirlər. Oxuduqları jurnallar, kitablar, seyr etdikləri filmlər, tamaşa etdikləri teatrlar və ya musiqi klipləri, dinlədikləri mahnıların sözləri və ən əhəmiyyətlisi də məktəbdə aldıqları təhsil vasitəsilə gənclərin dünyabaxışlarını və düşüncələrini yönləndirmək olduqca asan olur. Necə ki, insanların təkamül nəzəriyyəsini, bütün yalanlarına və qeyri-elmi olmasına baxmayaraq, 150 ildir ki, elmi həqiqət zənn etmələrinin səbəbi də darvinistlərin bu güclü təbliğatıdır.

Vurğulanmalı olan digər bir əhəmiyyətli mövzu isə, hazırkı dövrdə dinsizliyin əsasən gizli təbliğ edilməsidir. Bu ateist, materialist ətrafların dini mövzuları və ya dindarlığıyla tanınan insanları öz aləmlərində lağa qoymaları, mahnı sözlərində, romanlarda, filmlərdə, qəzet başlıqlarında, lətifələrdən Allaha, taleyə və dinə istiqamətli ədəbsiz sözlər işlətmələri (Allahı tənzih edirik), bu hiyləgər taktikalardan yalnız bir neçəsidir.

Darvinizmin mövzuları isə, dinsizlik təbliğatının ən tez-tez istifadə olunan vəsaitləridir. Heç əlaqəsi olmayan mövzularda belə, atalarımızın meymunlarla ortaq olduğu yalanı tez-tez vurğulanır. İnsan psixologiyasının analizinə dair nəticələrdə belə, təkamül nəzəriyyəsinin iddiaları sətir aralarında verilər. Beləliklə də, özündən soruşulduqda Allaha və dinə inandığını söyləsə belə, əslində dini, axirəti, əxlaqi məsuliyyətləri öz aləmlərində əhəmiyyətsiz hesab edən (Allahı tənzih edirik), düşünməyən, Allahdan qorxmayan və əslində isə, Ona inanmayan insan cəmiyyətləri ortaya çıxır. Allah qorxusuna və imana sahib olmayan insanlarsa, heç bir mövzuda sərhəd tanımaz və əcdadları olduğunu zənn etdikləri heyvanlarla bənzər həyat tərzi yaşamağa başlayarlar. Məsələn, Allahdan qorxub çəkinməyən insanların namuslarını qorumaları gözlənilməz, çünki bunun üçün aşmamalı olduqları olan hər hansı hədd olmadığını düşünərlər. Digər insanların gözündən gizləndikləri müddətcə hər cür əxlaqsızlığı edə bilərlər. Necə ki, hazırkı dövrdə dünya səviyyəsində xüsusilə gənclər arasında və cəmiyyətlərin müəyyən seqmentlərində getdikcə həddi daha da aşan, əxlaqi dəyərləri görməzlikdən gələn bir anlayışın yayılması, insanların darvinist təlqinlər nəticəsində din əxlaqından uzaqlaşmalarının bir nəticəsidir. Özbaşına buraxıldıqlarını hesab edən və heç kəsə haqq-hesab verməyəcəklərini güman edən insanların xarakteri, hər keçən gün daha da korlanır. Zina, bəzi nəşriyyat orqanlarının az qala tərifləyərək və qibtə edərək danışdığı, hətta hər kəsi dəvət etdiyi, hər kəs tərəfindən normal qarşılanan bir hərəkətə çevrilmişdir. Diqqətlə araşdırılsa, cinayətin, fahişəliyin, fırıldaqçılığın, saxtakarlığın hər növü, rüşvət almaq, rüşvət vermək, yalan söyləmək, bir sözlə, bilinən bütün əxlaqsız davranışların təməlində dinsizlik olduğu görülər. Bu dinsizliyin yayılma üsullarının ən təsirlisi isə,

darvinizmin "özbaşına buraxılmış, təsadüflər nəticəsində meydana gəlmiş insan" yalanının cəmiyyətlərə israrla təlqin edilməsidir.

*The lie: Evolution* (bir yalan: Təkamül) adlı kitabın müəllifi Ken Ham, darvinizmin səbəb olduğu dinsizliyə diqqət çəkərək belə söyləyir:

*Əgər Allahı inkar edər və dini inancların yerinə şans və təsadüflərlə dolu olan başqa inanc qoysanız, səhv və doğru üçün əsas qalmaz. Qanunlar, istədiyiniz kimi olar. Mütləqilik yoxdur, tabe olunmalı prinsiplər yoxdur. İnsanlar öz qanunlarını yazarlar.*(35)

Burada bu həqiqət xatırladılmalıdır: Bəziləri insanların öz qoyduqları qaydalarla da əxlaqi dəyərlərin qoruna biləcəyini, ictimai nizam-intizamın təmin edilə biləcəyini düşünə bilərlər. Lakin bu doğru deyil. Əlbəttə ki, cəmiyyətdə nizam-intizamı təmin edən qanunlar və qaydalar olması vacibdir. Eləcə də, bunlar əxlaqi dəyərlərin qorunmasına kömək edərlər. Lakin bunlara tam mənasıyla riayət etmək, nizam-intizamın hər kəsin razı qalacağı və rahat olacağı şəkildə qorunması, ancaq Allaha və axirət gününə iman etməyin gətirdiyi gözəl əxlaqla mümkündür.

Feodosiy Dobrjanskiy (Theodious Dobzhansky) də, darvinizmin əxlaqi pozulmaya zəmin hazırladığını qəbul edən darvinistlərdən biridir. Darvinizmin təməli olan "təbii seleksiya" düşüncəsinin cəmiyyətlərin əxlaqi dəyərlərini zəiflətdiyini belə ifadə edir:

*Təbii seleksiya eqoizmi, əyləncə düşkünlüyünü, cəsarət əvəzinə qorxaqlığı, saxtakarlığı və istismarı seçər. Cəmiyyət etikası isə, "təbii" rəftarları qadağan edər və bunların əksi olan nəzakət, comərdlik və hətta digər şeylərin, cəmiyyətin, millətin və nəhayət bütün insanların yaxşılığı üçün özünü fəda etmək kimi xüsusiyyətləri ucaldar.*(36)

Dobrjanskiyin (Dobzhansky) sözləri çox mühüm bir həqiqətə diqqət çəkir: Comərdlik, fədakarlıq, vəfa, sədaqət, köməksevərlik kimi gözəl əxlaq xüsusiyyətləri darvinist zehniyyətin əsla qəbul etməyəcəyi fəzilətlərdir. Çünki darvinizm bunları təkamül prosesini gerilədən bir maneə hesab edir. Darvinizmə görə xəyali təkamül prosesinin davam edə bilməsi üçün, insanlar mərhəmətsiz, eqoist, sevgisiz, vəfasız olmaq məcburiyyətindədirlər. Belə bir anlayışın geniş kütlələr tərəfindən qəbul edildiyi bir cəmiyyətdə dinclikdən, etimaddan və sabitlikdən danışmağın qeyri-mümkün olduğu isə aydındır.

Belə ki, diqqətli araşdırıldıqda, darvinist zehniyyətin vurduğu böyük ziyanın izləri dərhal görülə bilər. İnsanların yardımlaşma, fədakarlıq, hörmət və sevgi bağları olmadan, bir-birlərindən ayrı yaşamalarının, guya inkişafın və mədəniləşmənin bir nəticəsi olduğu cəmiyyətlərə təlqin edilir. Daha çox istehsal və inkişaf üçün belə bir nəticəyə dözülməli olduğu yalanı tez-tez təkrarlanır. Əslində isə, bu inkişafın və mədəniləşmənin deyil, insanların özlərini "heyvan səviyyəsi"nə gətirmələrinin bir nəticəsidir. Halbuki insan Allahın ağıl, şüur, vicdan və ruh sahibi olaraq yaratdığı, digər bütün canlılardan bu xüsusiyyətləriylə tamamilə fərqlənən bir varlıqdır. Lakin darvinist-materialist əxlaqın cadusuna qapılan bəzi

insanlar bu xüsusiyyətlərini unudar və çox vaxt heyvanlarda belə görülməyəcək alçaq, vicdansız, şüursuz, əxlaqsız hərəkətlər edəcək qədər alçalarlar. Sonra da; *"bizim soyumuz onsuz da heyvan olub, bunlar da onlardan qalan genetik mirasdır"* deyərək, öz iradəsizliklərinə və şüursuzluqlarına dırnaqarası elmi zəmin hazırlayarlar.

Bir çox darvinist etoloq, bu yanlış məntiqə əsaslanaraq, insanların cinayətə meyletmə səbəbinin heyvan olan atalarından özlərinə qalan bir miras olduğunu iddia edir. Təkamülçü Stefen Cey Quld (Stephen Jay Gould) *"ever since Darwin"* ("Darvindən indiyədək") adlı kitabında ilk olaraq italyan fizik Lombroso tərəfindən ortaya atılan bu iddianı belə nəql edir:

*Günahkarlığa aid bioloji qanunlar çox yeni sayılmazdı, lakin Çezare Lombrozo (italyan bir həkim) bu mübahisəyə yepyeni təkamüli yön verdi. Anadangəlmə günahkarlar yalnız kəmağıl və ya xəstə olmayıb, daha əvvəlki təkamüli mərhələyə geri düşmüş və sözün əsil mənasında nəsillərinə çəkmişdilər. Primitiv və meymunabənzər atalarımızın irsi xüsusiyyətləri genetik repertuarımızda qorunur. Bəzi fərdlər normadan artıq irsi xüsusiyyətlərə sahib şəkildə doğular. Davranışları keçmişdəki bəzi vəhşi cəmiyyətlər üçün uyğun olsa da, bu gün bu davranışlara cinayət deyirik. Anadangəlmə günahkarlara yazığımız gələ bilər, çünki onlar özlərinə hakim ola bilməzlər...*[37]

Yəni darvinistlərin iddialarına görə bir insanın digərini öldürməsi, ona əzab verməsi, oğurluq etməsi, müharibə yaratması, guya ona meymun atalarından genetik olaraq verilmiş mirasdır. Dolayısilə, bu əsassız iddiaya görə işlədiyi cinayətlər həmin insana aid deyildir və üzrlü hesab edilməlidir. Bu ağılsız və məntiqsiz iddialardan da aydın olduğu kimi, darvinist ideologiya insanın sahib olduğu vicdanı, iradəni, qərar vermə, mühakimə yürütmə qabiliyyətlərini tamamilə heçə sayar və insanı eynilə heyvanlar kimi instinktləriylə hərəkət edən, ağılsız məxluq kimi qəbul edər. Bu azğın anlayış, vəhşi bir şirin içindəki təcavüzkarlığı cilovlaya bilməməsi, qəzəbini boğaraq, bağışlayaraq və səbir göstərərək fəzilətli rəftar göstərə bilməməsini nümunə verərək, insanın da eyni şəkildə davranacağını iddia edər. Belə insanların ibarət bir cəmiyyətdə narahatlıqlar, təhlükələr, qarışıqlıq, döyüş və qarşıdurma olacağı aydındır.

Darvinist və materialistlərin yanlış fikirlərinə görə insanlar da daxil olmaqla bütün kainat, xaos və təsadüflərin əsəridir. Bu batil anlayışın cəmiyyətlərə təlqin edilməsiylə, özbaşına buraxılmış olduğunu zənn edən, məsuliyyətsiz insanlar ortaya çıxar. Məqsədsiz bir insan isə, düşünməz və özünü inkişaf etdirməyi hədəfləməz. Belə insan biganə, lağlağı, laqeyd olar, heç nədən təsirlənməz, vicdanından istifadə etməz, heç bir hədd və qanun tanımaz. Sahib olduğu heç bir fəzilət və gözəllik olmaz. Həmçinin öz azğın anlayışına görə, özü kimi inkişaf etmiş bir heyvan olan digər varlıqların etdiyi şəkildə bu dünyada qidasını tapa bilməli, nəsil verə bilməli, bəzi ehtiyaclarını qarşıladıqdan sonra mümkün qədər əylənərək ölümü gözləməlidir. Bu heyvanlar aləminin yaşadığı həyatın, insan həyatına uyğunlaşdırılmış versiyasıdır. Eləcə də, diqqət yetirilsə hər nə qədər insanların böyük hissəsi

darvinizmin texniki incəliklərini bilməsə də, darvinistlərin insanlar üçün münasib gördükləri bu həyatı yaşayırlar.

Həmçinin bu insanlar məqsədsiz və yox olacaqları bir həyat yaşadıqlarına görə görünməmiş pessimizmə və ümidsizliyə qapılarlar. Ölümlə birlikdə hər şeyin yox olacağını düşünmək bu insanların içlərinə qapanmalarına, bədbəxt olmalarına səbəb olar. İntihar hallarının, psixoloji problemlərin, depresiyaların altında yatan səbəblərdən biri də darvinist cadunun insanların psixologiyaları üzərindəki bu mənfi təsirləridir.

Bütün kainatı yoxdan yaradan, sonsuz güc və qüdrət sahibi olan Rəbbimizin hər şeyi bir məqsədlə yaratdığını unudan və ya görməzlikdən gələn cəmiyyətlər, mütləq əxlaqi və mənəvi cəhətdən pozulmağa məhkumdurlar. Zənginlik, rifah, iqtisadi inkişaf təklikdə bu insanlara qətiyyən əmin-amanlıq və təhlükəsizlik bəxş etməz. Ağlının və vicdanının əmrlərinə itaət etməyən, özünü özbaşına buraxılmış və məqsədsiz bir varlıq hesab edən insanları dünyada bədbəxtliyə, ümidsizliyə, pessimizmə salan çox şey var. Ən əhəmiyyətlisi də, ölümlə birlikdə yox olacaqlarını zənn edən bu insanların, öldükdən sonra qarşılaşacaqları əsil həyatı gördükdə yaşayacaqları şey, peşmançılıq, bədbəxtlik və pessimizm olacaq. Halbuki, Allaha və axirətin varlığına inanan bir insan əsil həyatını dünyada deyil, axirət yaşayacağını bilir. Həmişə Allahın rizasını və cənnətini qazanmağın ümidini və sevincini daşıyar. Hər hadisədə Allaha təvəkkül edər, digər bir sözlə, heç vaxt ümidsizliyə və bədbinliyə qapılmaz.

Göründüyü kimi, darvinizmin hədəflədiyi dünya modelinin İslam əxlaqıyla uyğunlaşması, ikisinin arasında orta yol tapılması qətiyyən mümkün deyil. Çünki ikisi bir-birinin tam əksidir. İslam dininin insanlara tövsiyə etdiyi bütün əxlaqi dəyərlər, darvinist əxlaq tərəfindən rədd edilir. Darvinizm, sevgini, şəfqəti, mərhəməti, paylaşmanı, köməkləşməni, fədakarlığı və ehtiyac sahiblərinə kömək etməyi zəiflik əlaməti qəbul etdiyi halda, bu əxlaq xüsusiyyətləri İslam əxlaqının təməlini meydana gətirir. Dolayısilə öz ağıllarınca darvinizmi günahsız göstərməyə çalışan, onun İslam diniylə uzlaşa biləcəyi kimi yanlış fikrə qapılanlar, bu mövzu barədə bir daha dərindən düşünməli və darvinizm qarşısındakı aciz və passiv yanaşma tərzindən imtina etməlidirlər. Qəzetlərdə, jurnallarda, televizorda gördükləri təkamül təbliğatı aparan proqramlar, xəbərlər, yazılar, elm üçün aparılmış bir fəaliyyət olmaqdan olduqca kənar məna daşıyırlar. Darvinizmin lehindəki hər bir fəaliyyət, bu mövzu barədə məlumatsız zehinlərə tutulmuş zəhərli ox qədər təhlükəlidir. Bu zəhərli təbliğatın qarşısını almaq, təhlükənin böyüklüyünü görmək və bu təhlükəyə qarşı aparılacaq elmi mübarizəni gecikdirməmək mühüm əhəmiyyət daşıyır.

## Terror, darvinizm sayəsində yaşama imkanı tapar

Son illərdə terror, dünyanın ən güclü ölkələrini belə təhdid etməyə başlamışdır. Hər

hansı ölkənin terror hücumlarına məruz qalmayacağına zəmanət verilə bilməz. Görülən tədbirlər, çıxarılan yeni qanunlar, artırılan detektiv tədbirlər vasitəsilə bu təhdidin qarşısını almaq çox çətindir. Artıq hər kəs terrorun nə qədər böyük bəla olduğunu bilir, lakin əksər insan bu bəlanın ideoloji təməlinin darvinizm olduğundan xəbərsizdir. Darvinizmin insanların şüur altına aşıladığı; *"insan, mübarizə aparan heyvandır"* yalanının olduqca təsirli olduğu aydın məsələdir. Darvinizm insanlara bir "dünyabaxışı" və "üsul" tərifi verir. Bu azğın dünyabaxışının və üsulun təməl anlayışı isə, "özündən olmayanla mübarizə aparmaq"dır.

Dünyada müxtəlif inanclar, müxtəlif dünyagörüşləri və müxtəlif fəlsəfələr var. Bunlara sahib olanlar, ya bunlara sahib olmayanlara hörmət göstərə bilər, onlarla dialoq yaratmağa çalışa bilər, "humanist" üsul tətbiq edə bilər, ya da bunlara sahib olmayanlarla vuruşmaq, döyüşmək, onlara zərər verərək öz fəlsəfələrinə görə üstünlük qazanmaq yolunu seçə bilər, yəni "heyvani" davrana bilərlər.

Terrorun dünyada yayılma səbəbi, bu ikinci yolun seçilməsinin bir nəticəsidir. Dolayısilə terrorla mübarizədən söhbət getdikdə əsl edilməli şey, terrorun təməl dayaq nöqtəsini yox etmək, yəni darvinizmlə elmi mübarizə aparmaqdır. Darvinizm aparılacaq fikri mübarizə nəticəsində yox edildikdə, artıq dırnaqarası elmi dayaqları qalmayacağı üçün terrorist təşkilatlar və dolayısilə terrorizm bəlası da sona çatacaq.

Lakin darvinizm ayaqda tutulmağa davam edildiyi, insanlara darvinist yalanlar təlqin edilib öyrədildiyi müddətcə, terrorun sona çatması qeyri-mümkündür. Bir tərəfdən məktəblərdə darvinizmi öyrədib, digər tərəfdən də gənclərin terrorist təşkilatlara qoşulmalarına təəccüblənmək bir təzaddır. Çünki bir insanın terrorist olması üçün, o, əvvəlcə qarşısındakının insan olmadığına, qarşıdurmanın təbiətin qanunu olduğuna, öldürmənin və qətlə yetirməyin normal olduğuna, heç kim qarşısında məsuliyyət daşımadığına inanmalı, yəni darvinist olmalıdır. İllərlə şüursuz atomların bir araya gələrək canlıları meydana gətirdiyi, özünün də bir maddə yığını, hətta bir növ heyvan olduğu, qarşıdurma olmadan inkişafın mümkün olmayacağı yalanlarıyla böyüyən bir insana, "sevgidən, tolerantlıqdan, mərhəmətdən, sülhsevər" olmaqdan danışmaq mənasızdır. Həmçinin, bu insanın "necə olub da qəddarcasına günahsız insanları qətlə yetirə bildiyini" soruşmaq da nəticə verməz. Bu insandan, başqalarına hörmət göstərməsini, qanunlara tabe olmasını, dövlətinə itaət etməsini gözləmək mənasızdır.

Bunu təkrarlamaq lazımdır ki, dünyadakı qırğınların, vəhşicəsinə işlənən cinayətlərin, insanlara tətbiq olunan zülmün, terrorun, seprataçılığın, din və dövlət düşmənçiliyinin arxasında darvinizm və materializm təhsili almış insanlar var. Elə buna görə də, başda Qərb dünyasında olmaqla, darvinist təhsilə son verilməsi zəruridir. Dünya dövlətlərinin bir çoxu təhsil sistemlərində materializm və darvinizmə mühüm yer ayırır, gənclərə bunları öyrətmək üçün milyonlarla dollar pul xərcləyirlər. Daha sonra da ölkələrində meydana gələn terror hadisələriylə mübarizə aparmaq üçün yenə milyonlarla dollar xərcləyirlər. Məktəblərində,

təhsil qurumlarında, universitetlərində darvinist-materialist təhsil verilən, televiziya kanallarında, qəzetlərində darvinist zehniyyət təlqin edilən bir ölkədə; *"anarxiya və xaosun qarşısını niyə ala bilmirik?"* sualının verilməsi səmimi yanaşma tərzi deyildir. Əvvəlcə darvinist-materialist təhsil verib, sonra da bu zehniyyətin məhsulu olan hərəkətlərindən ötrü insanları sorğu-sual edən dünya dövlətləri böyük təzad içindədirlər.

Halbuki terrorun qarşısını almaq məsələsində səmimidirlərsə, əvvəlcə anarxiyanın və terrorun təməlini meydana gətirən, insanlara "qarşıdurma"nı və güclülərin qalib gəldiyi "həyat mübarizəsi"ni haqlı göstərən materialist-darvinist təhsil verməkdən imtina etməlidirlər. Milyonlarla dolları, materializmin və darvinizmin qeyri-elmi, xurafatlarla dolu və qeyri-real fikirlər olduğunu öyrətmək üçün, xərclədikləri təqdirdə problem onsuz da kökündən həll olacaq.

Bura qədər qeyd etdiyimiz məlumatlar, darvinizmin nə qədər böyük bəla olduğunu açıqca göz qabağına gətirir. Bu həqiqətlərə baxmayaraq, darvinizmin bir təhlükə meydana gətirmədiyini və ya yox olduğunu düşünənlər, bu yanlış fikirlərini ətraflarında yayanlar, həmin bu nəzəriyyənin inkişafına bilərək və ya bilməyərək kömək edərlər. Çünki bu yolla bir məlumat verdikləri vaxt, cəmiyyətdə belə bir təhlükə olmadığı fikri meydana gələr. Buna bağlı olaraq da, darvinist təbliğata, saxtakarlıq və təlqinlərə qarşı fikri və elmi həssaslıq yaranmaz, tədbir görülməz. Buna baxmayaraq, təkamül nəzəriyyəsini müdafiə edən insanlar, köhnəlmiş məlumatlarla da olsa öz ağıllarınca hazırlıq görməyə davam edər, hər fürsətdə nəzəriyyələrini qızğın şəkildə müdafiə edərlər. Müxtəlif saxtakarlıqlar və təhriflərlə də olsa fikirlərini ayaqda tutmağa çalışarlar.

Bütün müsəlmanlar üçün din əxlaqına qarşı çıxan, Allahın varlığını inkar edən hər fikri elmi mübarizə yoluyla çürütmək, haqqdan istifadə edərək batili yox etmək mühüm məsuliyyətdir. Bu məsuliyyəti görməzlikdən gələrək inkar düşüncəsiylə ortaq bir nöqtədə "razılaşmaq", qarşı tərəfə güzəştə getmək və ya onların fikirlərinə təslim olmaq çox böyük səhvlik olar. Məhz bundan ötrü də, təkamül yalanına aldanan bəzi müsəlmanlar, müdafiə etdikləri fikri yenidən düşünməlidirlər. Məsələn, kommunizmin yayıldığı bir cəmiyyətdə müsəlmanın vəzifəsi "kommunizmi İslamlaşdırmağa çalışmaq" deyildir. Bu, heç bir müsbət nəticə verməyəcək, əksinə kommunizmə fayda gətirəcək çıxılmaz bir yoldur. Müsəlmanın vəzifəsi, kommunizm fəlsəfəsini bütöv şəkildə çürütmək, fikirlə yox etmək və bunun müqabilində İslamın həqiqətini göstərməkdir. Eyni şəkildə darvinizmə qarşı da müsəlmanın vəzifəsi; "darvinizmi İslamlaşdırmağa çalışmaq" deyil, bu böyük yalanı fikirlə çürütmək, yox etmək və bunun müqabilində yaradılış həqiqətini ortaya qoymaqdır. Bundan ötrü də, bütün müsəlmanlar bu şüurla hərəkət etməli, dünya üzərindəki bütün ateist fəlsəfələrə dayaq təşkil edən darvinizmə arxa çıxmamalıdırlar. Belə olduqda edilməli şey, təhsil müəssisələrində, kitablarda, mətbuat və nəşriyyat orqanlarında, ictimai məkanlarda, bir sözlə, hər yerdə, təkamül xurafatlarıyla dünya gəncliyinin beyinlərinin zəhərlənməsinə icazə verməmək və onları Quranın və elmin uyğun gördüyü ağla, dərin düşünməyə yönəltməkdir.

150 ildir ki, davam etməsinə baxmayaraq, heç bir elmi dəyəri olmayan bu saxta təlqini məğlub etməksə, asandır.

Bu günə qədər bir çox səmimi müsəlman, təkamül nəzəriyyəsini qəbul etmiş, bu batil nəzəriyyə ilə İslam dini arasında kompromis yolları axtarmış, hətta müxtəlif mühitlərdə bu nəzəriyyəni müdafiə etmiş ola bilər. Lakin müsəlman səhvini gördüyü vaxt, dərhal bunu düzəltməlidir. Bu İslam əxlaqının tələbidir. Darvinizmin cəmiyyət üzərindəki korlayıcı təsirini bilmədən bu nəzəriyyəyə dəstək olmaqla, nəzəriyyənin əsrlərdir ki, yaratdığı zərərləri bildikdən sonra bu batil inanca dəstək olmaq eyni deyildir. Gözəl və fəzilətli rəftar, həqiqətləri öyrənən insanın dərhal hərəkətə keçməsi, vicdanının səsini dinləyib bu zərərli ideologiyaya qarşı aparılan fikri mübarizəyə dəstək olmasıdır. Müsəlmanların birlik olub, darvinizmə qarşı aparacaqları elmi mübarizə, şübhəsiz ki, çox qısa müddətdə nəticə verəcək və bu batil nəzəriyyə tarixin qaranlıq səhifələrində öz yerini alacaq. Arzumuz bu yanlış rəftarda israr edilməməsi, hər hansı səhvlikdən ötrü darvinizmə dəstək vermiş bəzi müsəlmanların həqiqətlər qarşısında gözlərini bağlamamasıdır.

## Darvinizmin mənfi təsiri davam edir

Kitabın əvvəlki hissələrində də tez-tez vurğuladığımız kimi, inanclı insanların bir hissəsi təkamül nəzəriyyəsinin keçmişdə qaldığını, müasir elm dünyasında artıq qəbul edilmədiyini, dolayısilə müsəlmanlar baxımından elə də mühüm bir təhlükənin olmadığını zənn edərlər. Bundan ötrü də, bu nəzəriyyənin saxtakarlıqlarını, qeyri-elmi iddialarını, dünyada yaratdığı böyük fəlakətləri göstərməyi öz ağıllarınca əhəmiyyətsiz hesab edərlər. Darvinizmin insanları din əxlaqından uzaqlaşdıran böyük bəla olduğu həqiqətinin deyilməsindən narahat olarlar. Darvinizmlə elmi mübarizə aparan insanları və göstərdikləri dünya səviyyəsindəki fəaliyyətləri də öz aləmlərində lüzumsuz görüb, əhəmiyyətsiz hesab edərlər.

Halbuki bu insanlar xeyli yanılırlar və açıq həqiqətləri görməzlikdən gəlirlər. Onların düşündüklərinin əksinə, hazırkı dövrdə təkamül nəzəriyyəsi elm qarşısında bütün dayaqlarını itirməsinə baxmayaraq, yalnız ideoloji xüsusiyyətindən ötrü geniş kütlə tərəfindən müdafiə olunur. Bir çox ölkədə, universitetlərdə, mediada və təhsil müəssisələrində darvinistlər olduqca təsirli rol oynayır. Üstəlik, bu fasiləsiz güclənir. Elmi həqiqətlər bu nəzəriyyəni tarixin qaranlıq səhifələrinə gömmüş olsa da, darvinizmə olan bağlılıq zəifləmir. Materialist və ateist dünyagörüşünün dırnaqarası elmi dayağını təşkil edən təkamül nəzəriyyəsi, hər nə bahasına olsa da, müəyyən ətraflar tərəfindən fasiləsiz şəkildə dəstəklənir. Darvinizmin materialist qayğılarla dəstəklənildiyini, təkamül nəzəriyyəsini tənqid edən elm adamlarından biri olan Amerikalı professor Filip Conson (Philip Johnson), marksist zooloq Riçard Leontinin (Richard Lewontin) iddialarını qiymətləndirdiyi bir yazısında belə açıqlayır:

*Darvinizm, fəlsəfi olaraq bitərəf olması lazım gələn (elmi) dəlillərə deyil, materializmə olan "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) sədaqətə əsaslanır. Fəlsəfəni elmdən ayırdığınız təqdirdə, qürur qülləsi yıxılar. Cəmiyyət bunu tam olaraq anladığı təqdirdə, Leontinin darvinizmi, elmi tədris planından çıxarılmağa başlanacaq və o, tarixin tozlu rəflərində Leontinin marksist görüşlərinin yanında öz yerini alacaq.*(38)

Təkamülçülər elm aləmində sanki bir təzyiq sistemi yradıblar. İstər elmi nəşrlərdə, istərsə də mediada həmişə tək tərəfli açıqlamalar verilir və təkamül nəzəriyyəsi sanki mütləq həqiqət kimi göstərilir. Xüsusilə də geniş kütlə üzərində təsirli olan bir qisim media orqanları, olduqca əlaqəsiz tapıntı və mövzuları belə təkamülün yeni bir dəlili kimi əks etdirir. Bu xəbərlərlə həqiqətlər təhrif edilir və insanlar aldadılırlar. Dünyanın bir çox ölkəsində məktəblərdə və universitetlərdə darvinist alimlər dəstəklənilir, Allah inancına sahib elm adamlarının isə, akademik karyeralarına əngəl törədilməyə çalışılır. Darvinizmi rədd etdikləri üçün əksəriyyətinin kitabları və məqalələri elmi nəşrlərdə yer almır, eyni zamanda da, onlar belə olmadıqları "mürtəceliklə" günahlandırılırlar. Əksər Qərb ölkələrində akademik karyera sahibi olmaq istəyən bir elm adamı, darvinist cəfəngiyatlara göz yummalı, hətta bunları istər-istəməz müdafiə etməlidir. Əks təqdirdə akademik karyerasında yüksəlməsi, hətta çalışdığı universitetdə həmişəlik qalması belə çox çətindir.

Biokimya professoru Maykl Bixi (Micheal Behe) elm aləmində materializmin hakim olduğunu və elmin xalqa necə əks etdirildiyini belə ifadə edir:

*Kainatın necə işlədiyinə dair demək olar ki, bütün məlumatlar, ayırd edilmədən, əvvəlcə qatı materialist bir süzgəcdən keçirilir. Daha sonra xalqa təqdim edilir... Elmi ədəbiyyat tamamilə bu anlayışı əks etdirir. Tədqiqatlar əksərən, həm ümumi, həm də xüsusi mövzularda, təbiətin bilinən və əmin olunan işləyişindən bəhs edər. Dərsliklər bu qənaəti şagirdlərə çatdıraraq vəzifələrini yerinə yetirmiş olarlar. Boşluqlardan və ya cavabı tapılmayan suallardan qətiyyən bəhs edilməz. Bunun əvəzinə, hər şeyin bilindiyi, ən azından demək olar ki, hər şeyin bilindiyi və laboratoriyalarda sınandığı təəssüratı verilər. Əgər nəzəriyyəyə uyğun gəlməyən bir dəlil varsa, bu zaman da nəzəriyyədən deyil, dəlildən şübhə duyular... Problem, məntiqli iddialara əsaslanmayan, ictimai təzyiqlə yayılmağa çalışılan materializmdir.*(39)

Maykl Bixinin (Micheal Behe) də diqqət çəkdiyi darvinistlərin bu yanaşma tərzi, təkamülçü Frank Qaroldun (Frank Harold) *“the way of the cell”* (“hüceyrənin işləyişi”) kitabında açıqca ifadə edilir:

*Bir prinsip məsələsi olaraq, təsadüflər və lazımlılığın əvəzinə, ağıllı bir nizamın qəbul edilməsinə qarşı çıxmalıyıq. Lakin digər tərəfdən, darvinist açıqlamaların hər hansı biokimyəvi sistemi qəti izah edə bilməyəcəyini, bunların yalnız belə olmasını istəyən fərziyyələrdən ibarət olduğunu qəbul etməliyik.*(40)

Göründüyü kimi Qarold (Harold), təkamül nəzəriyyəsinin canlıların yaranma prosesinə

izah gətirməsinin qeyri-mümkün olduğunu qəbul edir, lakin kainatdakı və canlılardakı nizamı yaradan üstün bir ağlın, yəni Allahın varlığını rədd edir. Bunun "prinsiplərinə" zidd olduğunu söyləyir. Frank Qaroldun (Frank Harold) bəhs etdiyi prinsiplər, materialist prinsiplərdir və elm aləmində olduqca məşhurdur.

Filip Conson isə, təkamül nəzəriyyəsinin dini inanclara qarşı necə bir növ silah kimi istifadə edildiyini belə açıqlayır:

*Müasir elmin liderləri, özlərini bir Yaradıcının mövcud olduğunu qəbul edənlərə qarşı başladılan bir döyüşün qabaqcılları hesab edirlər... Darvinizm isə, bu döyüşdə əvəzolunmaz ideoloji rol oynayır. Elə buna görə də, bugünkü gündə elmi ətraflar, darvinizmi sınamağı deyil, nə olursa olsun qorumağı özlərinə məqsəd hesab ediblər. Elmi tədqiqatların prinsipləri də, bu ideologiyanı təsdiqləyəcək şəkildə müəyyənləşdirilir.*[41]

Consonun da ifadə etdiyi kimi, təkamülçü elm adamları akademiyalarda, universitetlərdə bir növ "diktatorluq" yaradıblar. Bu insanlar bəzi universitetləri darvinist təhsil ocaqlarına döndərir və bu yerlərdə materialist fəlsəfəni elm zənn edən insanlar yetişdirirlər. İnanclı insanların isə, akademik karyera sahibi olmamalı olduqları düşünülür. Bunun ən nəzərəçarpan nümunələrindən birini Türkiyə təkamülçülərindən olan prof. dr. Əli Dəmirsoy təşkil edir və o; *"əgər bir elm adamı bu və ya digər halda Allaha inansa universitetdə olmamalıdır. Allaha inananı universitetdən xaric edərəm"* kimi ifadələr işlədərək, qərəzli təkamülçü dünyagörüşünü tam açıq şəkildə göstərir.

İnanclı elm adamlarının yaradılışın elmi dəlillərini ortaya qoymaları, elm aləminin əksəriyyəti, xüsusilə də materialist düşüncənin hakim olduğu təşkilatlar və akademiyalar tərəfindən əks reaksiya ilə qarşılansa da, ateizm və ya materializm təbliğatı aparılmasına əsla qarşı çıxılmır. Filip Conson (Philip Johnson) bu vəziyyəti belə ifadə edir:

*Akademiya (Amerikan Milli Elmlər Akademiyası), Riçard Doukinzin (Richard Dawkins) elmi nüfuzundan istifadə edərək ateizmi təşviq etdikdə və ya Karl Saqan (Carl Sagan) "kosmos" serialında "kainatın əzəli və əbədi olduğunu" söylədikdə, reaksiya verməmişdir. Tam əksinə, Akademiya Saqanı medalla mükafatlandırmışdır.*[42]

Bəlkə də, bəzi inanclı insanlar bu həqiqətləri bilmədikləri üçün, hadisələri yanlış optimallıqla qiymətləndirir və bundan ötrü də, darvinizmi təhlükəli hesab etmirlər. Halbuki bu materialist və ateist ətraflar darvinizmdən aldıqları dırnaqarası elmi dəstək sayəsində, din əxlaqına və dindarlara qarşı ciddi mübarizə aparırlar. Bütün dünya müsəlmanları materialist, ateist, inkarçı ətrafların zülmləriylə, təzyiq və qorxutma siyasətləriylə üzləşirlər. Müsəlmanlar bu darvinist diktatorluqdan ötrü, inanclarını yaşaya bilmir, düşüncələrini və doğruları dilə gətirə bilmirlər. Məhz bundan ötrü də, "darvinizm təhlükə kəsb etmir" deyən müsəlmanlar təcili surətdə bu yanlış fikirdən xilas olmalıdırlar. Bütün dünyada təkamül nəzəriyyəsi vasitəsilə din əxlaqına qarşı ciddi fikri hücum həyata keçirildiyi halda, bu nəzəriyyənin təhlükə olmadığını söyləmək və darvinizmi zərərsiz hesab etmək olduqca

yanlış hərəkət olacaq.

## Darvinizm insanları aldatmağa davam edir

Bunu unutmamaq lazımdır ki, darvinizm, dünya səviyyəsində mütəşəkkilləşmiş bir hərəkatdır. Xüsusilə də Avropa İttifaqı ölkələrinin olduqca böyük hissəsində, Rusiyada, Çində və digər bir çox ölkədə təkamül nəzəriyyəsi xalqın çox böyük hissəsi tərəfindən qəbul edilir, yaradılış həiqqəti isə rədd edilir. Dünyadakı bütün universitetlərdə təkamül nəzəriyyəsi yeganə etibarlı nəzəriyyə qəbul edilir, ibtidai təhsil təşkilatlarından etibarən məktəblərdə şagirdlərə təkamül nəzəriyyəsi yeganə həqiqət kimi öyrədilir. Yaradılış həqiqətindən bəhs etmək belə, bir çox ölkədə qadağan edilmişdir. Vəziyyət uzun illərdir ki, belədir. Xüsusilə də Avropa ölkələrində keçirilən anketlər, Fransa, Almaniya, İngiltərə başda olmaqla, bir çox ölkədə insanların böyük hissəsinin təkamül nəzəriyyəsini elmi həqiqət kimi qəbul etdiyini göstərmişdir. Təkamül yalanına inanan bu insanlar, Allaha iman etməkdən və din əxlaqından da uzaqlaşırlar.

*Dünya səviyyəsində tanınmış elm jurnallarından "Nature"də aparılan bir araşdırmaya görə müasir elm dünyası tarix boyu heç olmadığı qədər Allahın varlığını rədd edir. Amerika Milli Elmlər Akademiyasının üzvləri arasında aparılan araşdırma nəticəsində, akademiyanın yalnız 7% üzvünün Allahın varlığına inandığı, 93% üzvün isə, inanmadığı məlum olmuşdur. Bu nəticələr qarşısında, tanınmış təkamülçü bioloq Ernst Mayr bu açıqlamanı vermişdir: "Nəticəyə baxılsa hamımız ateistik".*[43]

Bu vəziyyət daha əvvəl də ifadə etdiyimiz kimi, bizə bəzi inanclı insanların söylədiklərinin tam əksini göstərir. Darvinizm hələ də geniş kütlələr üzərində öz təsirini göstərir və elm aləmində də hakim dünyabaxışıdır. Üstəlik, yalnız elmi bir nəzəriyyə deyil, insanları Allaha iman etməkdən uzaqlaşdıran ən əhəmiyyətli səbəblərdən biridir. *"Nature"* də dərc olunan bu araşdırma, 1914-ci ildə də aparılmış və nəticələrə görə o dövrdə Allaha inananlar 35,2% təşkil etmişdir. Aradan keçən 90 il ərzində elm adamlarının böyük hissəsi Allah inancından demək olar ki, tamamilə uzaqlaşmış, materialist və ateist ideologiyanı mənimsəmişdirlər. Diqqət yetirilməli ən əhəmiyyətli xüsus isə, bu dövrün təkamül nəzəriyyəsinin elm aləmində hakimiyyət qazandığı dövr olmasıdır.[44]

Dünya iqtisadiyyatında və siyasətində öz təsirini göstərən bəzi Asiya ölkələrində də inancsızlıq çox geniş yayılmışdır. Bu ölkələrin başında Çin gəlir. Çində xalqın 71%-i özünü dinsiz və ya ateist elan edir.[45] Xüsusilə də Avropa ölkələrində yaşanan din əxlaqından uzaqlaşma prosesi, son illərdə müxtəlif araşdırmalar, kitablar və məqalələrin mövzusuna çevrilir. Avropanın xristian köklərini rədd etməsi, sürətlə din əxlaqından uzaqlaşması, ateizmin güclənməsi, kilsəyə bağlılığın çox zəifləməsi, Amerikada güclənən darvinizm əleyhinə fəaliyyətlərin Avropada əks-səda oyandırmaması, Avropa ölkələrindəki məktəblərdə

qətiyyətlə təkamül nəzəriyyəsinin tədris olunmasına davam edilməsi və əks fikirlərə qətiyyən mövcudluq imkanı verilməməsi, bu fəaliyyətlərin təməlini təşkil edir. *"Associated Press"*in dərc etdiyi bir araşdırma nəticəsində isə, Qərbi Avropada inancsızlığın gücləndiyi qeyd olunmuşdur. Bu araşdırmanın göstərdiyi nəticələrə görə, Fransa dini dəyərlərin açıqca ifadə edilməsinə ən çox qarşı çıxan ölkədir və ölkədəki ateistlər orta hesabla 19% təşkil edir. Yenə eyni araşdırmanın nəticələrinə görə, bu qədər çox inancsız insanın olduğu digər bir ölkə isə, Cənubi Koreyadır.[46]

Bu mübahisələr Avropa İttifaqının konstitusiyasının yaradılması vaxtı daha da kəskinləşmişdir. Bu konstitusiyada dini inanclara dair heç bir ifadənin yer almaması, dindar ətrafların əks reaksiyasına səbəb olmuş, lakin belə reaksiyalar qəti şəkildə rədd edilmişdir. Vatikanda verilən rəsmi açıqlamalar isə, müasir Avropanın, xristian dəyərləri üzərində qurulmuş bir cəmiyyət görünüşü vermədiyi ifadə edilmiştir.[47] *CBN* də yayımlanan "Is Europe the new 'dark continent'?" (Avropa yeni 'qaranlıq qitədir' mi?) başlıqlı məqalədə 1000 il ərzində xristian mədəniyyətinin mərkəzi olan Avropada artıq bu dövrün bitdiyi ifadə edilmiş və müxtəlif mütəxəssislərin fikirlərinə yer verilmişdir.[48] *The cube and the cathedral: Europe, America, and politics without God*, (Kub və kafedral: Allahsız Avropa, Amerika və siyasət) adlı kitabın müəllifi və Vaşinqtondakı Ethics and Public Policy Center (EPPC - etika və cəmiyyət siyasət mərkəzi) rəhbərlərindən Corc Vayqel (George Weigel), Avropada inancsızlığın yüksəlişini bir müsahibəsində belə açıqlamışdır:

*Avropalılar özlərini müasir və sərbəst olmaq üçün, radikal dünyəvi olmaları mövzusunda şərtləndirmişlər. Bu şərtlənmənin, Avropada gündəlik həyat və mədəniyyət üzərində mühüm və ölümcül təsiri var. Avropanın əxlaqi dəyərlərinin korlanmasının təməlində, bu qənaətin və cəmiyyətdə yaratdığı problemlərin təsiri müşahidə olunur.*[49]

BMT tərəfindən keçirilən bir anket nəticəsi də, Avropa ölkələrində darvinizm və ateizmin yüksəlişini göstərən dəlillərdən biridir. Anketə görə avropalıların yalnız 18%-i insanı Allahın yaratdığına inanır, 82%-i isə insanın digər növlərdən təkamül yolu ilə meydana gəldiyini zənn edir. Ölkələrə ayrı-ayrılıqda nəzər yetirdikdə vəziyyətin belə olduğu görülür:

- Almaniya: 35%-i katolik, 36%-i isə protestant olan xalqın yalnız 14%-i yaradılışa inanır.

- Fransa: Yaradılış həqiqətinə inananlar təxminən 18% təşkil edir. Fransada ateistlər təxminən 19% təşkil edir.[50]

- İngiltərə: Xalqın 20%-i yaradılışa inanır. Təkamül nəzəriyyəsinə inananlar isə 26 yanvar 2006-ci ildə aparılmış bir araşdırma nəticəsinə görə təxminən 50% təşkil etmişdir. Məktəblərdə yalnız təkamül nəzəriyyəsinin tədris olunmalı olduğunu söyləyənlər isə, 70% təşkil edir.[51] Aparılan araşdırmalar İngiltərənin sürətlə inancsız bir ölkə olmaq yolunda irəlilədiyini, yalnız immiqrantların dini inanclarını yaşadıqlarını, ingilislərin isə dindən uzaqlaşdığını göstərir. Mətbuatda yer alan bir xəbərə görə isə, İngiltərədə məktəblərdə

ateizmin öyrədilməsi planlaşdırılır.[52]

– İspaniya: Əhalinin böyük hissəsini katoliklərin meydana gətirdiyi İspaniyada, insanları Allahın yaratdığı həqiqətinə inananlar 13% təşkil edir.

– Norveç: Yaradılışa inananlar cəmiyyətin 19%-ni təşkil edir.

– Finlandiya: Yaradılışa inananlar 16% təşkil edir.

– İsveç: Allahın insanları yaratdığına inananlar 12% təşkil edir.

– Danimarka: Xalqın 9%-i yaradılışa inanır.

– Belçika: Yaradılış həqiqətinə inananlar 10% təşkil edir.

– İsveçrə: Xalqın 24%-i yaradılış həqiqətinə inanır.[53]

Aşağıdakı cədvəldə isə, Avropa ölkələrində ateistlərin və inancsızların faiz nisbəti göstərilmişdir:

**Ölkələr üzrə ateistlər və inancsızların faiz nisbəti**

| Ölkələr | Ateistlər | İnancsızlar |
|---|---|---|
| İsveç | 46 | 85 |
| Danimarka | 43 | 80 |
| Norveç | 31 | 72 |
| Çexiya | 54 | 61 |
| Finlandiya | 28 | 60 |
| Fransa | 43 | 54 |
| Almaniya | 41 | 49 |
| Macaristan | 32 | 46 |
| Hollandiya | 38 | 44 |
| İngiltərə | 31 | 44 |
| Belçika | 42 | 43 |
| İsveçrə | 17 | 27 |
| Avstriya | 18 | 26 |
| İspaniya | 15 | 24 |

| | | |
|---|---|---|
| Yunanistan | 16 | |
| İtaliya | 6 | 15 |

**Mənbə:** http://www.pitzer.edu/academics/faculty/zuckerman/atheism.html

Bu məlumatlar, bütün elmi tapıntıların təkamülü təkzib etdiyini, darvinizmin xəyal məhsulu hekayələrdən ibarət olduğunu, elmin göstərdiyi həqiqətin yaradılış olduğundan bəhs etməyin əhəmiyyətini yenidən sübut edir. İnsanların Allahın, axirətin və haqq-hesab gününün varlığına inanmalarına, Allah rizasına uyğun şəkildə yaşamsına mane olan darvinist dünyagörüşünün aradan qaldırılması üçün, bütün müsəlmanların birlik olub, olduqca geniş miqyaslı fikri mübarizə aparmaları təcili yerinə yetirilməli məsələdir. Bu fəaliyyətlərə mane olmağın, əhəmiyyətsiz hesab etməyin və ya əhəmiyyətsiz göstərməyin isə, çox yanlış hərəkət olduğu aydındır...

# Darvinizmlə necə mübarizə aparılar?

Darvinizmə qarşı aparılacaq elmi mübarizənin olduqca geniş miqyaslı olması və dünya səviyyəsində aparılması vacibdir. Çünki darvinizm, bütün cəmiyyətləri hədəf alır və bəşəriyyəti böyük fəlakətlərə sürükləyir. Qəzet və jurnal yazıları, sənədli filmlər, televiziya proqramları vasitəsilə güclü şəkildə davam etdirilən darvinizm təbliğatına qarşı, bu azğın ideologiyanın heç bir elmi dəyəri olmadığı və hansı təhlükələr ehtiva etdiyi hamıya çatdırılmalıdır. Təkamül nəzəriyyəsinin elmi cəhətdən çökdüyünü, darvinist təbliğatın cəfəng təlqinlərdən ibarət olduğunu görənlərin sayı artdıqca, darvinizm bəlasının təsiri də azalacaq. İnsanları inancsızlığa və dinsizliyə sürükləyən darvinizmin fikri yolla yox olması nəticəsində, din əxlaqı sürətlə yayılacaq, yer üzünə sülh, təhlükəsizlik və əmin-amanlıq hakim olacaq.

Böyük İslam alimi Bədiüzzaman Səid Nursi də əsərlərində darvinist və materialist fəlsəfələrə qarşı aparılacaq elmi mübarizə üzərində dayanmışdır. Xüsusilə Axırzamanda bu fikri mübarizənin olduqca böyük əhəmiyyət qazanacağına diqqət çəkmişdir. Axırzamanın ən böyük fitnəsi olan Dəccalın, darvinist və materialist cərəyanların lideri mövqeyində olacağını ifadə edən Bədiüzzaman, bu mövzuda müsəlmanları belə xəbərdar etmişdir:

**Tabiiyyun (təbiətçilik, darvinizm) və maddiyyun (maddəçilik, materializm) fəlsəfəsindən təvəllüd edən (qaynaqlanan)** bir cərəyanı nəmrudanə (inkarçı cərəyan), Axırzamanda getdikcə fəlsəfə-i maddiyə (materializm fəlsəfəsi) vasitəsilə intişar edərək (güclənərək) qüvvətlənib, ülühiyyəti (Allahın varlığını) inkar edəcək həddə çatar... **və onların başına keçən ən böyükləri, spritizm və maqnetizmin hədisatı nəv'indən (hipnotizə edici və ovsunlayıcı) heyrətamiz xariqələrə (fövqəladə xüsusiyyətlərə) məzhər (sahib) olan dəccal isə;** daha irəli gedərək cəbbaranə suri (zorakılıq edən) hökumətini bir nəvi rububiyət (üstünlük) təsəvvür edib (zənn edib)...[54]

Bədiüzzamanın da ifadə etdiyi kimi, darvinizm dəccalliyyətin ən əhəmiyyətli vasitəsidir. Dəccalliyyətin dini mövqeyindədir. İnsanları inkara, dinsizliyə, əxlaqsızlığa sürükləyən dəccaliyyət, bunu edərkən dinsizliyin dırnaqarası elmi pərdəsi olan darvinizmdən istifadə edir. Belə olan halda, bəzi müsəlmanların, darvinizmə qarşı fikri mübarizə aparmağın lüzumsuz olduğunu söyləmələri, dəccaliyyətlə mübarizə aparmağın lüzumsuz olduğu mənasını verər ki, bunu da heç bir müsəlman özünə yaraşdırmamalıdır. *"Darvinizmlə mübarizə aparmağa nə gərək var?"* demək, *"Dəccal istədiyi kimi fitnəsini yaysın, bizə dəxli yoxdur"* mənasını verər. *"Darvinizm elə də mühüm mövzu deyil"* demək, dəccaliyyəti görməzlikdən gəlmək, gizlətmək deməkdir. Səmimi bir müsəlman dəccaliyyəti öz əliylə gizlətməz. Tam əksinə bütün oyunlarının və hiylələrinin üstünü açaraq, dəccaliyyəti fikirlə yox etməyi hədəfləyər.

Müsəlmanların dəccaliyyət və dəccalliyyətin silahı mövqeyindəki darvinizmlə

aparacaqları mübarizə isə, mütləq elmi olmalıdır. Darvinizm, silahla, zorakılıqla, təcavüzkarlıqla yox olmaz. Elmi dəlillərlə açıqlanaraq təsirsiz hala gətirilər. Peyğəmbərimiz (s.ə.v) bir hədisində, dəccalliyyətin Axırzamanda "duzun suda əriməsi" kimi əriyərək yox olacağını bildirmişdir. Dəccaliyyəti "duz"a, dəccaliyyəti fikirlə məhv edəcək sistemi isə, "su"ya bənzətmişdir:

Elə o anda Allahın düşməni olan **Dəccal Məsih**, hz. İsanı gördükdə **duzun suda əriməsi kimi əriyib yox olacaq...**(55)

Axırzamanda dəccaliyyəti əridib yox edəcək su, elmdir. Duzu atəş açmaqla, bombalamaqla əritmək olmaz. Yalnız suda əriyər. Darvinizm də, yuxarı siniflərdə, universitetlərdə, təhsil təşkilatlarında təkamül nəzəriyyəsinin bütün iddialarının əsassızlığı izah edildikdə, duzun suda əriməsi kimi əriyib yox olar. Darvinizmin məğlub olması nəticəsində, kommunizm, faşizm, irqçilik, terrorizm, anarxizm kimi bütün təcavüzkar və radikal cərəyanlar da öz tərəfdarlarını itirər. Yer üzündə qarışıqlığa və fitnə-fəsada səbəb olan dəccaliyyət fikrən yox olar.

Dəccalliyyətin fitnəsini yox etmək istəyən hər müsəlman, darvinizmə qarşı elmi mübarizə aparmalıdır. Bunun üçün həmişə təkamül nəzəriyyəsini çürüdən dəlillərdən bəhs edilməli və bu dəlillər çoxaldılıb paylanılmalıdır. Təkcə bir zülalın belə təsadüfən meydana gəlməsinin qeyri-mümkün olduğunu, canlıların cansız maddədən öz-özünə meydana gələ bilməyəcəyini, hüceyrənin və orqanoidlərinin mürəkkəb quruluşuna təsadüflərlə izah gətirməyin qeyri-mümkün olduğunu, canlıların bir-birindən törədiyini göstərən tək bir fosilin belə olmadığını, mutasiyaların və təbii seleksiyanın yeni bir canlı növü meydana gətirə bilməyəcəyini öyrənən birinin darvinizmin yalanlarına inanması qeyri-mümkündür.

Dünya səviyyəsində aparılacaq belə geniş miqyaslı elmi mübarizə, Allahın icazəsiylə, qısa müddətdə öz təsirini göstərəcək. Müsəlmanların, Allah rizası üçün bütün imkanlarını səfərbər edərək dinsizliyə qarşı aparcaqları fikri mübarizə, bütün insanlar üçün ən gözəl şəkildə nəticələnəcək. Birlik və həmrəylik içində, səmimiyyətlə aparılacaq işlər, Rəbbimizin Qurani Kərimdə vəd etdiyi kimi; "haqqın üstün gəlib, batilin yox olmasına" səbəb olacaq. Uca Allahın bu vədi bütün iman edənlər üçün böyük şövq və həyəcan mənbəyidir:

**Xeyr, Biz haqqı batilin üstünə atarıq, o da onun beynini darmadağın edər. Bir anda batilin yox olub getdiyini görərsiniz. Allaha aid etdiyiniz sifətlərə görə vay halınıza! (Ənbiya surəsi, 18)**

## Darvinizmlə elmi mübarizə aparılması bütün müsəlmanların məsuliyyətidir

Dövrümüzdəki texnoloji imkanlar, müsəlmanlar üçün çox böyük nemətdir. Bu nemətlərdən lazımınca istifadə edildikdə, darvinizmə və materializmə qarşı aparılacaq fikri mübarizə olduqca asan və sürətli olacaq. Əhəmiyyətli olan heç kimin; *"mən nə edə bilərəm ki?", "mənim səyim nəyi dəyişdirər ki?"* kimi yanlış düşüncələrə qapılmamasıdır. Hər kəsin nə qədər imkanı olursa olsun, bu imkanından nə qədər istifadə etdiyi, nə qədər səmimi şəkildə istifadə etdiyi əhəmiyyətlidir. Nəticəni uca Allah təqdir edəcək. Allah, səmimi şəkildə səy göstərənlərin işlərini ən gözəl şəkildə nəticələndirər. Hər kəsin göstərdiyi səyin qarşılığını tam alacağı Quranda belə bildirilmişdir:

**Şübhəsiz ki, insana öz əməyindən başqası yoxdur. Şübhəsiz ki, öz əməyinə (və ya səyinə) qarşılıq veriləcək. Belə ki, əməyinin (və ya səyinin) əvəzi tam ödəniləcək!" Son dönüşsə sənin Rəbbinə olacaq. (Nəcm surəsi, 39-42)**

Bütün insanlar arasında Quran əxlaqının yayılması üçün səy göstərmək, iman və vicdan sahibi bütün insanların məsuliyyətidir. Allah, Quranın; **"qoy sizin içərinizdən xeyrə çağıran, yaxşı işlər görməyi buyuran və pis əməlləri qadağan edən bir camaat çıxsın. Məhz onlar nicata qovuşanlardır"** (Ali İmran surəsi, 104) ayəsiylə də, bu məsuliyyətlərini iman edənlərə bildirmişdir. Quran əxlaqının təbliğ edilməsinin mühüm bir mərhələsi də, insanları Quran əxlaqından uzaqlaşdıran ideologiyaların yox edilməsidir. Din əxlaqının yaşanmasına və yayılmasına mane olan ideologiyalar fikirlə təsirsiz hala gətirildikdə, insanların doğrunu görmələri daha asan olacaq. Digər bir ayədə isə, Allah bütün iman edənlərə; **"...artıq yaxşı işlər görməkdə bir-birinizlə yarışın. Hamınızın qayıdışı Allaha olacaq..."** (Maidə surəsi, 48) deyə buyurmuşdur. Yaşadığımız dövrdə materializm və ateizmin elmi cəhətdən məğlub edilməsi, ən yaxşı işlərdən biridir. Allahın icazəsiylə bu iş, dinsizliyi yox edəcək, din əxlaqının yer üzünə hakim olmasına vəsilə olacaq. Bundan ötrü də, hər müsəlman əlindəki imkanlar çərçivəsində darvinizmi fikri mübarizəylə yox etməyə, Quran əxlaqının təbliğ edilməsinə dəstək olmağa çalışmalıdır.

Bu mövzudakı yanlış düşüncələrdən biri də, *"imkanları olanlar onsuz da əllərindən gələni edirlər, mənim başqa bir şey etməyimə ehtiyac yoxdur"* məntiqidir. Halbuki, hər insan, Allahın Quranda bildirdiyi hökmləri tətbiq etmək, əxlaqı yaşamaq, məsuliyyətləri yerinə yetirmək mövzusunda yalnız özü məsuliyyət daşıyır. Necə ki, bir insan digər bir insanın etdiyi səhvlərdən, işlədiyi günahlardan lazımi xəbərdarlığı və xatırlatmanı etdikdən sonra məsul olmazsa, başqasının etdiyi gözəl davranışlardan da əgər bunlara hər hansı dəstək verməyibsə bir pay ala bilməz. Axirət günündə hər kəs Rəbbimizin hüzuruna tək-tənha çıxacaq və etdikləri və etmədiklərindən ötrü tək-tənha şəkildə hesab verəcək. Bu həqiqət Quranda belə bildirilmişdir:

**Hüzurumuza ilk dəfə sizi xəlq etdiyimiz kimi tək-tənha, həm də sizə verdiyimiz nemətləri arxanızda qoyub gəldiniz... (Ənam surəsi, 94)**

Hər müsəlman, digər mövzularda olduğu kimi, inkara qarşı apardığı fikri mübarizəsi, bu mövzuda nə qədər səy göstərməsi, din əxlaqının yayılması üçün necə səy göstərməsi kimi məsələlərdə də tək-tənha hesab verəcək. Belə olan halda, edilməli olan, nəfsin irəli sürdüyü bəhanələrə aldanmadan, əlindən gələnin ən çoxunu etmək, dinsizliyin yox olması üçün gücünün çatdığı qədər səy göstərməkdir. Allah yolunda səmimi səy göstərənlərə, şübhəsiz ki, Allah yol göstərəcək, onları köməyi ilə dəstəkləyəcək. Rəbbimiz mömінləri belə müjdələyir:

**...Allah Ona (dininə) yardım edənlərə, mütləq yardım edər. Şübhəsiz ki, Allah Qüvvətlidir, Qüdrətlidir.. (Həcc surəsi, 40)**

## Elmi dəlillər açıq-aydın şəkildə təqdim edilməlidir

Darvinistlər nəzəriyyələrinin elmi olduğunu iddia edir və həmişə bunun təbliğatını aparırlar. Bu vəziyyət qarşısında müsəlmanların darvinizmə elmi cavab verməsi, elm adından ortaya atılan iddiaların yenə elmlə çürüdülməsi əhəmiyyətlidir.

Darvinizmə qarşı çıxan bütün elmi inkişafların yaxından təqib edilməsi, bu inkişafların göstərdiyi həqiqətlərin toplanılaraq, açıq və konkret dəlillər halında təqdim edilərək mübarizə aparılması zəruridir. Kifayət qədər məlumat və dəlil təqdim etmədən, *"madam ki, insanlar meymundan əmələ gəldi, bəs onda niyə hələ də meymunlar var, onlar niyə insana çevrilmir"* kimi illərdir ki, alışılmış bəzi nümunələr verilərək darvinizmin fikri yolla məğlub edilə biləcəyini güman etmək, hadisənin ölçülərinin kifayət qədər düşünülməməsindən qaynaqlanır. Həmişə çox müxtəlif mənbələrdən darvinizm təbliğatına məruz qalan bir insanın, sadə və bəsit nümunələrlə qəlibləşmiş düşüncələrini dəyişdirə bilməyəcəyi aydındır. Dolayısilə elmin təkamül nəzəriyyəsini dəstəklədiyini zənn edən insanlara, bilavasitə elmin göstərdiyi nəticələr təqdim edilərək, təkamülün qeyri-elmi olduğu göstərilməlidir.

Təbii seleksiyanın təkamül yaradıcı gücü olmadığı, illərdir ki, təkamülə dırnaqarası dəlil kimi göstərilən sənaye kəpənəkləri mövzusunun təkamülçü iddiaları dəstəkləmədiyi, Kembri dövrü tapıntılarının təkamüllə izah olunmasının qeyri-mümkün olduğu, mutasiyaların canlıların quruluşuna zərər verdiyi, onları meydana gətirib inkişaf etdirmədiyi elmi dəlilləriylə göstərilməlidir. Fosil qeydlərinin, canlıların mərhələli şəkildə bir-birlərindən meydana gəlmədiyini göstərdiyi, göstərilən fosil nümunələrinin saxtakarlıq məhsulu olduqları, fosil qeydlərində milyonlarla ildir ki, canlıların quruluşunda ən kiçik bir dəyişiklik

olmadığının görüldüyü, yaşayan fosillərin təkamül nəzəriyyəsi üçün düyün nöqtəsi olduğu, insanın xəyali nəsil ağacının yüzlərlə dəlillə çürüdüldüyü, zülalın, hüceyrənin, DNT-nin, RNT-nin təsadüflərlə meydana gəlməsinin qeyri-mümkün olduğu açıq və konkret şəkildə izah edilməlidir. Cansız maddə yığınının canlıları meydana gətirə bilməyəcəyi, şüursuz atomların birləşərək düşünən, sevgi bəsləyən, sevgidən xoşlanan, mərhəmət edən, gülən, mühakimə qabiliyyətinə sahib olan bir varlıq meydana gətirə bilməyəcəkləri, göz və qulaq kimi orqanlardakı mükəmməl nizamın mərhələli şəkildə meydana gələ bilməyəcəyi ağıllı nümunələrlə izah olunmalıdır. Variasiyanın təkamüli dəlil olmadığı, antibiotik müqavimətinin təkamülə dəlil qəbul edilə bilməyəcəyi, atrofiyaya uğramış orqanlar adlı bir şey olmadığı, canlılardakı bənzərliyin darvinizmi dəstəkləmədiyi, molekulyar homologiyanın əsassız iddia olduğu, təkamül nəzəriyyəsinin embrioloji dayağının olmadığı kimi mövzular sübutlarıyla təqdim edilməlidir.

İnsanların böyük hissəsi yuxarıda saydığımız həqiqətlərdən xəbərsiz olduğu üçün, darvinizmin təlqinlərinə aldanırlar. Bu həqiqətlər, izahedici nümunələrlə, elmi tapıntılarla, dəlil və sübutlarla izah edildikdə bir çox insan həqiqətləri görəcək. Bundan ötrü də, müsəlmanlar, ötəri cavablar və kor-koranə açıqlamalar vermək əvəzinə, elmi dəlillərlə darvinizmi çürütməlidirlər. Darvinizmi bundan başqa üsulla fikri yolla məğlub etmək qeyri-mümkündür. Dəlillərlə izah etdikdə isə, darvinizmi məğlub etmək çox asandır.

Dolayısilə, müsəlmanların bu mövzuda özlərini yetişdirmələri, məlumatlarını artırmaları da əhəmiyyətlidir. Bir ateistin, materialistin, darvinistin ortaya atdığı iddiaları ən hikmətli şəkildə çürüdə biləcək məlumat təcrübəsinə sahib bir insanın, darvinistlərlə elmi mübarizə aparmaqdan çəkinməsinə heç bir səbəb qalmaz. Passivlik və acizlik göstərməsinə, qəribə acizlik hissi yaşamasına, çəkinməsinə, narahat olmasına zəmin hazırlayan bütün ünsürlər ortadan qalxar. Saleh bir müsəlmana yaraşacaq şəkildə, darvinizmə qarşı açıq, qalibanə bir fikri mübarizə aparar. Belə olduqda, hz. Musanın əsasının sehrbazların bütün hiylələrini udub yox etməsi kimi, göstərilən dəlillər, darvinizmin bütün yalanlarını təsirsiz hala gətirər. Eləcə də, Allahın icazəsiylə, Rəbbimizin Quranda bildirdiyi kimi, haqq açıqca ortaya çıxar və inkarçılar böyük məğlubiyyətə uğrayarlar:

**Artıq haqq üzə çıxdı, onların etdikləri isə batil oldu. Orada məğlub oldular və rüsvay olaraq geri döndülər. (Əraf surəsi, 118-119)**

## Şeytan müsəlmanları, darvinizmə qarşı aparılan mübarizədən ayırmaq istəyər

Dünya həyatında yaradılan imtahanın tələbi olaraq, şeytan həmişə insanları Allah yolundan azdırmağa çalışar, möminləri gücsüzləşdirib cansızlaşdırmaq, həyəcanlarını və

şövqlərini yox etmək, beləliklə də, mübarizə əzmlərini azaltmaq üçün var gücüylə səy göstərər. Şeytanın dünyadakı hədəfi, boş xülyalar və vəsvəsələr pıçıldayaraq insanları gizlicə aldatmaq və beləliklə də, məhvə sürükləməkdir. Quranda şeytanın bu istiqamətdə göstərdiyi fəaliyyət; **"mən onları mütləq doğru yoldan azdıracaq və xülyalara salacağam..."** (Nisa surəsi, 119) ayəsiylə xəbər verilmişdir. Şeytan bütün insanlara olduğu kimi, iman edənlərə də müxtəlif yollarla yaxınlaşmağa, yaxşı və gözəl şeyləri onlara pis şeylər kimi göstərməyə çalışar. Bəzi hadisələri həllsiz kimi göstərərək yarı yoldan qaytarmaq, yaxşı işləri yarımçıq saxlatdırmaq istəyər. Hadisələri çətin göstərərək, insanları qorxutmağa, ümidsizliyə salmağa çalışar. Tənbəlliyə sövq edərək asta hərəkət etmələrini, iradəsizlik göstərmələrini istəyər.

Şeytanın müsəlmanları gücdən salmağa çalışdığı mövzulardan biri də, darvinizmə qarşı aparılan fikri mübarizədir. Darvinizmi elmi göstərərək, fikirlə məğlub olması sanki qeyri-mümkünmüş kimi təlqinlər verərək, müsəlmanları yersiz qorxulara salaraq, onları darvinizmlə elmi mübarizə aparmaqdan ayırmaq istəyər.

Lakin Quranda şeytanın bütün səylərinin və hiyləsinin əslində olduqca zəif olduğuna diqqət çəkilmişdir:

**Şeytan onlara vədlər verir və onları xülyalara salır. Lakin şeytanın onlara verdiyi vədlər aldatmaqdan başqa bir şey deyildir (Nisa surəsi, 120)**

**...Şübhəsiz ki, şeytanın hiyləsi zəifdir. (Nisa surəsi, 76)**

İman sahibləri də bu həqiqəti dərk etməli, şeytanın təlqinlərinin özlərinə təsir etməsinə icazə verməməlidirlər. Ağlından və vicdanından tam şəkildə istifadə edən biri üçün, darvinizmlə elmi mübarizə aparmaqdan qaçmaq qeyri-mümkündür. Tam əksinə, saleh bir mömin ən təsirli, ən əsaslı, ən ağıllı və ən hikmətli üsullarla, böyük şövq və əzmlə bu mübarizəni həyata keçirər.

Möminlər, darvinizmin yalanlarına qarşı, Allahın varlığından və vahidliyindən danışır, Onun üstün yaradıcılığının dəlillərini göstərir və çox şərəfli bir xidmət icra edirlər. Bundan ötrü də, darvinizmlə aparılan fikri mübarizədə müsəlmanlar yaxşı işlərdə yarışmağın şövqüylə hərəkət etməli, mütləq qalib gələcəklərini düşünərək əzmkar və güclü olmalı, Rəbbimizin vədini əsla unutmamalıdırlar:

**Acizlik göstərməyin və kədərlənməyin. Əgər həqiqətən iman gətirmisinizsə üstün olacaqsınız. (Ali İmran surəsi, 139)**

## Darvinizmlə fikri mübarizə aparmaq birlik olmağı tələb edir

Belə geniş miqyaslı bir elmi mübarizənin təsirli olması üçün, müsəlmanların birlik və həmrəylik ruhu içində hərəkət etmələri böyük əhəmiyyət daşıyır. Allah Quranda müsəlmanların inkar əxlaqına qarşı aparacaqları fikri mübarizədə birlik olmalarının lazım olduğunu bildirmişdir. Bir ayədə müsəlmanların birlik içində hərəkət etməmədikləri təqdirdə yer üzündə fitnə-fəsad çıxacağı belə bildirilmişdir:

**Kafirlər də bir-birinə dostdurlar. Əgər siz bunu etməsəniz (bir-birinizə yardımçı olub, bir-birinizin dostu olmasanız), yer üzündə fitnə və böyük fəsad baş verər. (Ənfal surəsi, 73)**

Dinsizlik dünyanın bir çox bölgəsində geniş yayıldığı, terror və anarxiya bütün insanları təhdid etdiyi, bir çox məzlum və günahsız insan, zülm və təzyiq altında əzildiyi halda, səmimi iman edənlərin etməli olduqları şey, bütün imkanlarından sonacan istifadə edib darvinizmlə fikri mübarizə aparmaqdır. Çünki, dinsizlik və ateizmin dayaq nöqtəsi darvinizmdir. Müsəlmanların aralarındakı düşüncə fərqlərini göstərərək birlik ola bilməmələri, aparılmalı olan bu böyük elmi mübarizədə güclərinin azalmasına səbəb olacaq. Mövcud şərait fikir ayrılıqlarından əl çəkib, din əxlaqının yayılması üçün birlik olmaq zərurəti yaradır.

Allah Quranda möminlərə; **"bir-birləriylə mübahisə etməmələrini"** (Ənfal surəsi, 46) əmr edir və bunun müsəlmanları zəiflədəcək bir faktor olduğunu bildirir. Digər bir ayədə isə, belə əmr edilir:

**Özlərinə aydın dəlillər gəldikdən sonra firqələrə ayrılıb ixtilaf edənlər kimi olmayın. Onları böyük bir əzab gözləyir. (Ali İmran surəsi, 105)**

Bəzi iman edənlərin dinsizliyə qarşı aparılan fikri mübarizədə birlik ola bilməmələrinin təməlində, Allahın əmr etdiyi əxlaqı lazımınca yaşamamaları dayanır. Bu əxlaq təvazökarlığı əsas alır. Təvazökarlıqdan uzaqlaşanlar, özlərini və öz fikirlərini mütləq doğru hesab edər, özlərindən fərqli düşünənləri aşağı hesab edər və onlara qəzəb bəsləyərlər. Öz fikirlərinin mütləq doğru olduğundan qətiyyən şübhə duymadıqları üçün, özlərini heç vaxt sorğu-sual etməz və dolayısilə daha yaxşıya, daha doğruya yönələ bilməzlər. Yalnız öz fikirlərinin eşidilməsini, yayılmasını, anladılmasını istəyərlər. Eyni məqsəd naminə səy göstərənlərə dəstək verməz, bu səyləri görməzlikdən gələrlər. Çox vaxt öz ağıllarınca digərlərinin işlərini və fəaliyyətlərini əhəmiyyətsiz hesab edər, hətta bu işlərə maneə törədəcək rəftarlar belə sərgiləyərlər. Yalnız öz söylədiklərini bəyənib bununla öyünənlərin vəziyyətinə Quranda;

**"...onlar, işlərini öz aralarında (müxtəlif) kitablar halında böldülər; hər firqə özündə olana sevinir"** (Muminun surəsi, 53) ayəsiylə diqqət çəkilmişdir.

Allahdan qorxub çəkinənlər və axirət günündə haqq-hesab verəcəyinə iman edənlər, bundan şiddətlə çəkinib qorunmalıdırlar. Bu mövzunun əhəmiyyətini dərk edənlər, digər möminləri də bu səhvə yol verməkdən çəkindirməli, müsəlmanların Quran əxlaqında və dinsizliyə qarşı aparılan fikri mübarizədə birləşmələrini təmin etmək üçün səy göstərməlidirlər.

Darvinizmə qarşı aparılan elmi mübarizədə hər müsəlman boynuna məsuliyyət götürməlidir. Bütün müsəlman qeyri-hökumət təşkilatları, təşkilatlar, fondlar və dərnəklər ortaq şüurla hərəkət etməli, *"bu bizim təşkilatımızın aparmalı olduğu fəaliyyət deyil"* və ya *"bu bizim vəqfimizin əsəri deyil"* deyə düşünmədən, darvinizmlə aparılan mübarizəyə kömək etməlidir. Üzvü olduğu vəqfin, dərnəyin, təşkilatın fəaliyyətləri xaricindəki bütün fəaliyyətləri görməzlikdən gəlmək, *"bizim firqəmizdən deyildir, bundan ötrü də, fikrinə əhəmiyyət verməri̇k"* məntiqinə sahib olmaq, müsəlmanlara qəti şəkildə yaraşmayan yanaşma tərzidir.

Bütün dünyada müsəlmanların yaşadığı çətin vəziyyət, yaşanan qarşıdurmalar, çəkilən əzablar, anarxiya və terrorun səbəb olduğu qorxu və narahatlıq mühiti din əxlaqının yayılmasına təcili ehtiyac duyulduğunu göstərir. Bu şərtlər altında müxtəlif bəhanələr ortaya ataraq darvinizmlə fikri mübarizə aparmaqdan qaçmaq, birlik və həmrəylik ruhuyla hərəkət etməmək həm dünyada, həm də axirətdə məsuliyyət gətirəcək hərəkət ola bilər. Səmimi müsəlmanların bu səhvə yol verməkdən çəkinməsi olduqca əhəmiyyətlidir.

## Bədiüzzaman, darvinizm və materializmlə elmi mübarizə aparmağın əhəmiyyətinə diqqət çəkmişdir

Həyatı boyu dinsizliyə qarşı elmi mübarizə aparmış böyük İslam alimi Bədiüzzaman Səid Nursi, əsərlərində dinsizliyin darvinizm və materializmdən dəstək aldığını söyləmişdir. Bundan ötrü də, bu ideologiyalarla aparılacaq elmi mübarizənin əhəmiyyətinə diqqət çəkmişdir.

Bədiüzzaman, bir sözündə inkarçıların ona və ətrafındakılara qarşı qurduqları tələlərdə materializmin göstərdiyi təsiri belə açıqlamışdır:

*Və salisən (üçüncüsü):* ***Maddiyyun (materializm) fəlsəfəsinin və mədəniyyətinin cazibədar (cəlbedici), səfahət və yuxu gətirici ləzzətli zəhərləriylə ifsad etməklə (pozmaqla) mabeynlərində təsanüdü (aralarındakı həmrəyliyi)*** *yox etmək və üstadlarını xəyanətlərlə çürütmək və peşələrini fənnin (elmin), fəlsəfənin bəzi düsturlarıyla nəzərlərindən sükut etdirməkdir (susdurmaqdır) ki...*[56]

Bədiüzzamanın da ifadə etdiyi kimi, inkarçılar apardıqları mübarizəni yox etmək

məqsədiylə, materialist mədəniyyətin nəticəsi olan müvəqqəti və dünyəvi ehtiraslarla iman edənləri aldatmağa çalışıblar. Həmçinin materialist mədəniyyətin təlqinləriylə iman edənlərin birlik və həmrəyliyini yox etməyə çalışmış və Bədiüzzamana müxtəlif böhtanlar atmışdırlar. Lakin bu planlarını uğurla həyata kçeirə bilməyiblər.

Bədiüzzaman verdiyi açıqlamalarda, xüsusilə də Axırzamanda darvinizm və materializmin güclənəcəyini, inkarçılığın bundan dəstək alaraq yayılacağını, lakin hz. İsa və hz. Mehdinin aparacaqları fikri mübarizələr nəticəsində bu fitnələrin yox olacağını ifadə etmişdir. Hz. Mehdinin birinci vəzifəsinin də darvinizm və materializmi fikrən yox etmək olduğunu söyləmişdir. Bədiüzzamanın da ifadə etdiyi kimi, hz. Mehdi bu vəzifəsini tam şəkildə yerinə yetirəcək, darvinizmi və materializmi fikrən yox edəcək, insanların imanlarının xilas olmasına vəsilə olacaq:

*Birincisi: Fənn (elm) və fəlsəfənin təsəllütüylə (təsiriylə), maddiyyun və tabiiyyun taunu (darvinizm və materializm xəstəliyi), bəşəriyyətə intiçar etməsiylə (insanlar arasında yayılmasıyla), hər şeydən əvvəl fəlsəfəni və maddiyyun fikrini (materializmi) tam susduracaq tərzdə imanı xilas etməkdir.*[57]

Bədiüzzaman, darvinizm və materializmin dəccalliyyətin dayaq nöqtəsi olduğunu, hz. İsanın bu fitnəyə qarşı böyük mübarizə aparacağını və onu yox edəcəyini isə, belə bildirir:

*Axırzamanda fəlsəfə-i tabiiyənin (darvinizm fəlsəfəsinin) yaratdığı cərəyan-ı küfriyə (inancsızlıq hərəkatı) və inkar-ı ülühiyyətə (Allahın inkar edilməsinə) qarşı, İsəvilik dini təsəffi edərək və xurafatdan təcərrüd edərək (xurafatlardan və batil inanclardan təmizlənib) İslamiyyətə inqilab edəcəyi (yönələcəyi) bir vaxtda, necə ki, İsəvilik şəxsi-mənəvisi, vəhy-i səmavi qılıncıyla o görünməmiş dinsizliyin şəxs-i mənəvisini yox edər; beləliklə də, həzrəti İsa əleyhissalam, İsəvilik şəxs-i mənəvisini təmsil edərək, dinsizliyin şəxs-i mənəvisini təmsil edən dəccalı yox edər...*[58]

*Şəxs-i İsa əleyhissəlamın qılıncıyla öldürülən olan şəxsi dəccalın, təşkil etdiyi dəhşətli maddiyyunluq (materializm) və dinsizliyin əzəmətli heykəli və şəxs-i mənəvisini öldürəcək və inkar-ı ülühiyyəti (Allahı inkar etmək) olan fikr-i küfrisini (inkarçılıq hərəkatını) məhv edəcək...*[59]

Göründüyü kimi, Bədiüzzaman Səid Nursi, inkarçılığın və din əxlaqından uzaqlaşmağın təməlində darvinizm və materializm olduğunu söyləyir. Hz. Mehdi və hz. İsanın rəhbərliyi altında müsəlmanların bu iki azğın ideologiyaya qarşı böyük fikri mübarizə aparacaqlarını ifadə edir. Allahın icazəsiylə, hz. İsa və hz. Mehdinin rəhbərliyi altında bu ideologiyalar fikirlə yox ediləcək və İslam əxlaqı yer üzünə hakim olacaq.

# Nəticə

Elmi cəhətdən süqut etmiş darvinizmin, materialistlər və ateistlər tərəfindən, inancsızlığın təbliğatı kimi istifadə edildiyi və bundan ötrü də, müdafiə olunduğu aydın bir həqiqətdir. Kitab boyunca da bu həqiqət, dəlilləriylə göstərilmişdir. Darvinizmlə niyə elmi mübarizə aparıldığını anlmayanların ortaya atdıqları bəhanələr isə, bu həqiqəti dəyişdirmir.

Darvinistlərin dünyanı necə gördüklərini və necə bir dünya istədiklərini, təkamülçü zooloq Riçard Doukinzin (Richard Dawkins) bu sözləri yenidən göstərir:

*Kor fiziki güclərin və genetik köçürmənin dünyasında, bəzi insanlar əzab çəkəcək, bəzi insanlar da daha yaxşı yaşayacaqlar. Eləcə də, bunun hər hansı qaydası, səbəbi və ya ədaləti yoxdur. Yaşadığımız kainat, tam da olmasını ümid etdiyimiz xüsusiyyətlərə malikdir və bunun təməlində hər hansı dizayn, məqsəd, yaxşılıq və ya pislik yoxdur, yalnız kor və mərhəmətsiz fərqsizlik var.*[60]

Doukinzin (Dawkins) sözlərindən də görüldüyü kimi, darvinist dünyagörüşü, həyatın kortəbii təsadüflərin məhsulu olduğu və insanın hər nə bahasına olursa olsun, həyatını davam etdirməkdən başqa bir məqsədi olmadığı yalanını təlqin edir. Bu batil təlqinlərə görə, bəzi insanların əzab içində yaşaması normaldır, dolayısilə bu insanlara kömək edərək təbiətin nizamını pozmaq mənasızdır. Ədalət gözləmək və ya ədalətli davranmaq da mənasızdır. Təkamülçülərin yanlış fikirlərinə görə kainat, qeyri-müəyyən şəkildə yaranmışdır, əhəmiyyətli olan insanların bu kainatda niyə və nə üçün mövcud olduqlarını düşünmələri deyil, yaşamaq üçün mərhəmətsiz olmalarıdır. Hər şeyin təsadüflərin əsəri olduğu bu mühitdə, varlığının heç bir məqsədi olmayan insan, vəhşi heyvanlar kimi vuruşmalı, döyüşməli, digərlərinə hücum etməli və özündən başqa heç kəsi düşünməməlidir.

Şübhəsiz ki, bu azğın məntiqin, axirətdə hesab verəcəyini bilərək hərəkət etməyi, gözəl davranışlar göstərməyi, Allaha qarşı məsul olduğunu unutmamağı, səbir etməyi, insanlara dəyər verməyi, fədakar olmağı, təvazökar davranmağı əmr edən İslam əxlaqıyla uyğunlaşdırılması qətiyyən mümkün deyil. Buna baxmayaraq, darvinizmlə İslamı uyğunlaşdırmağa çalışanlar, materialistlər və darvinistlərin hiyləgər bir oyununa alət olurlar. Səmimi müsəlmanlar, keçmişdə bu oyuna aldansalar da, artıq həqiqətləri görməli və belə bir aldanışın nə qədər təhlükəli nəticələr doğura biləcəyini qavramalıdırlar.

Yaşadığımız dövr, darvinizmdən dəstək alan ideologiyaların səbəb olduğu əzablar və çətinliklərlə dolu ağır bir dövrdür. Darvinizmə qarşı aparılan elmi mübarizə vəsiləsiylə, bu dövr yaxın gələcəkdə Allahın icazəsiylə sona çatacaq və bütün bəşəriyyət bu böyük bəladan xilas olmağın dincliyini və rahatlığını yaşayacaq. Rəbbimiz, Quranda nurunu mütləq tamamlayacağını vəd etmişdir:

**Onlar Allahın nurunu ağızları ilə söndürmək istəyirlər. Halbuki kafirlərin xoşuna gəlməsə də, Allah Öz nurunu tamamlamaqdan başqasını istəmir. (Tövbə surəsi, 32)**

Materialistlər və ateistlər də nə qədər din əxlaqının yayılmaması üçün səy göstərsələr, nə qədər öz ağıllarınca Allahın nurunu söndürmək istəsələr də, dünyagörüşlərinin təməli olan darvinizm artıq süqut etmişdir. Din əxlaqının yayılmaması üçün göstərdikləri səyin heç bir əsası qalmamışdır. Bu həqiqət gün keçdikcə daha çox insan tərəfindən görülür və bütün dünya insanları imana və din əxlaqına yönəlirlər. Allahın diləməsiylə çox yaxın zamanda insanlar dəstə-dəstə həqiqi din əxlaqına yönələcəklər və Rəbbimizin vəd etdiyi kimi, Allahın nuru bütün yer üzünə hakim olacaq.

İman edənlərin məsuliyyəti və duası isə, inkara qarşı aparılan və inşaAllah müvəffəqiyyətlə nəticələnəcək bu böyük fikri mübarizədə, bütün imkanlarıyla haqqın tərəfində olmaq və haqq üçün səy göstərməkdir. Arzumuz, öz ağıllarınca İslamla darvinizm arasında orta yol tapmağa çalışanların da, bu məsuliyyətlərini unutmamaları və tutduqları səhv yoldan tezliklə dönmələridir.

# İstinadlar:


1. Todd, S.C., Correspondence to Nature 401 (6752):423, 30 sentyabr. 1999

2.Colin Patterson, "Cladistics", Brian Leek ile Röportaj, Peter Franz, 4 mart 1982, BBC

3. Pierre-Paul Grassé, Evolution of Living Organisms, səh. 97

4. Prof. N. Heribert Nilsson, Lund University, Sweden Famous botanist and evolutionist, As quoted in: The Earth Before Man, səh. 51, http://www.netcentro.co.uk/steveb /penkhull/create3.htm

5. Charles Darwin, Türlerin Kökeni, Onur nəşriyyatı, 5-ci nəşr, Ankara 1996, səh. 185

6.Charles Darwin, Türlerin Kökeni, səh. 528

7. N.C. Gillespie, Charles Darwin and the Problem of Creation, 1979, səh. 2

8.SBS Vital Topics, David B. Loughran, aprel 1996, Stewarton Bible School, Stewarton, Scotland

9. H.A. Orr ve Jerry Coyne (1992), "The Genetics of Adaptation: A Reassessment", American Naturalist, 140, 726

10. Fred Hoyle-Chandra Wickramasinghe, Evolution from Space, New York, Simon & Schuster, 1984, səh. 130

11. S. J. Gould, Natural History, cild 85, 1976, səh. 30

12. http://www.icr.org/headlines/darwinvindicated.html; Was Darwin Really "Vindicated"?, Frank Sherwin, Institute for Creation Research, aprel 30, 2001

13. Ranganathan, B. G. Origins?, Carlisle, PA: The Banner of Truth Trust, 1988, səh. 20

14. http://www.rmplc.co.uk/eduweb/sites/sbs777/vital/evolutio.html

15. Norman Macbeth, Darwin Retried: An Appeal to Reason, Boston: Gambit, 1971, səh. 147

16. Alister McGrath, The Twilight Of Atheism, səh. 98

17. Carl Cohen, Communism, Fascism and Democracy, New York: Random House Publishing, 1967, səh. 408-409

18. www.trueorigin.org/holocaust.ht

19. Adolf Hitler, Mein Kampf, München: Verlag Franz Eher Nachfolger, 1993, səh. 44, 447-448; A.E. Wilder Smith, Man's Origin, Man's Destiny, The Word For Today Publishing 1993, səh. 163, 164

20. Henry Morris, The Long War Against God: The History and the Impact of the Creation, Evolution, Conflict, 8-ci nəşr, Michigan: Baker Book House, mart 1996, səh. 81

21. http://www.fixedearth.com/hlsm.html

22. Max Nordau, The Philosophy and Morals of War, North American Review 169 (1889):794 cited in hofstadter, social darwinism, səh. 171)

23. Conway Zirkle, Evolution, Marxian Biology and the Social Scene, Philadelphia; the University of Pennsylvania Press, 1959, səh. 527

24. Marks ve Engels, Mektuplar, səh. 426

25. Marks Engels, Mektuplar, II cild, səh. 126

26. Conway Zirkle, Evolution, Marxian Biology, and the Social Scene (Philadelphia: University of Pennsylvania Press, 1959), səh. 85-87.

27. Engels, Ütopik Sosyalizm-Bilimsel Sosyalizm, Sol nəşriyyatı, 1990, səh. 85)

28. Gertrude Himmelfarb, Darwin and the Darwinian Revolution, London: Chatto & Windus, 1959, səh. 348

29. Karl Marx Biyografi, Öncü nəşriyyatı, səh. 368

30. K. Mehnert, Kampf um Mao's Erbe, Deutsche Verlags-Anstalt, 1977

31. http://www.fixedearth.com/hlsm.html

32. Robert Milner, Encyclopedia of Evolution 1990 səh. 81

33. Komünizmin Kara Kitabı, səh. 17

34. P.J. Darlington, Evolution for Naturalists, 1980, səh. 243-244

35. Ken Ham, The Lie Evolution, 15-ci nəşr, Master Books, aprel 1997, səh. 84

36. Theodosius Dobzhansky, Ethics and Values in Biogical and Cultural Evolution, Zygon, the Journal of Religion and Science, Los Angeles Times'da yayınlandığı halıyla alınmışdır, 4 bölüm (iyun 16, 1974), səh. 6; (That Their words, səh. 413)

37. Stephen Jay Gould, Ever Since Darwin, səh. 223

38. Phillip E. Johnson, The Unraveling of Scientific Materialism. First Things: A Monthly Journal of Religion and Public Life. Issue: 77, noyabr 1997, 22

39. First Things: A Monthly Journal of Religion and Public Life, Issue: 158; dekabr 2005

40. First Things: A Monthly Journal of Religion and Public Life, Issue: 158; dekabr 2005

41. Phillip E. Johnson. Darwin On Trial, Intervarsity Press, Downers Grove, Illinois, 2nd

ed, 1993, səh. 155

42. Phillip E. Johnson, Overestimating the Power of Science, Commonweal. Volume: 125. Issue: 11, iyun 5, 1998, səh. 15

43. Phillip Johnson, Evrim Duruşması, Gelenek nəşriyyatı, İstanbul, 2003, səh. 65

44.http://members.shaw.ca/tfrisen/Science/scientistbelieving/scintist.htm

45.http://library.thinkquest.org/18802/factchin.htm

46.http://www.carnegiecouncil.org/viewMedia.php/prmID/5216

47.http://www.time.com/time/europe/html/030609/religion.html

48.http://www.cbn.com/CBNNews/News/040301a.asp

49. http://www.albertmohler.com/commentary_read.php?cdate=2005-06-01

50.http://www.iht.com/articles/2005/06/06/news/religion.php

51.http://news.bbc.co.uk/1/hi/sci/tech/4648598.stm

52.http://www.sabah.com.tr/2004/02/16/dun108.html

53. http://www.geocities.com/fedor_steeman/Europe.html

54. Mektubat, səh. 55

55. Sahih-i Müslim, cild 4/2221; İmam Şarani, Ölüm, Kıyamet, Ahiret ve Ahir Zaman Alametleri, Bedir nəşriyyatı, səh. 444

56. Şualar, səh. 300

57. Emirdağ Lahikası, səh. 259

58. Mektubat, səh. 6

59. Şualar, səh. 493

60. Micheal Ruse, The Evolution Wars, Rutgers University Press, New Jersey 2001, səh. 279

61. Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2

62. Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh.196

63. "New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, cild 63, noyabr 1982, səh. 1328-1330

62. Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7

65. Jeffrey Bada, Earth, fevral 1998, səh. 40

66. Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, cild 271, oktyabr 1994, səh. 78

67. Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 189

68. Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184

69.B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.

70. Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179

71. Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, cild 87, 1976, səh. 133

72. Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197

73. Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 75-94; Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, cild 258, səh. 389

74. J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, dekabr 1992

75. Alan Walker, Science, cild 207, 1980, səh. 1103; A. J. Kelso, Physical Antropology, 1-ci nəşr, New York: J. B. Lipincott Co., 1970, səh. 221; M. D. Leakey, Olduvai Gorge, III cild, Cambridge: Cambridge University Press, 1971, səh. 272

76. Time, noyabr 1996

77. S. J. Gould, Natural History, cild 85, 1976, səh. 30

78. Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19

79. Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 yanvar 1997, səh. 28

80. Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh.43

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

**Darvini məhv edən çətinliklər**

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

**Keçilməz ilk pillə: həyatın mənşəyi**

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

**Həyat həyatdan gəlir**

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri “spontane generation” adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

**XX əsrdəki nəticəsiz səylər**

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

"Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

**Həyatın kompleks quruluşu**

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

**- Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**

**- Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**

**- Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**

**-Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

**Təkamülün xəyali mexanizmləri**

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz"**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

## Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

## Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

**Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur**

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

“Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?” *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

**Darvinin puç olan ümidləri**

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

“Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük”. (Derek A. Ager, “The Nature of the Fossil Record”, Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

“Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar”. *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni “növlərin mənşəyi” Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

**İnsanın təkamülü nağılı**

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

*Australopithecus*

*Homo habilis*

*Homo erectus*

*Homo sapiens*

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. *(J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Aralık 1992)*

Təkamülçülər "*ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens*" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

“Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər”. *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın “təkamülü” yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

“Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür”. *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

**Darvin formulu!**

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni

atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah'ın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

### Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə

ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla

beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

**Beyinin içində görən və eşidən şüur kimə aiddir?**

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah’ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah’ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

**Materialist inanc**

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

“Bizim materializmə bir inancımız var, bu “a priori” (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan “a priori” bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik”. *(Richard Lewontin, “The Demon-Haunted World”, The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah’ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah’dır.

**Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir**

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan

Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**...Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur!**

**Həqiqətən, Sən biləNsən, müdriksən!**

**(Bəqərə surəsi, 32)**

Hazırkı dövrdə insanların dincliyini pozan, təhlükəsizlik və sülh mühitinin yaşanmasına mane olan cərəyanların təməlində darvinizm var. İnsanların darvinizmin yaratdığı təhlükələr və yalanları barədə xəbərdar edilməsi, bu təhlükəli zehniyyətin yox edilməsi mühüm əhəmiyyətə malikdir. Səmimi müsəlmanlar da bu həqiqəti dərk etməli, bu təhlükəni görməzlikdən gəlmək əvəzinə, bütün imkanlarını səfərbər edərək bu təhlükəni fikirlə yox etmək üçün səy göstərməlidirlər.

Necə ki, darvinizmi və səbəb olduğu təhlükələri qavraya bilməyənlər, darvinizmə qarşı aparılan elmi mübarizənin əhəmiyyətini də dərk etmirlər. Bu kitabda, həm darvinizmlə elmi mübarizənin əhəmiyyəti üzərində dayanılacaq, həm də bu böyük fikri mübarizədən qaçanların ortaya atdıqları bəhanələr cavablandırılacaq.